# ULU ÖNDƏR
# VƏ
# A Z Ə R B A Y C A N

***(publisistik məqalələr toplusu)***

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 29 sentyabr 2022 - ci il tarixli fərmanı ilə 2023-cü il respublikamızda "Heydər Əliyev"ili elan olunmuşdur. Bu kitab dövlətçilik salnaməsində silinməz izlər qoymuş, azərbaycanlı olması ilə ömür boyu fəxr etmiş, bütün dünyada Azərbaycanın rəmzi kimi qəbul edilən milli qürur və iftixar mənbəyimiz Heydər Əliyevin əziz xatirəsinə həsr olunur.***

**GƏNCƏ -2023**

**Tərtib etdi: Ruhulla Zahidov, yazıçı-jurnalist**
**Redaktor: Elçin Cavadov, Gəncə Dövlət Universitetinin kafedra müdiri**
**Dizayn: Ariz Babayev**

**"Ulu Öndər və Azərbaycan". Gəncə, 2023, 158 səh.**

***Kitab Gəncə şəhərinin rəhbər işçiləri, ictimaiyyət nümayəndələri, alimlər, pedaqoqlar, təhsil, idman və mədəniyyət işçiləri tərəfindən Ulu Öndərə həsr edilmiş yazıların toplusudur. Bu yazılarda müəlliflər müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, ümummilli lider Heydər Əliyevin həyatının 34 illik bir dövrünü əhatə edən tarixi taleyi, xalqımızın ictimai-siyasi və mədəni həyatının bütün sahələrinin dirçəlişində, Azərbaycanda milli dövlətçiliyimizin yaranmasında və inkişaf etdirilməsində oynadığı böyük rolundan, öz xalqını, vətənini həqiqi övlad məhəbbəti ilə sevən bu qüdrətli dövlət rəhbərinin xalqımız qarşısında göstərdiyi misilsiz xidmətlərindən söz açırlar.***

***Kitab az tirajla çap olunmasına baxmayaraq, geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.***

**"Star" Çap Evi,@ Gəncə, 2023.**

# Ön söz

1993-cü ilin Azərbaycan tarixində xüsusi yeri və çəkisi vardır. Məhz həmin ilin iyunundan başlayaraq Ulu Öndər Heydər Əliyevin həyata keçirdiyi uzaqgörən daxili və xarici siyasət nəticəsində ölkədə ictimai-siyasi sabitlik yarandı, həyatın bütün sahələrini bürümüş tənəzzülə son qoyuldu. Ulu Öndərin müdrik siyasəti Azərbaycanın müstəqilliyinin əbədiliyini təmin etdi.

Ümummilli liderin siyasi hakimiyyətə qayıdışı Azərbaycana sözün həqiqi mənasında qurtuluş gətirdi. Onun Respublikamıza başçılıq etdiyi illərdə milli maraqlarımızın təmin edilməsi istiqamətində kompleks tədbirlər həyata keçirildi. Ordu quruculuğu genişləndirildi, iqtisadiyyat dirçəldildi, təhsil, mədəniyyət, səhiyyə və digər sahələrdə böyük quruculuq işlərinə təkan verildi. Bir sözlə, doğma Azərbaycanımız yeni inkişaf mərhələsinə qədəm qoydu. Bu gün azad və firavan yaşayan Azərbaycan xalqı öz nicatı və tərəqqisinə görə bu böyük şəxsiyyətə - Heydər Əliyevə minnətdardır.

Heydər Əliyev hakimiyyətdə olduğu illərdə respublikamız nəhəng tikinti meydançasına çevirilmişdi. Həmin dövrlərdə ölkəmizdə irimiqyaslı obyektlərin, strateji əhəmiyyətli sənaye müəssisələrinin inşasına xüsusi əhəmiyyət verilirdi, bir sıra yeni təhsil ocaqları, o cümlədən Cəmşid Naxçıvanski adına hərbi məktəbi yaratmışdı. Ordu quruculuğunda bu məktəbin rolu böyükdür. Respublikamız müstəqillik əldə etdikdən sonra hərbi liseyin məzunları ordumuzun yaranmasında, vətənimizin ərazi bütövlüyünün qorunması uğrunda mübarizədə həmişə ön cəbhədə olmuşlar.

Ulu Öndər milli mədəniyyətimizin və təhsilin əsl hamisi idi. O, Azərbaycanı dünyada həmçinin xalqımızın milli dəyərləri, tarixi, mədəniyyət özəlliyi ilə tanıdırdı. O həyatımızın bütün sahələrində tərəqqi və intibaha, vətəndaş cəmiyyəti və hüquqi dövlət quruculuğuna xidmət edən, hər bir vətəndaşın həyatında kardinal dəyişikliklərlə müşayiət olunan islahatları əzmlə gerçəkləşdirən dahi şəxsiyyət idi.

Respublikamız bu gün dinamik sürətlə inkişaf edir. Demokratik, sivil dövlət quruculuğu, demokratiyanın inkişaf etdirilməsi yönümündə

atılan addımlar doğma Azərbaycanımızın dünyanın ən inkişaf etmiş ölkələri sırasına qatılmasında böyük amildir. Ulu Öndərin qurduğu müstəqil Azərbaycan dövləti hər gün daha da inkişaf edir və onun parlaq ideyaları müstəqillik yolumuzu daim işıqlandırır.

Müasir Azərbaycanın bütün sahələrdə əldə etdiyi inkişaf və uğurlar Heydər Əliyev siyasi məktəbinin layiqli davamçısı, onun siyasi kursunun varisi, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin yeritdiyi düzgün daxili və xarici siyasətin nəticəsində əldə olunmuşdur. Bu inkişaf hal-hazırda həyatımızın bütün sahələrini əhatə edir. Bu gün güclü iqtisadiyyata malik dövlətimiz öz xalqının firavan həyatı üçün əlindən gələni edir. Azərbaycan siyasi kursa malik sivil dövlətlər siyahısında ön cərgələrdə yer tutur, güclü hərbi və iqtisadi potensiala sahib dövlət kimi regionda aparıcı rol oynayır. Bu uğurlar Azərbaycan xalqının bütün övladlarını fərəhləndirir, onlarda qürur hissi oyadır. Xarici və daxili siyasətdə əldə olunan uğurlar respublika ictimaiyyəti tərəfindən sevinclə qarşılanır.

Dövlətimizin apardığı düzgün uğurlu siyasət milli-mənəvi dəyərlərimizin qorunması və inkişafı yönümündə də böyük dönüşə səbəb olmuşdur. Bu dəyərlərdən bəhrələnmək, onu qorumaq və inkişaf etdirmək kimi istəklər respublikamızın ictimaiyyəti qarşısında təxirəsalınmaz, ümummilli vəzifələr qoyur.

Mənəvi cəhətdən daha da təkmilləşmək, mənəvi mədəniyyətin zirvəsinə ucalmaq müasir həyatımızın obyektiv tələbidir. Gəncə şəhərinin ziyalıları dövlətimizin onlara göstərdiyi qayğını qiymətləndirir, bu qayğıya əməli işi ilə cavab verirlər.

Bu kitab Gəncə şəhərinin bir qrup ziyalılarının Ulu Öndər haqqında fikirlərinin toplusundan ibarətdir. Onların müəllifi olduqları yazılar müxtəlif mənbələrdən götürülmüş və publisistik yazılar olaraq, kitaba daxil edilmişdir. Ümid edirik ki, atdığımız bu addım oxucular və müəlliflər tərəfindən rəğbət və hörmətlə qarşılanacaqdır.

**Ruhulla Zahidov,**
**yazıçı-jurnalist.**

# NİYAZİ BAYRAMOV

***Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı***



Müasir Azərbaycan dövlətinin banisi Heydər Əliyev fenomenal şəxsiyyət kimi dövlətçiliyimizin dirçəlməsində, Azərbaycan xalqı və dövlətçiliyi üçün misilsiz xidmətlər göstərmişdir. Azərbaycan Respublikasının ümummilli lideri öz həyatını müasir Azərbaycan dövlətinin qurulmasına və xalqımızın müstəqillik arzusuna qovuşmasına həsr etmişdir. Heydər Əliyevin öz xalqı və dövləti qarşısında atdığı hər bir addım, qəbul etdiyi bütün qərarlar yalnız Azərbaycan dövlətinin müstəqilliyinin əbədi və dönməz olmasına yönəlmişdir. Azərbaycan xalqının çətin mübarizələrdən keçdiyi tarixi dönəmdə ümumxalq mənafeyini üstün tutan, xalq üçün çalışan, onun müstəqilliyini qoruyan Ulu Öndər Heydər Əliyev hakimiyyətə qayıdışı ilə Azərbaycan xalqını bəlalardan xilas etdi. Heydər Əliyev həm sovet dövründə, həm də müstəqillik şəraitində Azərbaycanın siyasi həyatına

böyük təsir göstərmiş dövlət xadimidir. Ümummilli lider Heydər Əliyev yeni müstəqillik əldə etmiş ölkədə böhranlı şəraitdə Azərbaycan Respublikasının daxildən silkələndiyi zaman xalqı birləşdirməyə, iqtisadi sabitlik yaratmağa və müstəqil dövlətin ərazisində siyasi sabitlik yaratmağa müvəffəq olmuşdur.

Heydər Əliyevin 15 iyun 1993-cü ildə xilaskarlıq missiyasını öz üzərinə götürərək Azərbaycan parlamentinin sədri vəzifəsinə seçilməsi müasir tariximizdə dönüş nöqtəsi, xalqın qurtuluşudur. Ulu öndər xalqın qəti iradəsi ilə, demokratik və qanuni yolla yenidən ölkə rəhbərliyinə qayıtdı və bununla da Azərbaycanın müstəqil dövlətçilik ənənələrinin inkişafında və dünya ölkələri arasında layiqli yer tutmasında yeni mərhələ başlandı. Heydər Əliyev rəhbər seçildikdən sonra Azərbaycan xalqının öz taleyini ona etibar etməkdə yanılmadığını hakimiyyətə dönüşünün ilk günlərindən sübuta yetirdi. Ulu öndər Azərbaycan xalqının xilaskarı olmasını ölkəmizin müstəqilliyini qoruyub saxlamaqla və yeni inkişaf üfüqləri açmaqla sübut etdi. Səriştəsiz hökumət Azərbaycanın müstəqilliyini təhlükə altında qoysa da, Heydər Əliyevin həyata keçirdiyi təxirəsalınmaz tədbirlər nəticəsində Azərbaycan bəlalardan xilas edildi və dövlət quruculuğu istiqamətində böyük işlər görüldü. Həmin illərdə bütün ölkənin həyatında hərtərəfli dönüş mərhələsi başlanmış, hər bir sahənin inkişafında böyük nailiyyətlər əldə edilmişdir. Heydər Əliyevin rəhbərliyi, cəsarətli addımları, təşəbbüsləri ilə həyata keçirilən uğurlu siyasət kursu nəticəsində Azərbaycan dünya miqyasında ən güclü, sabit, inkşaf etmiş nüfuzlu dövlətlərdən birinə çevrilmişdir. Heydər Əliyev müasir Azərbaycan dövlətinin təməlini, irəliyə doğru iri miqyaslı hərəkatının əsasını qoyub. Siyasətini xalqa xidmət məramı üzərində quran Heydər Əliyev, Azərbaycan xalqının xilaskarı bizim müasir dövlətimizin dünənini, bu günü və işıqlı gələcəyini qaranti edən liderdir.

Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi illərdə uzaqgörən siyasəti ilə ölkəni hərtərəfli inkişaf yoluna çıxararaq, Azərbaycana müstəsna uğurlar gətirib. Azərbaycanın mürəkkəb və taleyüklü tarixi

dövründə dövlətə rəhbərliyin ağır məsuliyyətini öz üzərinə götürmüş Heydər Əliyevin müstəqil dövlət təlimi və onun ayrılmaz tərkib hissəsi olan bu ideologiyanın həyata keçirilməsi müstəqil dövlətimizin bu günkü varlığının və gələcək inkişafının əsasını təşkil edir. Ulu öndərin respublikamıza rəhbərliyi dövründə bütün sahələrdə həyata keçirdiyi düşünülmüş, məqsədyönlü tədbirlər gələcəyə hesablanmış milli siyasətin parlaq ifadəsi idi.

Heydər Əliyev Azərbaycan xalqının qəlbində əbədi yer tutmuş, milyonlarla insanın rəğbətini qazanmış və tarixdə xilaskar, müasir Azərbaycan dövlətinin memarı və qurucusu kimi silinməz iz buraxmışdır. Müstəqil Azərbaycan dövlətinin uğurlarının təməlində Heydər Əliyev ideyaları dayanır və bu gün Ulu öndər Heydər Əliyevin uzaqgörən siyasətini Azərbaycanı gələcəyə inamla aparan Prezident İlham Əliyev uğurla davam etdirir.

Qurtuluş günü bizi böyük və şanlı Qələbəyə aparan yoldur. Ulu Öndərimizin ən böyük arzusu Qarabağın düşmən tapdağından azad edilməsi, ərazi bütövlüyümüzün bərpası idi. Heydər Əliyev yolunun layiqli davamçısı Ali Baş Komandan İlham Əliyev Ulu öndərin ən böyük arzusunu gerçəkləşdirdi, Azərbaycanın ərazi bütövlüyünü təmin etdi, 30 il işğal altında qalan əzəli torpaqlarımızı - Qarabağı mənfur erməni işğalından azad etdi.

Bu gün Azərbaycan qələbəyə doğru inamla addımlayır. İlham Əliyevin uzaqgörənliyi, müdrikliyi, qətiyyəti, dəmir iradəsi, zəngin dövlətçilik təcrübəsi əzmkar və yorulmaz fəaliyyəti nəticəsində ölkəmiz dünyada layiq olduğu mərtəbəyə yüksələ bilib. Prezident İlham Əliyev Ulu öndər Heydər Əliyevin siyasətini müasir dövrün tələblərinə uyğun həyata keçirməklə dövlətimizin regionda ən qüdrətli ölkəyə çevrilməsinə nail olub. Azərbaycanın milli maraqlarının sadiq təminatçısı kimi çıxış edən Prezident İlham Əliyev beynəlxalq miqyasda da ölkəmizin alternativsiz lideri kimi qəbul edilir.

## RAMİL ORUCOV
*YAP Gəncə şəhər təşkilatının sədri*



Müstəqil Azərbaycan dövlətinin banisi, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin xalqımız qarşısındakı misilsiz xidmətləri çoxəsrlik tariximizin ən parlaq səhifələridir.

Dahi şəxsiyyət Heydər Əliyev öz həyat yolu, amalı haqqında danışarkən demişdir: "İstər bir azərbaycanlı, Azərbaycan Respublikasının vətəndaşı, istərsə də onun rəhbəri, Prezident kimi mənim həyat amalım yalnız Sizə - bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi, mənəvi inkişafına xidmət olmuşdur. Bu yolda bütün gücümü və iradəmi yalnız müdrik və qədirbilən xalqımdan almışam. Ən çətin anlarda, ən mürəkkəb vəziyyətlərdə yalnız və yalnız xalqıma arxalanmışam. Bu da mənə dözüm, iradə verib və bütün uğurlarımı təmin edib".

Azərbaycan xalqının müstəqil və güclü dövlətə sahib olmaq arzusunu məhz Ulu Öndər Heydər Əliyev reallığa çevirib, çağdaş tariximizdə əbədiyaşarlığını təmin edib. Azərbaycan xalqının

xoşbəxtliyi ondadır ki, Ulu Öndər ölkəmizə rəhbərliyi dövründə qarşıya qoyduğu ali məqsədlərə doğru irəliləyərkən ən böyük dəstəyi xalqdan alırdı. Heydər Əliyev dühasının böyüklüyü bir də onda idi ki, Ulu Öndər hər addımda xalqının milli ruhunu, kimliyini təcəssüm etdirirdi. Ümummilli Lider Heydər Əliyevin müdrikliklə irəli sürdüyü azərbaycançılıq ideologiyası mənəvi inkişafımızın, Azərbaycanın əbədi müstəqilliyinin təminatçısına çevrilib. Müstəqil Azərbaycan dövlətçiliyinin ideoloji əsasını təşkil edən azərbaycançılıq ideyasının bünövrəsinin qoyulması, onun mükəmməl bir şəkildə irəli sürülməsi və icra olunması da məhz Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır.

"Hər bir insan üçün milli mənsubiyyəti onun qürur mənbəyidir. Həmişə fəxr etmişəm və bu gun də fəxr edirəm ki, mən azərbaycanlıyam" deyən Ulu Öndər Heydər Əliyev ən böyük azərbaycanlı idi.

Ulu Öndər Heydər Əliyevin 1993-cü ildə xalqın yekdil təkidi ilə hakimiyyətə dönüşündən sonra ölkədə davamlı sabitlik və iqtisadi tərəqqinin əsasının qoyulması ilə yanaşı, milli birliyə nail olundu, azərbaycançılıq anlayışı milli təfəkkür tərzinə çevrildi. Ulu Öndər yürütdüyü siyasətlə bütün dünya azərbaycanlılarının liderinə çevrildi, xarici ölkələrdə yaşayan soydaşlarımızı vahid məqsəd ətrafında birləşdirdi. Bundan sonra Azərbaycan dünyanın ayrı-ayrı ölkələrində məskunlaşmış soydaşlarımız üçün milli iftixar, mənəvi dayaq və güvənc yeri oldu. Ona görə ən yeni tariximizdə xalqımızın milli həmrəyliyinə nail olunması Ümummilli Lider Heydər Əliyevin Azərbaycan xalqı qarşısındakı əvəzsiz xidmətlərindən biri kimi dəyərləndirilir.

Ümummilli Liderin strateji inkişaf kursunu əzmlə davam etdirərək dövlətimizi tarixinin ən qüdrətli mərhələsinə çatdırmış, dahi rəhbərin azərbaycançılıq amalına sadiq Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin uğurlu fəaliyyəti nəticəsində Azərbaycanın yüksəlişinin ortaya qoyduğu ən böyük reallıqlardan biri xalqımızın milli həmrəyliyinin daha da güclənməsi olub. Ulu Öndərin arzuladığı

zirvələri fəth edən ölkə Prezidentimizin rəhbərliyi ilə Azərbaycan Ordusunun 44 günlük Vətən müharibəsində qazandığı Zəfər dövlətçilik tariximizdə milli həmrəyliyi bir daha təcəssüm etdirdi.

Bu gün ən böyük azərbaycanlı Heydər Əliyevin müqəddəs ruhu şaddır. Azərbaycan artıq Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi ilə Ulu Öndərin arzuladığı zirvələri fəth edib, taleyüklü məsələləri, planları uğurla həyata keçirir. Azərbaycan qalib ölkə, xalqımız müzəffər xalq kimi yaşayır, azad olunmuş torpaqlarımız cənnətə çevrilir. Qalib ölkəmiz dahi şəxsiyyət Heydər Əliyev yolu ilə qətiyyətlə irəliləyir və Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə müasir inkişaf tariximizin yeni parlaq salnaməsini yazır.

Ulu Öndər Heydər Əliyevin işıqlı ideyaları, amalları bundan sonra da yolumuza nur saçacaq, Azərbaycan xalqını daha uğurlu gələcəyə aparacaq.

## YUSİF YUSİBOV

*Gəncə Dövlət Universitetinin rektoru, professor*



10 may - Ümummilli lider, mərhum prezident, dövlət xadimi, böyük siyasətçi Heydər Əliyevin doğum günüdür. Bu il 100 - cü ildönümü olan bu tarixin qeyd olunması bir ənənə halını almışdır.

Heydər Əliyev 1923-cü il mayın 10-da Azərbaycanın Naxçıvan şəhərində anadan olmuşdur. O, 1939-cu ildə Naxçıvan Pedaqoji Texnikumunu bitirdikdən sonra Azərbaycan Sənaye İnstitutunun (indiki Azərbaycan Dövlət Neft Akademiyası) memarlıq fakültəsində təhsil almışdır. Başlanan müharibə ona təhsilini başa çatdırmağa imkan verməmişdir. 1941-ci ildən Heydər Əliyev Naxçıvan MSSR Xalq Daxili İşlər Komissarlığında və Naxçıvan MSSR Xalq Komissarları Sovetində şöbə müdiri vəzifəsində işləmiş və 1944-cü ildə dövlət təhlükəsizliyi orqanlarına işə göndərilmişdir. Bu dövrdən təhlükəsizlik orqanları sistemində çalışan Heydər Əliyev 1964-cü ildən Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizliyi Komitəsi sədrinin müavini, birinci müavini, 1967-ci ildən isə sədri vəzifəsində işləmiş, general-mayor rütbəsinə qədər yüksəlmişdir. Həmin illərdə o,

Leninqradda (indiki Sankt-Peterburq) xüsusi ali təhsil almış, 1957-ci ildə isə Azərbaycan Dövlət Universitetinin tarix fakültəsini bitirmişdir. Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin 1969-cu il iyul plenumunda Heydər Əliyev Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçildi. 1982-ci ilin dekabrında Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvü seçilən Heydər Əliyev SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə təyin edilmiş və SSRİ-nin rəhbərlərindən biri olmuşdur. Heydər Əliyev iyirmi il ərzində SSRİ Ali Sovetinin deputatı, beş il isə SSRİ Ali Soveti sədrinin müavini olmuşdur. Heydər Əliyev 1987-ci ilin oktyabrında Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun və şəxsən Baş katib Mixail Qorbaçovun yeritdiyi siyasi xəttə etiraz əlaməti olaraq, tutduğu vəzifələrdən istefa vermişdir. 1990-cı ilin iyulunda Azərbaycana qayıdan Heydər Əliyev ilk əvvəl Bakıda, sonra isə Naxçıvanda yaşamış, həmin ildə də Azərbaycan Ali Sovetinə deputat seçilmişdir. O, 1991 – 1993-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri, Azərbaycan Respublikası Ali Soveti sədrinin müavini olmuşdur. Heydər Əliyev 1992-ci ildə Yeni Azərbaycan Partiyasının Naxçıvan şəhərində keçirilmiş təsis qurultayında partiyanın sədri seçilmişdir. 1993-cü ilin may-iyununda ölkədə siyası böhranının son dərəcə kəskinləşməsi ilə əlaqədar o zamankı rəhbərlik Heydər Əliyevi Bakıya dəvət etmişdir. Heydər Əliyev 1993-cü il 15 iyunda Azərbaycan Ali Sovetinin sədri seçilmiş, iyulun 24-də isə Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini icra etməyə başlamışdır. 1993-cü il oktyabrın 3-də ümumxalq referendumu nəticəsində Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti seçilmişdir. O, 1998-ci il oktyabrın 11-də keçirilən seçkilərdə səslərin 76,1 faizini toplayaraq, yenidən Azərbaycan Respublikasının Prezidenti seçilmişdir. 2003-cü il 15 oktyabrda keçirilən prezident seçkilərində namizədliyinin irəli sürülməsinə razılıq vermiş Heydər Əliyev səhhətində yaranmış problemlərlə əlaqədar seçkilərdə iştirak etməkdən imtina etmişdir. 2003-cü il dekabrın 12-də Azərbaycanın ümummilli lideri Heydər

Əliyev Amerika Birləşmiş Ştatlarının Klivlend Klinikasında vəfat etmişdir.

Heydər Əliyev bütün həyatını xalqa sədaqətlə xidmətə həsr etmiş, öz fəaliyyətində həmişə xalqa arxalanmış, ən çətin anlarda ona müraciət etmişdir. Azərbaycan xalqı heç vaxt ondan dəstəyini əsirgəməmişdir. Azərbaycan xalqının ümummilli lideri, müdrik rəhbər və dahi şəxsiyyət Heydər Əlirza oğlu Əliyevin əziz xatirəsi Azərbaycan xalqının qəlbində əbədi yaşayacaqdır.

Çox sevindirici haldır ki, bu gün Ulu Öndərimiz Heydər Əliyevin qurduğu dövlət Cənab Prezidentimiz tərəfindən layiqincə idarə olunur. Ulu Öndərimizin Azərbaycan üçün ürəyində gerçəkləşdirmək istədiyi bütün arzuları gerçək olur. Son 17 ildə Cənab Prezidentimiz tərəfindən aparılan daxili və xarici siyasət Azərbaycanımızı regionun lider dövlətlərindən birinə çevirib. Əminliklə deyə bilərik ki, ölkəmiz bundan sonra da Cənab Prezidentimiz tərəfindən daha da inkişaf etdiriləcək.

Bir daha Ulu Öndərimiz Heydər Əliyevi rəhmətlə anırıq və Allah rəhmət eləsin deyirik.

# FUAD ƏLİYEV

*AMEA-nın Gəncə bölməsinin sədri, kimya elmləri doktoru, akademik*



Ulu öndər Heydər Əliyevin memarı olduğu müasir müstəqil Azərbaycan dövləti Azərbaycan Xalq Cümhuriyyətinin varisidir.

Azərbaycan Xalq Cümhuriyyəti müasir müstəqil Azərbaycanımızın yaradılması üçün zəruri hüquqi və siyasi bazanın formalaşmasını təmin edib.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2018-ci ildə, Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi münasibətilə təşkil olunmuş rəsmi qəbulda etdiyi çıxışında demişdir: "Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması tarixi hadisədir. İlk dəfə olaraq müsəlman aləmində demokratik respublika yaradılmışdır. Biz haqlı olaraq fəxr edirik ki, bu respublikanı Azərbaycan xalqı yaradıbdır."

Həqiqətən də cəmi 23 ay mövcud olmasına baxmayaraq, Azərbaycan Xalq Cümhuriyyəti (AXC) xalqımızın müstəqillik tarixinin başlanğıcı olmaqla qədim dövlətçilik tarixinə malik olan Azərbaycanın həyatında müstəsna əhəmiyyət kəsb edən rol oynayıb. Məhz XX əsrin əvvəllərində, bütün dünyanın siyasi nizamının yenidən qurulduğu bir dövrdə istiqlaliyyətini elan etməklə Azərbaycan Xalq Cümhuriyyəti

sübut etmişdir ki, Azərbaycan xalqı müstəqil yaşamağa, öz dövlətçilik ənənələrini bərpa etməyə qadirdir. Lakin, ulu öndər Heydər Əliyevin də hər zaman vurğuladığı kimi, müstəqilliyə aparan yol ən çətin yoldur. O cümlədən AXC qurucularının da yolu heç də rəvan olmamış, cümhuriyyət yaranmamışdan öncə xalqımızın taleyində dəhşətli faciələr baş vermişdir. Tarixin müxtəlif mərhələlərində sərsəm “Böyük Ermənistan” ideyasını gerçəkləşdirməyə çalışan erməni millətçiləri bolşevik silahlı dəstələri ilə birgə 1918-ci ilin mart-aprel aylarında azərbaycanlılara qarşı soyqırımı həyata keçirmişlər. Həmin günlərdə Bakı şəhərində və respublikamızın digər bölgələrində on minlərlə dinc sakin yalnız azərbaycanlı olduqlarına görə qətlə yetirilmiş, yaşayış məntəqələri dağıdılmış, mədəniyyət abidələri, məscid və qəbiristanlıqlar yerlə-yeksan edilmişdir. Əlbəttə ki, bu soyqırımı törətməklə erməni-bolşevik qüvvələri əslində daha böyük məqsədlər güdür, Azərbaycan torpaqlarını işğal etmək istəyirdilər. Lakin 1918-ci ilin may ayında Azərbaycan Xalq Cümhuriyyətinin yaranması, milli dövlətçiliyin bərpası, Azərbaycanın müstəqilliyi uğrunda mübarizənin başlanması düşmənlərin bu planlarını pozmuş oldu. May ayının 28-də Azərbaycan Xalq Cümhuriyyətinin qəbul etdiyi Konstitusiya aktı statusuna malik olan ilk hüquqi sənəd - İstiqlal Bəyannaməsində müstəqil Azərbaycan dövlətinin yarandığı bəyan olunmuş, onun hakimiyyətinin şamil edildiyi ərazinin hüdudları müəyyənləşdirilmiş, həmçinin dövlətin əsas fəaliyyət prinsipləri öz əksini tapmışdı. Eyni zamanda AXC dövründə müstəqil dövlət quruculuğu baxımından mühüm olan bir çox qərarlar qəbul olundu. Məsələn, belə qərarlardan biri Xalq Cümhuriyyətinin hökuməti tərəfindən 1918-ci il iyunun 26-da qəbul edilmiş əlahiddə diviziyanın yaradılması barədə qərar oldu ki, bu da faktiki olaraq Azərbaycanın ilk Milli Ordu hissəsi idi. Həmçinin avqust yının 27-də tarixdə ilk dəfə olaraq Azərbaycan dilinin dövlət dili elan edilməsi haqqında qərarın qəbul olunması da müstəsna əhəmiyyət kəsb edən bir addım idi. 1918-ci il noyabrın 9-da isə Azərbaycanın indiki üçrəngli dövlət bayrağı qəbul edildi və Azərbaycan vətəndaşları haqqında qanun qəbul olundu. Məhz AXC dövründə Azərbaycanın ilk

Parlamenti və Hökuməti, dövlət aparatı yaradıldı, ölkənin sərhədləri müəyyənləşdirildi, bayrağı, himni və gerbi yaradıldı. Cümhuriyyət hökumətinin həyata keçirdiyi uğurlu xarici siyasət sayəsində Azərbaycan Xalq Cümhuriyyəti həmin dövrdə qısa zaman ərzində beynəlxalq miqyasda tanındı. 1918-ci il mayın 30-da Nazirlər Şurasının sədri Fətəli xan Xoyski Türkiyə, Almaniya, Avstriya-Macarıstan, Fransa, Böyük Britaniya, İtaliya, ABŞ, Bolqarıstan, Rumıniya, İran, İspaniya, Hollandiya, Rusiya, İsveç, Ukrayna, Danimarka və Yaponiya xarici işlər nazirliklərinə Azərbaycan Xalq Cümhuriyyətinin yaranması barədə məlumat göndərdi. 1919-cu ilin sonlarına qədər cümhuriyyət hökuməti artıq 20-dən çox ölkə ilə diplomatik əlaqələr yaratmışdı.

Bir sözlə, Azərbaycan Xalq Cümhuriyyəti 2 ildən də az müddət ərzində mövcud olmasına rəğmən üzərinə düşən mühüm tarixi hadisələri layiqincə yerinə yetirdi və bununla da müasir müstəqil Azərbaycanımızın yaradılması üçün zəruri hüquqi və siyasi baza formalaşmış oldu.

**Cümhuriyyətin dövlətçilik tariximizdəki rolu bu gün də daim ehtiramla xatırlanır.**

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyətinə yüksək qiymət verərək öz çıxışlarının birində demişdir: “Azərbaycan Xalq Cümhuriyyəti qısa zamanda çox işlər gördü. İlk dəfə olaraq müsəlman Şərqində demokratik bir respublika yaratdı. İlk dəfə olaraq Azərbaycan xalqı müstəqil yaşamaq şəraitinin nə olduğunu hiss etdi, gördü.”

Azərbaycan Xalq Cümhuriyyətin dövlətçilik tariximizdəki müstəsna rolu dövlətimiz və qədirbilən xalqımız tərəfindən hər zaman ehtiramla xatırlanır. Təsadüfi deyil ki, hazırda qeyd etdiyimiz Azərbaycanın Respublika Günü, Ordu Günü, Bayraq Günü kimi dövlət bayramları da məhz 1918-ci ildə yaradılmış dövlət idarəetmə strukturlarının tarixi ilə müəyyən olunub. Ulu öndər Heydər Əliyev və Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev hər zaman Azərbaycan Xalq Cümhuriyyətinin dövlətçilik tariximizdə önəmli yer tutduğunu vurğulamışlar. Ulu öndər Heydər Əliyevin Azərbaycan Xalq

Cümhuriyyətinin 80 illiyinin keçirilməsi haqqında, Azərbaycan Xalq Cümhuriyyətinə abidə ucaldılması haqqında sərəncamları, eləcə də Prezident İlham Əliyevin Azərbaycan Xalq Cümhuriyyətinin 90 illik yubileyi, Məhəmməd Əmin Rəsulzadənin 130 illik yubileyi, həmçinin Cümhuriyyətin 100 illik yubileyinin keçirilməsi haqqında sərəncamları da məhz tariximizin bu şanlı səhifələrinə verilən yüksək qiymətin təzahürləridir.

70 il davam edən sovet dövründə Azərbaycan Xalq Cümhuriyyətinin yaradıcıları və onların fəaliyyəti qadağan olunmuşdu. Hətta Azərbaycan tarixçilərinə də Azərbaycan Xalq Cümhuriyyətinin adının çəkilməsi belə yasaq olunmuşdu. Yalnız Azərbaycan 1991-ci ildə öz dövlət müstəqilliyini elan etdikdən sonra Azərbaycan Xalq Cümhuriyyəti ilə bağlı bütün qadağalara son qoyuldu. Azərbaycan Xalq Cümhuriyyəti dövrünün dövlət rəmzləri və himni bərpa olundu. Azərbaycan Xalq Cümhuriyyətinin vətən tarixində yenidən bərpasına xüsusi qiymət verən Heydər Əliyev demişdir: "Biz ilk Demokratik Cümhuriyyətin yaranması gününü əziz tutaraq, onu Azərbaycanın dövlət müstəqilliyi günü - Respublika Günü elan etmişik və bu bizim milli bayramımızdır."

**XX əsrin sonlarında Azərbaycan xalqının yenidən əldə etdiyi müstəqilliyin əbədiliyini Heydər Əliyev təmin etdi.**

Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi münasibətilə təşkil olunmuş rəsmi qəbulda çıxış edən Ölkə Prezidenti cənab İlham Əliyev demişdir: "1993-cü il tariximizdə dönüş nöqtəsi olmuşdur. Əslində, bizim müstəqil tariximiz o ildən başlamışdır. Çünki 1991-1993-cü illərdə müstəqillik formal, şərti xarakter daşıyırdı. Azərbaycan, demək olar ki, xaricdən idarə olunurdu. Biz hamımız bunu yaxşı bilirik. Ona görə Azərbaycan xalqı haqlı olaraq Heydər Əliyevi Azərbaycanın dövlət müstəqilliyinin banisi, Azərbaycan dövlətinin qurucusu kimi tanıyır və bu, tarixi həqiqətdir."

Həqiqətən də 1991-ci il oktyabrın 18-də Azərbaycan parlamenti Müstəqillik haqqında Konstitusiya aktını qəbul edərək, suverenliyimizi bütün dünyaya bəyan etdisə də, 1991-1993-cü illər Azərbaycanın

müstəqillik və dövlətçiliyinin mövcudluğunun böyük risk altında qaldığı, xaos və anarxiya dövrü kimi tarixə düşdü.

Həmin dövrdə Azərbaycan rəhbərliyində olan qüvvələr ölkəni lazımi səviyyədə idarə edə bilmədilər və gənc müstəqil dövləti idarəolunmaz vəziyyətə saldılar. 1991-1993-cü illərdə Azərbaycanda yaşanan xoşagəlməz hadisələr ölkənin müstəqilliyini və hətta varlığını sual altına qoymuşdu. Ölkədə xaos, anarxiya, özbaşınalıq hökm sürürdü. Bir tərəfdən erməni işğalçıları xarici qüvvələrin dəstəyi ilə tarixi yurd yerlərimizi işğal edir, digər tərəfdən ölkə daxilində hakimiyyət uğrunda çəkişmələr vətəndaş müharibəsinə çevrilirdi. Artıq 1993-cü ilin yayında vəziyyət fəlakət həddinə çatdı. Azərbaycan müstəqilliyini və dövlətçiliyini itirmək təhlükəsi ilə üz-üzə qaldı. Ulu öndər Heydər Əliyev o dövrdəki vəziyyəti düzgün qiymətləndirərək belə bir haqlı nəticəyə gəlmişdi ki, 1991-1993-cü illərdə Azərbaycan "ölüm, ya olum" dilemması qarşısında qalmışdı. Məhz belə bir ağır zamanda Azərbaycan xalqının iradəsi və təkidi ilə ümummilli lider Heydər Əliyev müstəqil dövlətimizin xilaskarı olaraq yenidən ölkənin siyasi hakimiyyətinə qayıtdı. 1993-cü ilin iyun ayında Ali Sovetin sədri seçilən Heydər Əliyev millət qarşısında çıxış edərək, mövcud dövlət böhranının aradan qaldırılmasının yollarını, müstəqil Azərbaycan dövlətinin daxili və xarici siyasətinin əsas istiqamətlərini müəyyənləşdirdi. Beləliklə, uzun sürən daxili çəkişmələrdən sonra, ölkədə ictimai-siyasi sabitlik yarandı. Ulu öndər Heydər Əliyevin fenomenal parlaq və iti dövlətçilik zəkası, cəsarəti və sarsılmaz iradəsi xalqımızı və dövlətimizi böyük təhlükələrdən xilas etdi, Xalq Cümhuriyyəti dövründə təməli qoyulmuş müstəqil Azərbaycan ideyasını gerçəkləşdirdi, müstəqilliyimizi dönməz və əbədi etdi. Beləliklə, ümummilli lider Heydər Əliyevin misilsiz fəaliyyəti nəticəsində Azərbaycan milli dövlətçiliyi yenidən süquta uğramaq təhlükəsindən xilas oldu. Bunu da qeyd etmək lazımdır ki, müstəqilliyimizin Heydər Əliyev dövrü ölkəmizdə ictimai-siyasi sabitliyin bərqərar olması, demokratik hüquqi dövlət quruculuğunun geniş vüsət alması, suveren Azərbaycanın əsas qanunu olan

Konstitusiyanın qəbul edilməsi, ölkəmizin hərtərəfli köklü islahatlar aparılmaqla daimi yüksəliş yoluna çıxması və gələcək inkişaf strategiyasının müəyyən edilməsi ilə səciyyələnir.

**Azərbaycanın yolu - Zəfər yoludur!**

Bu gün Azərbaycanda əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş siyasi kurs və islahatlar Ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən müasir dövrün tələblərinə cavab verən yeni kontekstdə uğurla davam etdirilir. Birmənalı olaraq ölkəmizdə 2003-cü ildən sonra bütün sahələrdə inkişafı daha yüksək dinamika ilə təmin edilmişdir. Azərbaycan güclü, qüdrətli dövlətə çevrilmişdir. Bu gün Azərbaycan, sözün əsl mənasında, müstəqil siyasət aparan ölkədir. Etiraf olunmalıdır ki, müasir dünyada ərazisi və əhalisi o qədər də böyük olmayan ölkələr arasında müstəqil siyasət aparmaq iqtidarında olan ölkələr elə də çox deyil. Lakin Azərbaycan Prezidentinin uğurla və davamlı şəkildə həyata keçirdiyi siyasət bilavasitə milli maraqlar üzərində qurulub. Möhtərəm dövlət başçımız özü çıxışlarının birində bu barədə belə deyib: "Azərbaycan xalqının maraqları bizim siyasətimizin mənbəyidir, onun əsasıdır. Kənardan bizim siyasətimizə təsir etmə imkanları sıfıra bərabərdir. Bunu yaxın tarix göstərib. İndi deyə bilərəm ki, belə cəhdlər də yoxdur. Ona görə ki, biz prinsipial siyasət aparırıq. Bu siyasət Azərbaycan xalqı tərəfindən dəstəklənir və müdafiə olunur. Xalq-iqtidar vəhdəti bizim uğurlarımızın əsas səbəbidir. Azərbaycan bu gün beynəlxalq arenada öz mövqelərini gücləndirir, beynəlxalq aləmdə çox böyük nüfuza malik olan bir ölkədir. Bizimlə əməkdaşlıq edən ölkələrin sayı getdikcə artır." Həqiqətən də Azərbaycan bu gün dünya miqyasında dayanıqlı inkişafa və möhkəm ictimai-siyasi sabitliyə malik olan ölkə kimi tanınır. Məhz dövlət başçımızın yürütdüyü praqmatik daxili və xarici siyasətin, eləcə də Xalq-iqtidar vəhdətinin məntiqi nəticəsi olaraq Azərbaycan ötən il özünün dövlətçilik tarixində ən böyük, ən parlaq zəfərlərdən birini qazandı. Ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında Azərbaycan 44 gün davam edən Vətən müharibəsində tarixi Qələbə əldə edərək Ermənistanın 30 il işğal altında saxladığı ərazilərini geri

qaytardı və bununla da ölkənin ərazi bütövlüyü bərpa olundu. Bu gün Azərbaycan öz parlaq gələcəyinə doğru inamla irəliləyir və artıq heç bir qüvvə bizi bu Zəfər yolundan döndərə bilməz!

# PƏRVİN KƏRİMZADƏ

***Millət vəkili***



Ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövr dövlətçilik tariximizin şanlı səhifəsidir.Ümummilli lider Heydər Əliyev bütün bəşəri xüsusiyyətləri özündə cəmləşdirərək milli lider, qüdrətli dövlət xadimi kimi müstəqil Azərbaycan dövlətinin təməlini qoyub. Bu dahi şəxsiyyət mərdliyi, cəsarəti ilə ölkəmizi bütün təhlükələrdən qoruyub, dövlət, xalq qarşısında duran vəzifələrin uğurla həyata keçirilməsinə möhkəm zəmin yaradıb. Heydər Əliyev Azərbaycan dövlətinin haqq səsini bütün dünyaya çatdırdı, müstəqil Azərbaycan dövlətçiliyinin siyasi, iqtisadi əsaslarını yaratdı, xalqın müstəqil və güclü dövlətə sahib olmaq arzusunu reallığa çevirdi, adını qızıl hərflərlə bəşəriyyət tarixinə yazdırdı. Məhz Azərbaycanda müstəqilliyin əbədi və dönməz xarakter alması, milli-mənəvi yüksəliş, azərbaycançılıq ideyalarının bərqərar olması, gələcək inkişaf üçün güclü və möhkəm əsasların yaradılması Ulu Öndərin zəngin təcrübəyə, parlaq zəkaya, ali liderlik qabiliyyətinə, yüksək siyasi idarəçiliyə əsaslanan siyasəti nəticəsində mümkün oldu. Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövr minilliklər boyu davam edən dövlətçilik tariximizin şanlı səhifəsinə çevrildi.

Ümummilli liderimiz Heydər Əliyevin xalqımız qarşısında misilsiz xidmətlərindən bəhs edərkən, xüsusilə 1990-cı illərin əvvəllərində Azərbaycanın parçalanmaq, məhv olmaq təhlükəsi ilə üz-üzə qaldığı bir zamanda xilaskarlıq missiyasının həyata keçirilməsi vurğulanmalıdır. Məhz belə bir zamanda böyük şəxsiyyət Heydər Əliyev xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdaraq Azərbaycanı düçar olduğu ağır durumdan xilas etdi və bu tarixi qayıdış Azərbaycanın müasir tarixinə Milli Qurtuluş Günü kimi daxil oldu. Böyük ictimai, siyasi və tarixi əhəmiyyətə malik 1993-cü ilin 15 İyun - Milli Qurtuluş Günü Azərbaycanın siyasi tarixində keyfiyyətcə yeni bir mərhələnin başlanğıcını qoydu.

1993-cü ilin əvvəllərindən ölkədə fəaliyyət göstərən silahlı dəstələrin yol verdikləri başıpozuq fəaliyyət, Azərbaycanın daxilində qardaş qırğını və vətəndaş müharibəsinə zəmin yaranması, ayrı-ayrı bölgələrdə isə separatçılıq və parçalanma meyllərinin baş qaldırması Azərbaycanı bir dövlət kimi varlığına son qoyulması ilə üzləşdirmişdi. Ölkədə səriştəsiz idarəetmə nəticəsində bütün sahələri böhran bürümüşdü. Belə bir vaxtda 1993-cü ilin iyununda xalqın təkidli tələbi ilə ulu öndər Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışı Azərbaycan müstəqilliyini itirmək təhlükəsindən azad etdi. Azərbaycanın inkişafı, müstəqilliyi və gələcəyində müstəsna rol oynayan, daim xalqına arxalanan, ona arxa və dayaq olan ümummilli lider Heydər Əliyevin uzaqgörən, praqmatik siyasəti nəticəsində ölkəmizin dövlətçilik tarixinin şanlı səhifəsi yazıldı. 1993-cü il oktyabrın 3-nə təyin edilmiş Prezident seçkiləri Azərbaycan xalqı üçün mühüm tarixi hadisə, müstəqil Azərbaycan dövləti üçün isə qurtuluşa gedən yolun ilk pilləsi idi. Xalq böyük səs çoxluğu ilə öz seçimini etdi və ulu öndər Heydər Əliyevi Prezident seçdi. Həmin seçimlə bugünkü qüdrətli Azərbaycan dövlətinin təməli qoyuldu. Xalqın mütləq əksəriyyətinin səsini qazanaraq Azərbaycan Respublikasının Prezidenti seçilən Ulu Öndər 1993-cü il oktyabrın 10-da dövlətə və xalqa sədaqət andı içərək Azərbaycanı böyük bəlalardan, faciələrdən hifz edib, ölkəni sabitlik, iqtisadi inkişaf və tərəqqi yoluna çıxarıb, qlobal enerji-kommunikasiya layihələrini reallaşdırmaqla Vətənə sədaqətlə xidmətin əyani nümunəsini yaratdı.

Ümummilli Liderin ölkə rəhbərliyinə tarixi qayıdışından sonra Azərbaycanda dövlət və cəmiyyət həyatının, sosial-siyasi vəziyyətin saflaşdırılması, sağlamlaşdırılması prosesi başladı. Həmin qarışıq dövrdə dahi şəxsiyyət Heydər Əliyevin yüksək idarəçilik məharəti,

siyasi uzaqgörənlik və sarsılmaz qətiyyəti vətəndaş müharibəsinin qarşısını aldı. Xalq saysız-hesabsız problemlər məngənəsində sıxılan ölkəmizin ən ağır və həlledici dövrdə onu qurtuluş yolu ilə aparmağa qadir olan yeganə şəxsiyyətin məhz Heydər Əliyev olduğuna bir daha şahidi oldu. Böyük Britaniyanın sabiq Baş naziri Toni Bleyer deyirdi: "Heydər Əliyev Azərbaycanın böyük lideri idi. O, böhranlar dövründə öz ölkəsinə sabitlik gətirdi. Azərbaycan xalqı onun qoyduğu irs ilə fəxr edə bilər". Heydər Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial-iqtisadi, elmi-mədəni həyatında, beynəlxalq əlaqələrində də dönüş yarandı, elmi əsaslara, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başladı.

Bu gün Ulu Öndərin memarı və qurucusu olduğu müstəqil Azərbaycan Respublikasının dövlət müstəqilliyi etibarlı əllərdədir. Dünya dövlətləri sırasında layiqli yer tutan Azərbaycanın Ulu Öndərimiz tərəfindən müəyyənləşdirilən inkişaf xəttini dövlətimizin başçısı İlham Əliyev uğurla davam etdirir. 2003-cü ildən ötən dövrdə Azərbaycan Respublikasının beynəlxalq aləmdə mövqeləri daha da möhkəmlənib, ölkəmizin dünya dövlətləri arasında nüfuzu artıb. Azərbaycanın qütblər arasında tranzit ölkəyə çevrilməsi bu qədim diyarda siyasi düşüncələrin, elmi fikirlərin, mədəniyyətlərin, dini baxışların dialoqunun baş tutmasını şərtləndirib.

Prezident İlham Əliyevin ötən illər ərzində həyata keçirdiyi uğurlu siyasətin bariz nəticəsi Azərbaycanın 30 ilə yaxın davam edən münaqişədə qalib tərəfə çevrilməsi və ərazi bütövlüyümüzün birmənalı təsdiqi ilə özünü ifadə edir. İllərdir torpaqlarının 20 faizi düşmən tapdağı altında qalan Azərbaycan "Qarabağ Azərbaycandır!" reallığını cəmi 44 gün ərzində tarixə şərəflə həkk etdirdi. Müzəffər Azərbaycan Ordusu cəbhənin bütün istiqamətlərində uğurlu əks-hücum əməliyyatları keçirərək işğal olunmuş ərazilərimizdən yağı düşməni qovdu, işğalçı Ermənistan hakimiyyətinə layiq olduğu yeri göstərdi. Bu savaş xalq-iqtidar birliyindən güc alan Azərbaycanın qüdrətinin, milli birliyinin sarsılmazlığının göstəricisi oldu. Eyni zamanda, Azərbaycan xalqının qazandığı Zəfərin möhtəşəmliyi Prezident İlham Əliyevin mümkünsüzü mümkünə çevirmək qüdrətindən bəhrələndi. Bu Qələbə son əsrlərin ən böyük qalibiyyəti, münaqişənin birdəfəlik bitməsi, dünya azərbaycanlılarının bir yumruq kimi birləşməsi ilə tarixə yazıldı. Əlbəttə ki, qazanılan hər bir uğurumuzun, o cümlədən möhtəşəm

Qarabağ Zəfərimizin kökündə, əsasında ulu öndərimiz Heydər Əliyevin müəyyənləşdirdiyi siyasi xətt, onun ideyaları dayanır.

# NAQİF HƏMZƏYEV

*Millət vəkili*



Ulu öndər Heydər Əliyevə xalqımızın məhəbbəti sonsuzdur, əbədidir.

"Xalq dövlət üçün yox, dövlət xalq üçün olmalıdır" deyən Ümummilli lider Heydər Əliyev xalqımız qarşısında tarixi xidmətləri ilə ən uca zirvəyə ucalıb, planetin nəhəng siyasətçiləri sırasında dayanan böyük azərbaycanlısı kimi əbədilik qazanıb.

Müasir Azərbaycan dövlətinin qurucusu, xalqının və dövlətinin inkişafı naminə misilsiz zəhməti ilə qəlblərdə taxt quran Ulu öndər Heydər Əliyev hər zaman qurur hissi ilə xatırlanır. Bütün mənalı ömrünü öz xalqının və Vətəninin inkişafı naminə sərf edən Ümummilli liderə xalqımızın məhəbbəti sonsuzdur, əbədidir.

Heydər Əliyev zamanın ən çətin və mürəkkəb sınaqlarından məharətlə keçərək, Azərbaycanı bütün dünyaya tanıtdı, ölkəmizə əbədi müstəqillik bəxş etdi, Vətənimizi təhlükələrdən, Azərbaycanı dünya xəritəsindən silinmək təhlükəsindən xilas etdi. Böyük şəxsiyyət müstəqilliyi bərpa etdi, dövlətimizi qurdu və inkişaf etdirdi. Ən əsası, Heydər Əliyev milli qürurumuzu özümüzə qaytararaq,

Azərbaycanlıların birliyini, millət, torpaq, Vətən və bayraq sevgisini bərpa etdi. "Həmişə fəxr etmişəm və bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam!" deyə bizə Azərbaycanı məhz onun kimi sevməyi öyrətdi. Dahi şəxsiyyət xalqımızın xoşbəxt, firavan gələcəyi üçün etibarlı bünövrə yaradaraq, dövlət idarəçilik mexanizmini formalaşdırıb.

"Biz müstəqil Azərbaycan kimi əzəmətli bir abidənin təməlini qoyuruq, onu qururuq, yaradırıq. Onu indiki nəsillər üçün yaradırıq, gələcək nəsillər üçün yaradırıq. Bizim üzərimizə şərəfli vəzifə düşübdür və bunu layiqincə yerinə yetirməliyik". Fitri zəkaya malik dahi şəxsiyyətin uzaqgörən siyasəti sayəsində ölkəmizin bütün sahələrində gedən köklü islahatlar Azərbaycanın dirşəlişi, qurtuluşu oldu. Ötən əsrin 90-cı illərinin əvvəllərində Azərbaycan bir çox təhlükələr qarşısında qalanda Heydər Əliyevin xalqın təkidli tələbi ilə ikinci dəfə hakimiyyətə qayıdışı dövlətçilik tariximizin şanlı səhifəsini təşkil etməklə, ölkədə köklü dəyişikliklərin baş verməsinə səbəb oldu. Ulu Öndər Azərbaycan dövlətçiliyinin gələcək inkişaf strategiyasını müəyyən etdi, inkişafın Azərbaycan modelini yaratdı. Müstəqil Azərbaycanda demokratik, hüquqi dövlətin qurulması, ölkəmizin beynəlxalq miqyasda nüfuz qazanması da Heydər Əliyev siyasətinin bəhrəsidir.

Azərbaycan yalnız Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra özünün geosiyasi imkanlarını gerçəkləşdirməyə başladı. Heydər Əliyevin siyasi zəkası sayəsində Azərbaycanın beynəlxalq aləmdən təcrid olunmaq təhlükəsi aradan qaldırdı. Heydər Əliyev dünyanın siyasət zirvəsinin ən uca yerində Azərbaycanın adını əbədi həkk etdi. Bu günün müasir, müstəqil Azərbaycanın təməli Heydər Əliyev siyasi fəlsəfəsinə söykənib. Ölkəmizin hərtərəfli inkişafı, iqtisadiyyatımızın yüksəlişi Ulu Öndər Heydər Əliyevin qoyduğu bünövrənin üzərində ucalır.

Ümummilli lider Heydər Əliyevin ən böyük arzusu Dağlıq Qarabağ münaqişəsinin ədalətli həlli, zəbt olunmuş torpaqlarımızın erməni işğalından azad edilməsi, soydaşlarımızın ata-baba yurdlarına

qayıtması idi. Heydər Əliyev dəfələrlə qeyd edirdi ki, "Dağlıq Qarabağ məsələsi Azərbaycanın müstəsna səlahiyyətinə daxildir və onu Azərbaycan Respublikası özü həll etməlidir”. "Çıxış yolu birdir, Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz bir hissəsidir. Dağlıq Qarabağ Azərbaycanın tərkibində olub və gələcəkdə də daim olmalıdır və Dağlıq Qarabağda vəziyyəti ancaq bu şərtlə həll etmək olar. Bunun başqa yolu yoxdur”. Zaman yetişdi, Ümummilli lider Heydər Əliyevin ən böyük arzusu - Qarabağın mənfur düşmənlərdən, işğalçı ermənilərdən azad olunmasını gerçəkləşdi. Azərbaycan Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin polad iradəsi, sarsılmaz qətiyyəti, müzəffər Ordumuzun qüdrəti, əsgər və zabitlərimizin qəhrəmanlığı, xalqımızın monolit birliyi sayəsində Azərbaycan misilsiz bir Zəfər qazandı, torpaqlarımız düşmən işğalından birdəfəlik azad edildi.

"Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri xalqın köməyi və dəstəyi ilə İlham Əliyev başa çatdıra biləcək". Ömrünün son günlərində, 2003-cü il oktyabrın 1-də Azərbaycan xalqına müraciətində İlham Əliyevi nəzərdə tutaraq Ulu Öndərin dediyi bu sözlər tam təsdiqini tapıb. Məhz bunun üçün də Azərbaycan Prezidentinin ətrafında sıx birlik nümayiş etdirən xalqımız əmindir ki, əsası Ulu Öndər Heydər Əliyev tərəfindən yaradılan müstəqil dövlətimizin gələcəyi etibarlı əllərdədir.

# MUSA QULİYEV
## Millət vəkili



Ulu Öndərimiz Heydər Əliyevin adı bu gün, sözün həqiqi mənasında, Azərbaycan dövlətinin rəmzi kimi səslənir.

Müasir müstəqil Azərbaycan dövlətinin qurucusu və memarı Ulu Öndər Heydər Əliyevin adı xalqımızın yaddaşına əbədi həkk olunub. Bütün ömrünü Azərbaycan xalqının firavan həyatına, dövlətimizin möhkəmlənməsinə həsr edən Ümummilli liderimiz öz fəaliyyəti, tariximiz və dövlətçiliyimiz qarşısındakı titanik xidmətləri ilə əsl dövlət xadimi, dahi şəxsiyyət, vətənini, xalqını sevən əsl vətəndaş olduğunu sübuta yetirib.

Ümummilli lider Heydər Əliyev qarşıya çıxan bütün çətinliklərə baxmayaraq, Azərbaycanı olduqca mürəkkəb və burulğanlı proseslərin içərisindən uğurla çıxararaq müstəqil respublikamıza həm bölgədə, həm də dünyada layiqli yer və böyük nüfuz qazandırıb.

Ümummilli liderimiz müstəqil Azərbaycanın sosial-iqtisadi və siyasi əsaslarının möhkəmləndirilməsində, dünyanın aparıcı dövlətlərinin etibarlı tərəfdaşına çevrilməsində misilsiz xidmətlər göstərib. Bu böyük və bənzərsiz şəxsiyyət millətini bütün bəlalardan hifz edib qoruyub, respublikada ictimai-siyasi sabitliyi təmin edib, vətəndaş

qarşıdurmasını aradan qaldırıb, ölkənin parçalanmasının qarşısını almaqla milli qurtuluşu təmin edib. Ölkəmiz demokratik, hüquqi dövlət quruculuğu yolu ilə qətiyyətlə irəliləyib, xalqın birliyi yaranıb.

Ulu Öndərimiz Heydər Əliyevin adı bu gün sözün həqiqi mənasında, Azərbaycan dövlətinin rəmzi kimi səslənir. Bugünkü güclü, qüdrətli Azərbaycanı o, öz gərgin zəhməti və fədakar fəaliyyəti ilə yaradıb, onun müstəqilliyini əbədi və dönməz edib, inkişaf etdirib, bütün dünyaya tanıdıb.

Ümummilli Liderimiz ölkəmizin siyasi, sosial-iqtisadi inkişaf konsepsiyalarını işləyib hazırlayıb, dönmədən həyata keçirilməsini təmin edib. Bu gün ölkəmizin həyatında elə bir sahə yoxdur ki, orada Heydər Əliyevin izləri, parlaq əməlləri görünməsin.

Ulu Öndər Heydər Əliyevin ən böyük xidmətlərindən biri də özündən sonra Azərbaycanı uğurlu inkişaf etdirəcək, ölkəmizi dünya dövlətləri sırasında layiqli zirvələrə daşıyacaq və ötən illərdə başlanılmış böyük layihələri yaradılmış zəngin baza əsasında müvəffəqiyyətlə icra edə biləcək, xalqın dəstək verdiyi uğurlu Lideri yetişdirmək olub. 2003-cü ildən sonrakı 19 il ərzində müstəqil Azərbaycan dövlətinin əldə etdiyi möhtəşəm nailiyyətlər bu seçimin nə qədər böyük tarixi əhəmiyyətə malik olduğunu bir daha əyani sübuta yetirir. Və əminliklə deyə bilərik ki, bu gün Azərbaycanın müstəqil dövlət kimi mövcudluğu, stabil və inamlı inkişafı liderlik amili ilə birbaşa bağlıdır. Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu siyasəti uğurla davam etdirən Prezident İlham Əliyevin ölkəyə rəhbərlik etdiyi 2003-cü ildən bu vaxtadək olan müddət Azərbaycan tarixinə hərtərəfli inkişaf dövrü kimi daxil olub. Gənc dövlətin əsaslarının möhkəmliyi, həyata keçirilən strategiyanın səmərəliliyi məhz Prezident İlham Əliyevin liderlik keyfiyyətləri, zəkası, siyasi iradəsi və uzaqgörənliyi sayəsində mümkün olub.

Ulu Öndərin əsasını qoyduğu siyasi kursun Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində hazırda dünyanın ən sürətlə inkişaf edən ölkələrindən biri olan Azərbaycanda vətəndaşların sosial rifahının və həyat standartlarının yüksəldilməsi, regional inkişaf

proqramlarının uğurla icrası, ölkəmizin beynəlxalq mövqeyinin daha da gücləndirilməsi, demokratik təsisatların fəaliyyətinin genişləndirilməsi istiqamətində misilsiz nailiyyətlər əldə olunub. Onu da deyim ki, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu 44 günlük Vətən müharibəsi zamanı xalqımıza unudulmaz zəfər bəxş etdi, bu zəfər Azərbaycanın dövlətçilik tarixinə və döyüş salnaməsinə qızıl hərflərlə həkk edildi.

Cənab İlham Əliyevin rəhbərliyi dövründə milli ruhda böyümüş və vətənpərvərlik tərbiyəsi almış cəsarətli və nikbin gənc nəsil yetişdi.

Qələbəni təmin edən faktorların içərisində ən birincisi isə, heç şübhəsiz ki, öz xalqına güvənən və xalqın böyük etimadına sahib olan xarizmatik liderin- Ali Baş Komandan cənab İlham Əliyevin varlığı idi. Məhz cənab İlham Əliyevin dəmir yumruğunun gücü ilə Milli Ordumuz düşmənin başını əzdi, onu rəzil günə saldı, qorxaqlar və fərarilər yığınına çevirdi!

Cənab İlham Əliyev tarixi qələbə əldə etməklə həm də regionun reallığını və taleyini dəyişdi, yeni çağırışlara imza atdı. Bu çağırış işlqlı sabahların, tərəqqinin, rifahın təntənəsi, güdrətli dövləti olan xoşbəxt və qürurlu xalqın səsidir!

Ulu Öndər Heydər Əliyevin qurduğu müasir, müstəqil Azərbaycan dövlətinin XXI əsrdə tərəqqisi, böyüməsi, azadlığı və ərazi bütövlüyünün təmin olunması cənab İlham Əliyevin yorulmaz fəaliyyəti ilə bağlıdır. Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev xalqımızı bir bayraq, bir amal, bir məqsəd uğrunda dəmir yumruq kimi birləşdirərək torpaqlarımızın işğaldan azad olunmasını və ərazi bütövlüyümüzün bərpasını təmin etdi. Cənab İlham Əliyev yenilməz qəhrəman olaraq öz adını şanlı tariximizə Qarabağın Fatehi və Zəngəzurun Memarı kimi yazdırmışdır! “Sözümüz imzamızdır”-‘ deyən Prezident İlham Əliyev ən sadiq silahdaşı, ömür-gün yoldaşı Mehriban xanım Əliyeva ilə birlikdə hələ çox zirvələr fəth edəcək, çox uğurlara imza atacaq, Qarabağda və Zəngəzurda təməlini qoyduğu şəhərlərin, qəsəbələrin açılışını edəcək, o torpaqların illər həsrətlisi sakinlərini təzə yurdlarında salamlayacaq.

## MÜŞFİQ CƏFƏROV

***Millət vəkili***



Heydər Əliyev gənclərlə bağlı məsələləri həmişə öz siyasətinin əsas prioritetlərindən biri hesab edib.

Bu gün ölkəmizdə həm idmanın inkişafı, həm də gənclərlə bağlı çoxsaylı layihələrin icra edilməsi vaxtilə ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulmuş gənclərlə iş sahəsindəki siyasətin nəticəsidir. Məhz Ulu Öndər hakimiyyətə gəldiyi ilk illərdən başlayaraq bu sahədə həyata keçirilmiş islahatlar, qəbul edilmiş qərarlar, eləcə də çoxsaylı fərman və sərəncamlar sonrakı illərdə Azərbaycanı bütün dünyada tanınan idman ölkəsinə, gənclər siyasətini isə geniş hərəkata çevirib.

Ümummilli lider Heydər Əliyevin Azərbaycanın idman siyasətinin həyata keçirilməsi sahəsindəki xidmətləri əvəzsizdir. Məhz bu istiqamətdə görülmüş işlər çərçivəsində 1994-cü ildə respublikanın idman və gənclər həyatında dönüş ili adlandırılacaq hadisə baş verdi. Belə ki, həmin il Azərbaycanda Gənclər, İdman və Turizm Nazirliyi yaradıldı.

Ulu Öndərin idmanın inkişafı üçün uzaqgörənliklə söylədiyi bütün fikirlər, xüsusən də Azərbaycanda idmanın, bədən tərbiyəsinin getdikcə kütləvi xarakter alacağına və gələcəkdə hər bir vətəndaşın yaşından

asılı olmayaraq, idmanla məşğul olacağına olan inamı sonrakı illərdə gənclər siyasəti sahəsində öz əksini tapmağa başladı. Ümummilli Liderin ölkəyə rəhbərlik etdiyi dövrdə idmançılarımız iki dəfə - 1996-cı ildə Atlanta və 2000-ci ildə Sidney Yay Olimpiya Oyunlarında iştirak edərək vətənə müxtəlif əyarlı medallarla qayıtdılar. Heydər Əliyevin təşəbbüsü ilə idman sahəsində infrastrukturun qurulması və maddi-texniki bazanın müasirləşdirilməsi üçün 2000-ci ildən etibarən Azərbaycanın müxtəlif bölgələrində müasir tipli olimpiya idman kompleksləri tikilib istifadəyə verilməyə başladı.

İdmanın inkişafı ilə yanaşı gənclər sahəsinə də xüsusi diqqət edən ümummilli lider Heydər Əliyev ölkədə gedən bütün proseslərdə gəncləri irəli çəkmişdir. O, müxtəlif qurumlarda, dövlət idarələrində, siyasi və iqtisadi arenalarda gənclərin fəal iştirakını təmin etmişdi. Təsadüfi deyildir ki, Ümummilli Liderin "Azərbaycanın bugünkü gələcəyi bütövlükdə sağlam düşüncəli gənclərdir” - sözləri bu gün devizə çevrilmişdir. Ulu Öndər Heydər Əliyevin bu sahədə həyata keçirdiyi siyasət gənc nəslin mənəvi-əxlaqi tərbiyəsinin gücləndirilməsinə, sosial rifahının yaxşılaşdırılmasına və zəngin elmi potensialın yaradılmasına xidmət etmişdr.

Ulu öndər Heydər Əliyevin göstərişi ilə 1995-ci ildə Azərbaycan Gənclərinin Forumunun keçirilməsi təşəbbüsü irəli sürülmüşdür. Bir il sonra - 2 fevral 1996-cı ildə müstəqil Azərbaycan Gənclərinin 1-ci Forumu təşkil edilmişdir.

Ümummilli Liderin 1997-ci il 1 fevral tarixində imzaladığı sərəncamla gənclərlə bağlı ən mühüm və yadda qalan addım olub. Məhz bu fərmanla "Azərbaycan gəncləri günü” təsis edilmiş və hər il 2 fevral tarixi müxtəlif qurumlar, xüsusən də ölkə gəncləri tərəfindən əlamətdar gün kimi qeyd olunur. Ümumiyyətlə Ulu öndər gənclərlə bağlı məsələləri həmişə öz siyasətinin əsas priotetlərindən hesab edib. Məhz Ümummilli Liderin respublikaya rəhbərlik etdiyi dövrlərdə gənclər mərkəzləri, hərbi məktəblər açılmış, minlərlə azərbaycanlı gənc dünyanın nüfuzlu ali məktəblərində təhsil almış, müasir ixtisaslara yiyələnmişdir.

Heydər Əliyevin istiqamət verdiyi siyasət bu gün ölkədə gənclər işinin çox düzgün şəkildə həyata keçirilməsinə imkan yaradıb. Bu gün Prezident İlham Əliyevin bu sahədə həmin siyasətin davamı olaraq, lakin müasir dövrün çağırışlarına uyğunlaşdırmaqla reallaşdırdığı çoxsaylı təşəbbüslər, ölkəmizin son illərdə ev sahibliyi etdiyi idman tədbirləri, eləcə də idmançılarımızın nüfuzlu yarışlarda qazandıqları nailiyyətlər Azərbaycanı bütün dünyada idman ölkəsi kimi tanıdıb.

# İBRAHİM CƏFƏROV

***AMEA-nın müxbir üzvü, Kənd təsərrüfatı elmləri doktoru, professor, Bitki Mühafizə və Texniki Bitkilər Elmi-Tədqiqat İnstitutunun direktoru***



Ulu Öndər tarixdə əbədi bir yol - "Heydər Əliyev yolu" saldı.

Heydər Əliyev olmasaydı, heç bir müasir Azərbaycan olmazdı. Bakıda və respublikada, nə də ölkənin xaricində, bu həqiqətə meydan oxuyan tək bir insan yoxdur. Bütün türk dünyasının ən hörmətli siyasətçilərindən olan, Azərbaycan xalqının ümummilli liderinin xalqımızın həyatında rolu və əhəmiyyəti çox böyükdür. Onun həyat yolu, idarəetmə fəlsəfəsi, bacarıq və təsir səviyyəsi biograflar və tarixçilər tərəfindən çox uzun müddət öyrəniləcəkdir. Ən dəqiq şəkildə fəaliyyətini "moderrnləşdirmə" sözü ilə ifadə etsək, Sovet dövründə Heydər Əliyevin Azərbaycan rəhbərliyinə gəlməsindən sonra respublikanın dərin modernləşdirmə prosesi başlamışdır.

Tapşırılan vəzifəni daim parlaq bir şəkildə başa vuran Heydər Əliyevin sayəsində həmin dövrdə neft sənayesi tamamilə yenilənmiş və modernləşdirilmiş, Gəncə şəhərində yüksək texnologiyalı alüminium zavodu istifadəyə verilmiş, tikilmiş su elektrik stansiyaları, Naxçıvanda

toxuculuq fabriki, alət istehsalı sənayesi inkişaf etdirilmiş, Bakıda məişət kondisionerlərinin istehsalı üzrə zavod tikilməsini uğurla həyata keçirmişdir.

Heydər Əliyevin Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi işlədiyi dönəmlərdə və əslində millətin lideri kimi onun 10 illik yubileyinə hörmətlə yanaşıldı və o, Sosialist Əməyi Qəhrəmanı adına layiq görüldü. Bu 10 il ərzində Azərbaycanın sənaye potensialı iki dəfədən çox artmışdır.

Sonralar Ulu Öndər öz doğma respublikasının bu günkü taleyinə minnətdarlıq edərək yazırdı: "Bu ən yaxşı illər idi...Bəzən, işi bitirdikdən sonra da evə getmədim, düşündüm, respublikamızın vəziyyətini yaxşılaşdırmaq üçün yeni planlar hazırladım. Mənim vəzifəmə təqdim olunan imkanlardan istifadə edərək, xalqım üçün faydalı işlər etmək barədə düşündüm".

Azərbaycanın Heydər Əliyev tərəfindən idarə olunduğu illər tikinti və quruculuq dövrü oldu, 313 sənaye müəssisəsi tikilib istifadəyə verildi. Milli iqtisadiyyatın müxtəlif sahələrinin inkişafında uğur qazanmaq üçün Azərbaycan respublikalar arasında SSRİ-nin sosialist rəqabətini 12 dəfə üstələyirdi. Heydər Əliyev intellektuallarla çox tanış olur, elm və sənət adamlarına qiymət verərək, yubileyləri qeyd etmək adətini təqdim edir, çoxsaylı memarlıq abidələrinin bərpasına başlayır. 1978-ci ildə qəbul edilmiş Konstitusiyada öz təşəbbüsü ilə Azərbaycan dili dövlət dili statusu alır.

1990-cı ilin qışında Sovet əsgərləri Bakıya gətirildi və qanlı hadisələr baş verdi. Ertəsi gün Heydər Əliyev Moskvada Azərbaycan xalqına qarşı törədilən cinayətin təşkilatçılarını və iştirakçılarını cəzalandırmaq tələbi ilə Bakıya qoşunların gətirilməsini pislədi. O, həqiqətən də özünü Azərbaycanın müstəqilliyinin tərəfdarı elan etdi. Həmin ilin iyun ayında Heydər Əliyev öz vətəninə qayıtdı, əvvəlcə Bakıda, sonra Naxçıvanda, Azərbaycanın Ali Sovetinə deputat seçildi. 1991-1993-cü illərdə Naxçıvan Muxtar Respublikasının Ali Sovetinin sədri vəzifəsində çalışan Heydər Əliyev müharibə yolu ilə məhv olan muxtar respublikanın iqtisadiyyatını bərpa etmək və əhalinin normal

həyatını qurmaq üçün bütün tədbirləri gördü. Heydər Əliyev müsahibəsində öz fəaliyyəti barədə dedi: "Mən Naxçıvanın o dövrdə məni xilas etdiyindən çox qürur duyuram" deyə bilərəm. Üç ildir ki, Naxçıvan Əliyev rəhbərliyi altında sabitlik adasına çevrilib və yeni Azərbaycan dövlətinin qurulması üçün ilk addımlara başlanılıb".

1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti və 1998-ci il oktyabrın 11-də seçicinin 76,1 faizini qazanaraq, ikinci dəfə dövlət başçısı seçildi. Heydər Əliyev bir sıra beynəlxalq mükafatlara layiq görülmüş, müxtəlif ölkələrin ali məktəblərinin fəxri doktoru və digər yüksək fəxri adları, dörd dəfə Lenin ordeni, Qırmızı ulduz ordeni, iki dəfə Sosialist Əməyi Qəhrəmanı adına layiq görülmüş, bir çox dövlətlərin orden və medalları ilə təltif edilmişdir.

Heydər Əliyev Azərbaycanda daxili siyasi sabitliyə nail olaraq, eyni zamanda ölkənin iqtisadi müstəqilliyinin təməlini qoydu. İstehsalın bərpası, maliyyə vəziyyətinin yaxşılaşdırılması və sərmayələrin cəlb edilməsi üçün böhran əleyhinə proqramlar hazırlanmasına nail oldu. Prezident yeni Konstitusiyanın hazırlanmasına başladı. "Biz belə bir Konstitusiyanı inkişaf etdirməli və qəbul etməliyik ki, tarixi bir sənəd, əsas qanuna çevrilsin və uzun müddət Azərbaycan demokratik prinsiplər əsasında sabit bir şəkildə təmin olunsun".

Belə bir Konstitusiya 1995-ci ilin noyabr ayında qəbul edildi. Sonra Heydər Əliyev qeyd etdi ki, "Bu Konstitusiyanın müddəaları əsasında xalqımız Azərbaycan Respublikasının müstəqilliyini əbədiləşdirəcəkdir. Bizim vəzifəmiz vətəndaşlarımızın hüquq və azadlıqlarının qorunmasını təmin etmək üçün Konstitusiya ilə təmin edilmiş təminatları, qanunvericilik bazalarını effektiv şəkildə istifadə etmək və ölkəmizdə hüquqi, demokratik dövlət qurmaqdır".

Onun uzaqgörən siyasəti sayəsində, əsrin neft müqaviləsi, daha sonra da Azərbaycan üçün əlverişli şərtlərlə müqavilələr bağlandı. Danışıqlar uzun və çətin idi. Vəziyyət neft siyasətini dəyişdirməyə təzyiq etmək üçün xaricdən ilhamlanmış silahlı qruplaşmaların etdiyi təzyiqlərlə daha da ağırlaşdı. Ancaq Heydər Əliyev vətənin maraqlarını müdafiə

edə bildi. Müqaviləni imzalayarkən, o, gələcək nəsillərin tarixi hadisəni qiymətləndirəcəyini sevinc və güvənlə vurğulayıb. Yeri gəlmişkən, "Əsrin müqaviləsi"ndə dünyanın 8 ölkəsindən 13 şirkət iştirak edib. "Əsrin müqaviləsi" nin nəticəsi Azərbaycan üçün birbaşa iqtisadi mənfəətlərlə məhdudlaşmır. Ölkənin rəhbərliyinin səmərəli hərəkətləri sayəsində çoxalma effektinə nail olundu: ölkənin geosiyasi vəziyyəti kəskin artdı, xalqın sosial rifahının təməli qoyuldu, neft mühəndisliyi və neft kimyasına yeni bir təkan verildi. İqtisadiyyata milyardlarla dollar axını bazarın keçidində bir söndürmə faktoru rolunu oynadı və qazanc sənayenin çox sahələrində yeni texnologiyaların tətbiqinə imkan verdi. Heydər Əliyevin hakimiyyəti dövründə Bakının yenidən qurulmasına başlanmış, bu gün bura gözəl bir şəhər olmuşdur və burada olanların hamısında təəccüb doğurmuşdur. Paytaxtın yenidən qurulması bu gün də davam edir.

Bakı - Tiflis - Ceyhan neft kəməri və Bakı - Tbilisi - Ərzurum qaz kəməri kimi böyük layihələr Əliyevin adı ilə bağlıdır. Enerji sektorunda beynəlxalq oyunçuların gəlməsi sayəsində Azərbaycan həm Rusiya, həm də Qərbin tərəfdaşlarının hərəkətlərinə öz qərarlarından asılı vəziyyət yaradıb. Heydər Əliyev siyasətinin bu vektoru sonradan oğlu İlham Əliyev tərəfindən dəstəklənib və uğurla davam etdirildi və bu günə kimi Azərbaycan Avropanın alternativ enerji təchizatçılarından birinə çevrildi. Müstəqil dövlət başçısının vəzifəsi ona Birləşmiş Ştatlar, Avropa və Asiya ölkələri rəhbərləri ilə bərabər təmasda olmaq imkanı vermişdir. Və mövcud münasibətləri Azərbaycanın xeyrinə istifadə etdi. Heydər Əliyevin dediyi bu sözlər, müdrik siyasət kimi, vaxt testini uğurla keçməsidir. Mən həmişə qürurluyam. Heydər Əliyev Azərbaycanın güclü bir dövlət xəttini, bunun siyasi və iqtisadi əsaslarını yaratmaqla yanaşı, milli ideologiyanın bərqərar olmasının təməlinə çevrilmişdir. Onun ölkəsinin dünyəvi təməllərini quran Heydər Əliyev idi.

Hal-hazırda Azərbaycan tamamilə dünyəvi, həm xarici, həm də daxili siyasət apararaq, Yaxın Şərqdə güclənən ekstremist meyllərə qarşı çıxan dövlətlərdən biridir. Prezident İlham Əliyevin rəhbərliyi altında

bu günkü Azərbaycan Heydər Əliyev siyasətini uğurla davam etdirir. Azərbaycanın nüfuzu daim artır, xalqın rifahı yaxşılaşır. Heydər Əliyevin böyük rolu nəinki öz doğma Azərbaycanında yüksək qiymətləndirilmiş, eləcədə başqa ölkələrdə bir çox görkəmli modern xadim onun haqqında dərin ehtiramla danışır. Dahi şəxsiyyət, qəlbi daim Azərbaycan sevgisi ilə döyünən, Azərbaycan deyən zaman səsi tir-tir əsən, həmişə və hər yerdə milli mənsubiyyəti ilə qürur duyan, gözləri Vətən eşqi ilə parıldayan ulu öndər Heydər Əliyev haqqında söz söyləmək mənim üçün həm qürurvericidir, həm də böyük məsuliyyətdir. Bəri başdan vurğulamaq yerinə düşər ki, Vətənimiz və xalqımız üçün misilsiz xidmətlər göstərən, adı tariximizə qızıl hərflərlə yazılan ümummilli liderimiz Heydər Əliyev daim qəlbimizdədir. Milli dövlətçilik və müstəqillik yolumuz Heydər Əliyev ideyaları ilə nurlanır:

Müqəddəs amalı, məqsəd və məramı doğma Vətənin azadlığı, müstəqilliyi, rifahı olan Ulu Öndər xalq məhəbbətindən, içindəki inam və imandan güc alaraq bu yolda qarşılaşdığı bütün çətinliklərə qətiyyətlə sinə gəlməyi bacardı, tarixdə "Heydər Əliyev yolu" saldı. Çünki O, uca Yaradana inanırdı. O, bu çətin, bir o qədər də şərəfli yolda tək olmadığını bilirdi.

Heydər Əliyev dərin fitri istedada, fenomenal yaddaşa, bəlağətli nitqə malik insan idi, bütün sahələri gözəl bilirdi. Onda olan dünyagörüşə, siyasi səriştəyə, fəhmə, ən çətin situasiyalardan məharətlə çıxmaq bacarığına dünyadakı hər böyük siyasətçidə rast gəlmək mümkün deyil. Bu mənada bütün dünyanı özünə heyran qoyan dahi şəxsiyyət bir məktəb idi. Dünya liderləri ondan hər zaman öyrənir, ona həsəd aparır, bunu öz çıxışlarında, müsahibələrində etiraf edirdilər.

Milli yaddaşımızda silinməz izlər buraxan Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi illər ərzində bugünkü dövlət müstəqilliyimizin möhkəm təməli qoyuldu, milli ruh və azərbaycançılıq məfkurəsi yüksəlməyə, ölkədə hər bir sahə sürətlə inkişaf etməyə başladı. Dünya siyasətçiləri üçün o, müdrik və

uzaqgörən siyasi və dövlət xadimi idi. Bu gün Heydər Əliyev aramızda olmasa da, onun xatirəsi qəlbimizdə həmişə yaşayacaqdır.

**Heydər Əliyev siyasi kursu müasir Azərbaycan dövlətinin mövcudluğunu təmin etmiş əsas amildir.**

Məlumdur ki, 1993-cü ildə, Heydər Əliyevin xalqın təkidli tələbi ilə ölkə rəhbərliyinə qayıdışı ərəfəsində Azərbaycanda ictimai-siyasi vəziyyət artıq böhran həddinə çatmışdı. Ulu öndərin qarşısında başlamaqda olan vətəndaş müharibəsini dayandırmaq, erməni işğalının qarşısını almaq, separatçı qüvvələrə ölkəni parçalamağa imkan verməmək kimi mürəkkəb, demək olar ki, icrası mümkünsüz olan vəzifələr dururdu. Lakin ümummilli liderin dühası bu vəzifələrin öhdəsindən misilsiz bir məharətlə gəldi. Xaosa sürüklənən Azərbaycan ulu öndərin hakimiyyətə gəlişi ilə parçalanmaqdan və məhv olmaqdan qurtuldu. Bundan sonra müstəqil dövlət quruculuğunu həyata keçirmək üçün Heydər Əliyev siyasi kursunun üç əsas istiqaməti müəyyənləşdi. Bunlar güclü iqtisadiyyat yaratmaq, daxili sabitliyi təmin etmək və geosiyasi mənzərəni Azərbaycanın xeyrinə dəyişməkdən ibarət idi. Artıq 1994-1996-cı illərdə Azərbaycanda sosial-iqtisadi vəziyyət sabitləşdi, ölkə davamlı inkişaf xəttinə çıxdı.

Ümummilli lider Heydər Əliyevin siyasi kursu çoxtərəfli, müasir tələblərə tam cavab verən və çevik manevrlər etmək imkanlarına sahib olan mükəmməl idarəetmə sistemidir. Məhz bu günün reallıqlarına əsaslanaraq biz əminliklə deyə bilərik ki, illər keçdikcə ulu öndər Heydər Əliyevin Azərbaycanın müstəqilliyində və demokratikləşməsindəki əvəzsiz rolu daha aydın görünür. Hər keçən gün bu siyasi kursun bir-birini sürətlə əvəz edən vəziyyətlərə uyğunlaşmaq imkanlarının unikallığını və möhtəşəmliyini sübut edir. Ulu öndərin siyasi kursu XXI əsrin bütün sınaqlarından uğurla çıxmaqdadır. Ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən müasir dövrün və dünyada formalaşan yeni ictimai-siyasi münasibətlərin tələblərinə cavab verən konsepsiyalarla zənginləşdirilən Heydər Əliyev siyasi kursu malik olduğu sonsuz potensialı ilə Azərbaycanı dünyanın ən güclü və firavan dövlətləri sırasına çıxarmaq imkanına malikdir.Bu

gün bütün dünyada təhlil olunan və öyrənilən Heydər Əliyev siyasi kursu müasir Azərbaycan dövlətinin mövcudiyyətini təmin etmiş əsas amildir. Məhz buna görə də ulu öndərin şah əsəri olan müstəqil Azərbaycan dövləti yaşadıqca, Heydər Əliyev bu ölkənin vətəndaşlarının, bütün dünya azərbaycanlılarının qəlbində əbədi yaşayacaq.

## Azərbaycançılıq məfkurəsinin banisi

Sovet Sosialist Respublikaları İttifaqı adı altında 14 ölkəni faktiki olaraq Rusiyanın müstəmləkəsi vəziyyətində saxlayan sovet imperiyası 70 il ərzində beynəlmiləlçilik şüarları altında fərqli ideologiya təbliğ edirdi. İnsanların beyinlərinə yeridilən bu ideologiyanın əsas məqsədi SSRİ xalqlarını öz milli dəyərlərindən məhrum etmək və perspektivdə onlara milli mənsubiyyətlərini unutdurmaq idi. Əlbəttə ki, bu ideoloji siyasətin əsas məqsədi çoxmillətli imperiyanı dağılmaqdan qorumaq idi. Lakin öz müdrikliyi və uzaqgörənliyi sayəsində İttifaqın tezliklə süqut edəcəyini görən Heydər Əliyev artıq o dövrdə möhkəm milli əsaslara malik olan müstəqil Azərbaycan dövlətinin bünövrəsini formalaşdırırdı. Ümummilli lider Heydər Əliyevin Vətən və xalq qarşısında göstərdiyi misilsiz xidmətlərdən biri də milli dövlətçiliyimizin möhkəmləndirilməsi baxımından həyati əhəmiyyət kəsb edən azərbaycançılıq ideyasını irəli sürməsi, onu bir ideologiya şəklində formalaşdırması olmuşdur. Bütün bu illər ərzində möhtəşəm nailiyyətlərin qazanılmasına səbəb olmuş uğurlu daxili və xarici siyasət də məhz Heydər Əliyev dühasının formalaşdırdığı azərbaycançılıq konsepsiyasının tərkib hissəsidir. XX əsrin 30-cu illərində formalaşmağa başlayan azərbaycançılıq, vətənpərvərlik, milli özünüdərk dünyagörüşünün təşəkkülü ilə bağlı olmuşdur. Bu mənada Heydər Əliyev ən böyük azərbaycanlıdır. Ulu öndər deyirdi: "Hər bir kəsin milli mənsubiyyəti onun üçün qürur mənbəyidir. Mən həmişə fəxr etmişəm və bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam." Azərbaycançılıq dünyagörüşü ulu öndərin siyasi fəaliyyətinin bütün sahələrində geniş kontekstdə öz ifadəsini tapmışdır. O cümlədən, 1969-1982-ci illər ərzində Azərbaycana rəhbərlik etdiyi dövrdə Heydər

Əliyev tərəfindən siyasi-ideoloji müstəvidə görülən işlər milli inkişaf və həmrəyliyimizin təminatçısı qismində çıxış etmişdir. Ulu öndər Heydər Əliyevin 1993-cü ildə xalqın istəyi ilə hakimiyyətə qayıdışından sonra Azərbaycanda əldə edilmiş milli birlik respublikamızın ən qiymətli mənəvi-ideoloji sərvətlərindən biridir. Xalqın nəzərində bütöv, milli şəxsiyyət kimi təcəssüm olunan Heydər Əliyev dühası Azərbaycana ikinci rəhbərliyi dövründə vətəndaş sülhü və ümumxalq həmrəyliyinin möhkəmləndirilməsi xəttini davam etdirmiş, bu siyasi xətti özünün konkret addımları ilə kamil elmi-nəzəri konsepsiya səviyyəsinə qaldırmışdır.

## Aqrar islahatlar Ulu Öndərin yürütdüyü iqtisadi siyasətin əsas hissəsi olmuşdur

Keçən əsrin 70-ci illərinə qədər Azərbaycan kənd təsərrüfatı məhsullarının istehsalında sovet respublikaları arasında ən aşağı göstəricilərə malik idi. Kənd təsərrüfatının bütün sahələrində məhsuldarlıq çox aşağı olmaqla yanaşı torpaqlardan səmərəli istifadə olunmurdu, kolxoz və sovxozların əksəriyyəti ziyanla işləyirdi. Elmin və texnikanın tətbiqi hiss olunmurdu, kadr hazırlığı bərbad vəziyyətdə idi. Kənd təsərrüfatı üçün maşınqayırma və kimya sənayesi inkişaf etdirilmirdi. Meyvə, tərəvəz, çay və digər məhsulların emalında sistemsizlik, hərc-mərcilik vardı. Həmçinin ət, süd, pambıq kimi strateji məhsulların emalı da primitiv sexlərdə və çox cüzi miqdarda həyata keçirilirdi. Lakin ulu öndər Heydər Əliyevin 1969-cu ildə respublikanın rəhbərliyinə gəlişi ilə vəziyyət qısa müddət ərzində kəskin şəkildə dəyişdi. 1982-ci ilə qədərki fəaliyyəti dövründə Heydər Əliyev Azərbaycanda aqrar-sənaye kompleksinin yaradılmasına nail oldu. Bunun üçün öncə ümummilli lider Heydər Əliyevin yüksək idarəçilik qabiliyyəti, tələbkarlığı, işgüzarlığı və əzmkarlığı sayəsində kənd təsərrüfatı məhsullarının istehsalının artırılması təmin edildi. Heydər Əliyev respublikanın kənd təsərrüfatında mövcud olan potensial imkanların müvafiq proqramlar əsasında rallaşdırılmasını gələcək inkişafın mühüm istiqaməti kimi qiymətləndirdi və ittifaq hökumətinin bu məsələyə dair bir neçə qərar qəbul etməsinə nail oldu.

Qısa müddət ərzində respublikada kənd təsərrüfatının bütün sahələrində əsaslı dönüş yarandı, məhsul istehsalının dinamik artımı təmin edildi. Ulu öndər Heydər Əliyev ittifaq rəhbərlərinə sübut etdi ki, onun rəhbərliyi altında Azərbaycan xalqı kənd təsərrüfatının inkişaf etdirilməsində yeni zirvələr fəth etməyə qadirdir və bu sahəyə yönəldilən sərmayə qısa müddətdə öz bəhrəsini verir.

Ulu Öndərin 1993-cü ildə yenidən ölkə rəhbərliyinə gəlməsi ilə Azərbaycan iqtisadiyyatında yeni inkişaf mərhələsi başlandı. Həmin dövrdə öz müstəqilliyinə yeni qovuşmuş Azərbaycanda iqtisadiyyatın bütün sahələrində olduğu kimi, aqrar bölmədə də çox acınacaqlı vəziyyət hökm sürürdü. Maddi təchizatın pozulması səbəbindən aqrotexniki tədbirlərin vaxtında həyata keçirilməməsi məhsuldarlığın aşağı düşməsinə və məhsul istehsalının azalmasına səbəb olmuşdu. Aqrar-sənaye kompleksinin maşınqayırma və kimya sənayesi bölmələri, emal sənayesi müəssisələri tam gücü ilə işləyə bilmirdi. Müəssisələr bağlanır, işsizlik artır və əhalinin ərzaqla təmintında yaranmış çətinliklər aclıq təhlükəsini getdikcə artırırdı. Lakin ümummilli lider vəziyyəti araşdıraraq, kənd təsərrüfatının inkişafına diqqətin artırılması üçün bütün qüvvələri səfərbər etdi. Ulu öndər 1991-ci ildən iqtisadiyyatda, o cümlədən də aqrar sahədə islahatlar haqqında gedən uzun-uzadı mübahisələrə və müzakirələrə qətiyyətlə son qoydu, sözdən işə keçməyin yolunu müəyyən etdi və eyni zamanda, islahatların keçirilməsi yolları, üsulları və müddəti barədə proqram hazırlanmasının labüdlüyünü əsaslandırdı. Bununla da Heydər Əliyev respublikada aqrar islahatların hüquqi bazasının yaradılması, onun təşkili və həyata keçirilməsi kimi çox mühüm iqtisadi tədbirin həm banisi, həm də təşkilatçısı oldu. Ulu öndər keçirdiyi görüşlərdə və müşavirələrdə dəfələrlə qeyd edirdi ki, ölkəmizdə həyata keçiriləcək aqrar islahatlar öncə Azərbaycan xalqının milli mənafeyinə xidmət etməli, maraqlı tərəflər üçün ağrısız aparılmalı və ədalət prinsipinə əsaslanmalıdır. 1996-cı ildən başlayaraq Azərbaycanda MDB məkanında analoqu olmayan aqrar islahatlarına start verildi. Vahid torpaq fondunun 57 faizi dövlət mülkiyyətində qalmaqla 20 faizi

bələdiyyə mülkiyyətinə və 23 faizi xüsusi mülkiyyətə verildi. Xüsusi mülkiyyətə əsasən ən qiymətli torpaqlar, yəni əkin və çoxillik əkmələr altında olan torpaqlar verildi ki, bu da aqrar sahədə sahibkarlığın inkişafına öz müsbət təsirini göstərdi. Aqrar islahatların aparılması və Heydər Əliyevin həyata keçirdiyi təşkilati, siyasi və digər tədbirlər tezliklə öz bəhrəsini verdi və aqrar sahədə dönüş yaranmasına səbəb oldu. Bu gün də kənd təsərrüfatı Azərbaycan iqtisadiyyatının prioritet sahələrindəndir və bu sektorun inkişafına ölkəmizdə böyük dəstək göstərilir. Möhtərəm Prezidentimiz cənab İlham Əliyevin imzaladığı Regionların inkişafına, əhalinin ərzaq təhlükəsizliyinin təmin edilməsinə, yoxsulluğun azaldılmasına və digər məsələlərə dair Dövlət Proqramlarının icrasının nəticəsidir ki, ölkəmizin bütün bölgələrinin siması kökündən yaxşılaşmış, regionlarda yaşayış məntəqələrinin infrastruktur və kommunal xidmətlərlə təminatı səviyyəsi yüksəlmişdir. Dövlətimizin başçısı aqrar sahəni iqtisadiyyatın qeyri-neft bölməsinin prioritet istiqaməti elan etmiş və ölkənin aqrar siyasətinin əsas məqsədinin ölkənin ərzaq tələbatının tamamilə yerli istehsal hesabına ödənilməsi və bəzi kənd təsərrüfatı məhsulları və ərzaq mallarının xarici bazarlara ixracının təmin edilməsi olduğunu önə çəkmişdir.

Bu gün Azərbaycan Prezidenti cənab İlham Əliyev ulu öndərin siyasi kursunu keyfiyyətcə yeni müstəvidə davam etdirməklə, xalqımızın və dövlətçiliyimizin bu kursun mahiyyətindən doğan milli maraqlarını beynəlxalq miqyasda təmin edir. Heydər Əliyev siyasətinin uğurla həyata keçirilməsi müstəqilliyimizi möhkəmləndirir, dövlətçiliyimizi qüdrətləndirir və nəticədə beynəlxalq aləmdə Azərbaycan Respublikasının rolunu və nüfuzunu artırır. Bu deyilənlərin ən bariz sübutu da Azərbaycanın Vətən müharibəsində əldə etdiyi tarixi Qələbəsi və öz torpaqlarını işğaldan azad etməsidir. Xalqımız 44 günlük Vətən müharibəsinin gedişində Prezident İlham Əliyevə dərin inam və məhəbbət bəslədiyini bir daha təsdiq etdi.

Azərbaycanın sürətli, hərtərəfli və dinamik inkişafı Heydər Əliyev siyasi kursu və bu kursu inamla irəli aparan Prezident İlham Əliyevin düşünülmüş və yaradıcı fəaliyyəti ilə qırılmaz tellərlə bağlıdır.

# ŞAHİN XURŞUDOV

***Gəncə Dövlət Universitetinin Tədris məsələləri üzrə prorektoru, iqtisad elmləri üzrə fəlsəfə doktoru, dosent***



Azərbaycanın müasir təhsil siyasətinin əsas ideyası inkişafdır. Bu ideya özündə şəxsiyyətin inkişafı üçün lazım olan şəraitin yaradılması, təhsil sisteminin inkişaf etdirilməsi, təhsilin cəmiyyətin inkişafının əsas faktorlarına çevrilməsi, təhsilin ardıcıllığı kimi məqsədləri birləşdirir. Bu məqsədlərin tam həyata keçirilməsi bütövlükdə cəmiyyətin hər bir üzvündən asılıdır. Təhsil sisteminin inkişafı prinsipləri bir-biri ilə əlaqəlidir, bir-birini tamamlayır və təhsil sisteminin normal inkişafının təmin olunmasına yönəldilib. Hal-hazırda Azərbaycanda təhsil sistemi yuxarıda sadalanan mərhələləri adlamış, təhsil sistemimiz uzun bir yol keçərək, bu günkü inkişaf səviyyəsinə çatmışdır. Müstəqilliyizin ilk illərində böyük çətinliklərlə qarşılaşan milli təhsil sistemimiz Ulu Öndər Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışından sonra yeni bir mərhələyə - inkişaf mərhələsinə qədəm qoymuşdur. Ölkəmiz müstəqillik əldə etdiyi dövrdən Azərbaycanda təhsil sahəsində tənəzzül, təhlükəli dağıdıcılıq halları müşahidə olunmağa başladı. 1992-ci ildə respublikamızda təhsilin inkişafını müəyyənləşdirən təhsil

konsepsiyası olmadan tələsikliklə qəbul olunmuş Təhsil Qanunu bu prosesin qarşısını almağa qadir olmadı və əksinə, bir sıra yeni problemlər yaratdı və respublikada təhsil prosesinin inkişafına kifayət qədər şərait yarada bilmədi. Təhsilin inkişafına 1993-cü ildən sonra xüsusi qayğının göstərilməsi Azərbaycan Respublikasının ümummilli lideri Heydər Əliyevin daha çox diqqət mərkəzində olmuş, vətəndaşların təhsil hüquqları məhz möhtərəm Prezidentin rəhbərliyi ilə işlənilmiş və qəbul edilmiş konstitusiyada dünyanın ən inkişaf etmiş ölkələrinin səviyyəsinə qaldırılmış, Azərbaycan tarixində ilk dəfə təhsil sahəsində islahatların aparılması üçün tapşırıqlar vermişdir. Təhsil islahatlarının aparılmasını zəruri hesab edən ümummilli lider Heydər Əliyev deyirdi: "Təhsil sistemimizin hazırkı vəziyyətini, onun problemlərini dərindən öyrəndikdən sonra prioritet sahələr müəyyən edilməlidir". Həqiqətən də, belə bir prinsipin seçilməsi Azərbaycanda təhsil siyasətinin əsas qayəsini təşkil etmişdir. Artıq bu günün reallıqları sübut edir ki, Heydər Əliyevin təhsil siyasəti konsepsiyasına uyğun aparılan islahatlar müsbət nəticələr verir.

Azərbaycan müstəqillik qazandıqdan sonra cəmiyyətimizin hər bir sahəsində olduğu kimi, təhsil sahəsində də bir canlanma, yeniləşmə nəzərə çarpmağa başladı. Ümummilli liderimiz Heydər Əliyev siyasətinin böyük təsiri nəticəsində irəliləyişlər olmuş, orta, orta-ixtisas və ali məktəblərdə struktur dəyişiklikləri baş vermiş, təhsil müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində ciddi quruculuq işləri aparılmış, problemin həlli üçün effektiv üsul və metodların tətbiqi önə çəkilmişdir. Heydər Əliyev həmişə öz nitqində demişdir: “İndi Azərbaycan müstəqil dövlətdir. Respublikamızın müstəqil dövlət kimi Azərbaycanın öz milli ideologiya konsepsiyasını yaradaraq inkişaf etdirərkən, şübhəsiz ki, təhsil sahəsi də milli məqsədlər, mənafelər əsasında qurulmalıdır.”

Ulu Öndərin uzaqgörən siyasi kursunun mübariz davamçısı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev təhsili dövlət siyasətinin əsas prioritetlərindən biri hesab etmişdir. Belə ki, son illərdə təhsil xərclərinin artmasının əsasında da həmin konseptual müddəalar

dayanır. Cənab Prezidentin "Təhsil Azərbaycanın davamlı inkişaf strategiyasının ən öncül istiqamətlərindən biridir" konsepsiyası isə cəmiyyətin inkişafında yeni zəmin yaratmaqla yanaşı, dövlət başçısının bu uzaqgörən fikirlərini daha da təsdiqləyir. "Biz maddi dəyərmizi, iqtisadi potensialımızı insan kapitalına çevirməliyik. Çünki insan savadı, biliyi onun gələcək həyatını müəyyən edir, ölkənin hərtərəfli inkişafına xidmət edir". Təhsil sisteminin qarşısında duran əsas vəzifələri müəyyənləşdirərkən Prezident İlham Əliyev belə bir vacib məqamı xüsusilə vurğulamışdır: "Təhsil cəmiyyətdə tərəqqinin hərəkətverici qüvvəsi olmaqla intellektual potensialın formalaşmasında, milli-mənəvi dəyərlərin qorunub saxlanılmasında, şəxsin, vətəndaşın fərdi inkişafında, hüquqi cəmiyyətin qurulmasında mühüm rol oynayır. Biz maddi dəyərlərimizi, iqtisadi potensialımızı insan kapitalına çevirməliyik" müddəasını əsaslandıran dövlət başçısının dediyi kimi, "Təhsil əsri elan edilən XXI əsrdə yüksək intellektə malik insan kapitalının formalaşması və güclü iqtisadiyyatın qurulmasında təhsilin rolu heç vaxt indiki qədər aktual olmamışdır. Təcrübə göstərir ki, hər bir dövlətin inkişafını təbii sərvətlərin bolluğu deyil, bu sərvətlərin yüksək səviyyədə insan kapitalına çevrilməsi təmin edir".

Ölkəmizdə milli təhsilimizin inkişafı sahəsində son illər mühüm nailiyyətlər əldə edilmişdir. Respublikamızın Prezidenti İlham Əliyevin dayanıqlı təhsil sisteminin yaradılması məqsədi ilə 24 oktyabr 2013-cü il tarixdə imzaladığı "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" təhsilimizin inkişafında daha yüksək müsbət irəliləyişlərin əldə edilməsinə şərait yaratmışdır. Bu işlər savadlı, hərtərəfli inkişaf etmiş, ümumbəşəri dəyərlərə hörmət ruhunda tərbiyə olunmuş, mənəviyyatlı, əxlaqca kamil, dövlətimizə sadiq gənclərin tərbiyəsinə istiqamətləndirilmişdir.Vətənpərvərlik, humanizm, öz dövlətinə və xalqına bağlılıq və sədaqət - biz Gəncə Dövlət Universitetində təhsil alan tələbələrə bu hissləri aşılamağa çalışır, onları yüksək əxlaqlı, Ulu Öndər ideyalarına sadiq vətəndaşlar kimi görməyə can atırıq.

**MUĞAN QULİYEV**

***Gəncə Dövlət Universitetinin Fizika və texniki fənlər fakültəsinin dekanı, riyaziyyat üzrə elmlər doktoru, professor***



15 iyun - Milli Qurtuluş Günü heç vaxt yaddaşımızdan silinməyəcək bir gündür. Heydər Əliyevin yenidən siyasi hakimiyyətə qayıdışı Azərbaycanın müstəqil dövlət kimi tərəqqisinin başlanğıcı oldu. Həmin gündən başlayaraq, zəmanəmizin böyük siyasi xadimi Heydər Əliyevin rəhbərliyi altında ölkəmizin ictimai-siyasi, sosial-iqtisadi və beynəlxalq əlaqələrində dönüş baş verdi. Həmin gün müasir tariximizə Milli Qurtuluş günü kimi yazıldı. Ümummilli liderimiz ömrünün bütün qalan hissəsini dövlət müstəqilliyimizin möhkəmləndirilməsinə sərf etdi, müstəqilliyimizi əbədi və dönməz prosesə çevirdi. Azərbaycan bütün sahələrdə inamla irəlilədi, istər sosial-iqtisadi sahədə, istərsə də daxili və xarici siyasətdə böyük uğurlar əldə edilmiş oldu. Hal-hazırda da ümummilli liderimizin qurduğu Azərbaycan dövləti möhkəm təməllər üzərində dayanır.

Ulu Öndər Heydər Əliyev yaşadığı bütün həyatı boyu hər zaman xalqını, vətənini düşünmüşdür. Onun ürəyi Azərbaycanın

müstəqilliyinin möhkəmləndirilməsi, doğma xalqının xoşbəxtliyi üçün çırpınmışdır. Ulu öndər bir dövlət başçısı kimi Azərbaycanın ən çətin, üzücü anlarında onu xilas etmək üçün misilsiz fədakarlıqlar göstərmiş, ölkəsini bəlalardan qurtarmağı bacarmışdır. Azərbaycan təhsilinin inkişafında da Ulu Öndərin xidmətləri əvəzsizdir.

Heydər Əliyev təhsil sistemində islahatlar prosesində xalqımızın milli-mənəvi xüsusiyyətlərindən, təhsil sahəsində formalaşmış mütərəqqi ənənələrdən imtina edilməməsini vurğulayaraq, belə bir fikir irəli sürdü: "Azərbaycan reallığına, milli xüsusiyyətinə uyğun olan hər bir müsbət təklifdən istifadə etməli, onu öz təhsil sistemimizə tətbiq etməliyik. Ancaq indiyə qədər mövcud olan təhsil sistemində əldə edilmiş müsbət nəticələri və bu günün, gələcəyin tələblərinə uyğun gələn hər şeyi saxlamalı və inkişaf etdirməliyik".

Heydər Əliyevin milli konsepsiyasında dövlətin, dövlətçiliyin təməl prinsipləri içərisində təhsil, bəşəri elm və milli mədəniyyət müstəsna yer tutur, çünki, təhsil dövlətin təməl daşıdır, millətin gələcəyidir və buna görə də Ulu Öndərimiz təhsili prioritet sahə kimi həmişə ön plana çəkirdi. Onun rəhbərliyi ilə cəmiyyətdə yaranan sabitlik, tərəqqi, inkişaf, gələcəyə ümid öz yerini tapdı.

Bu gün tam əsasla deyə bilərik ki, müstəqil Azərbaycanda təhsilin, elmin, mədəniyyətin əsasları məhz Heydər Əliyevin yaratdığı təməllər üzərində qurulmuş və tərəqqiyə doğru inamla inkişaf etməkdədir.

Azərbaycan təhsilində Heydər Əliyevin başladığı və uzun illər böyük uğurla həyata keçirdiyi islahatlar öz bəhrəsini verməkdədir. Azərbaycanda elm və təhsil sahəsində formalaşmış mütərəqqi ənənələr, Azərbaycandan kənarda vətən üçün kadr hazırlığı kimi ümummilli işlər bu gün də ən yüksək səviyyədə davam etməkdədir.
sisteminin təşəkkülü və inkişafının təmin edilməsi bilavasitə Heydər Əliyevin adı ilə bağlıdır. Ümummilli liderimiz fəaliyyətinin bütün dövrlərində milli təhsil sisteminin inkişafına qayğılı münasibət göstərmiş, həyata keçirdiyi islahatlar çərçivəsində Təhsil Nazirliyinin fəaliyyətində əsaslı dəyişikliklər aparmış, onun cəmiyyətdə rolu və nüfuzu əhəmiyyətli dərəcədə artmışdır.

"Mən dünyada müəllimdən yüksək ad tanımıram" deyən Ulu Öndər müstəqil dövlətimizin təhsil sistemində müəllim və pedaqoqların mühüm rolunu dəfələrlə qeyd etmiş, onlara diqqət və qayğının daim artırılmasını tövsiyyə etmişdir.

Bu gün Azərbaycan öz inkişaf və tərəqqi dövrünü yaşayır. Müstəqillik qazandığımız bu illər xalqımızın ictimai-siyasi, iqtisadi və mənəvi həyatının bütün sahələrində dirçəliş illəridir. Ulu Öndərimiz Azərbaycanı bir dövlət, xalqımızı bir millət kimi tarixin ağır və sərt sınaqlarından uğurla çıxarmış, müasir Azərbaycanın işıqlı sabahının etibarlı bünövrəsini yaratmışdır.

Ümumilli liderimizin siyasi kursu bu gün onun layiqli varisi, Prezidentimiz İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ölkəmiz qısa bir müddət ərzində əsrə bərabər yol keçib, özünün yeni inkişaf mərhələsinə qədəm qoyub, bu yolda möhtəşəm nailiyyətlər qazanıb. Azərbaycan özünün keyfiyyətcə yeni inkişaf dövrünü yaşayır. Bütün bunlar əsası ümumilli liderimiz tərəfindən qoyulmuş və bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən uğurlu daxili və xarici siyasətin bəhrəsidir. Hal-hazırda ölkəmizin daxili və xarici siyasətində milli-mənəvi dəyərlərimizə hörmət xüsusi yer tutur. Azərbaycançılıq ideyasının formalaşması, onun inkişaf etdirilməsi və milli-mənəvi dəyərlərin bir hissəsinə çevrilməsində Respublikamızın Prezidenti İlham Əliyevin müstəsna xidmətləri vardır.

Biz bu gün dərin iftixar hissi ilə qeyd edirik ki, müstəqil Azərbaycan dövləti ümummilli liderimizin şah əsəridir, onun öz xalqı qarşısında misilsiz tarixi xidmətidir. Məhz buna görə Heydər Əliyevin adı tariximizin səhifələrinə qızıl hərflərlə yazilmışdır. Heydər Əliyev yolu şərəfli yoldur. Məhz bu yol Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında xalqımızı daha böyük uğurlara doğru aparacaqdır.

Təhsil işçiləri əbədiyaşar lider Heydər Əliyevin müəyyən etdiyi milli dövlətçilik prinsiplərinə sadiqlik nümayiş etdirir, müstəqil Azərbaycan dövlətinin daha da qüdrətlənməsi və tərəqqisi naminə əzmlə və yorulmadan çalışırlar.

**ELÇİN CAVADOV**
***Gəncə Dövlət Universitetinin kafedra müdiri***



Heydər Əliyev respublikamızda milli tərəqqinin memarıdır.

Ötən əsrin 90-cı illərinin əvvəllərində müstəqilliyini yenicə qazanmış, Ermənistanın hərbi təcavüzü və daxildə müxtəlif siyasi qüvvələrin vəzifə uğrunda amansız mübarizəsinin məntiqi nəticəsi olaraq xaosun və özbaşınalığın hökm sürdüyü Azərbaycanda xalqın təkidli tələbi ilə ikinci dəfə hakimiyyətə qayıdan ulu öndər Heydər Əliyev prezident kimi fəaliyyətinin əsas istiqamətlərindən danışarkən iki halı xüsusi qeyd etmişdir: "Respublika iqtisadiyyatı, demək olar ki, tamamilə dağıdılıb, xalqın rifah halı aşağı düşüb. Lakin respublikanın böyük sosial-iqtisadi, elmi-texniki potensialı var. Azərbaycanın coğrafi-siyasi vəziyyəti, onun təbii sərvətləri, uzun illər boyu yaranmış əsas fondları respublikanı bu ağır böhrandan çıxarmağa imkan verir. Digər tərəfdən yeni islahatlar aparmaq yolu ilə bazar iqtisadiyyatına keçmək istiqamətində hərəkət etməliyik".

Ümummilli lider Heydər Əliyevin apardığı ardıcıl və məqsədyönlü siyasət nəticəsində ictimai-siyasi sabitliyin təmin olunması, istehsalda yaranmış geriləmə prosesinin qarşısının alınması və digər tədbirlərdən sonra iqtisadiyyatda tənəzzül tədricən aradan qaldırıldı. Bununla da Azərbaycanın iqtisadi inkişafının mahiyyətcə yeni mərhələsinin təməli qoyuldu. Əldə olunan makroiqtisadi sabitlik, sənayedə və digər

sahələrdə göstəricilərin artımı, həyata keçirilən geniş miqyaslı iqtisadi islahatların ilkin nəticələri aparılan siyasətin düzgünlüyünü və Azərbaycanın bazar iqtisadiyyatı yolunda inamlı addımlarını təsdiq edirdi. Dövlət müstəqilliyinin bərpasından sonra ötən qısa tarixi dövrdə Heydər Əliyevin uzaq görən siyasəti və gərgin fəaliyyəti nəticəsində ölkəmizin sosial-iqtisadi inkişafı və dünya təsərrüfat sisteminə inteqrasiyası sahəsində uğurlu nailiyyətlər əldə olundu.

Azərbaycan tarixində görkəmli dövlət xadimi, ulu öndər Heydər Əliyevin müstəsna yeri var. Respublikamızın inkişafı, bütün dünyada tanınması ümummilli liderimizin adı ilə bağlıdır. Bunun təsdiqi kimi dahi şəxsiyyətin ömür yoluna, xalqımızın xoşbəxtliyi naminə gördüyü işlərə qısaca nəzər salaq.

Belə ki, vaxtilə keçmiş SSRİ-nin ucqar əyalətlərindən sayılan Azərbaycanın müstəqil dövlətə çevrilməsi ilk növbədə məhz Heydər Əliyevin uzun illər boyu apardığı gərgin fəaliyyətin nəticəsidir. Ötən əsrin 70-80-ci illərində Azərbaycanda 250-dən çox sənaye obyekti tikilib istifadəyə verilmiş, əsas fondların 85 faizi təzələnərək həcmi 2-3 dəfə artırılmışdı. Cəmi 15 il ərzində respublikada miqyas etibarilə bütün əvvəlki tarixi boyu yaradılmış potensialla müqayisə oluna biləcək güclü sənaye potensialı yaradılmışdı.

1993-2003-cü illər ən yeni Azərbaycan tarixinə bazar iqtisadiyyatının vacib seqmentlərindən olan dövlət mülkiyyətinin özəlləşdirilməsi, infrastrukturunun yenilənməsi, tranzit imkanlarından səmərəli istifadə üçün Şərq, Qərb, Şimalı-Cənubi nəqliyyat dəhlizləri üzrə layihələrin həyata keçirilməsi, sahibkarlığın inkişafı naminə zəruri tədbirlərin görülməsi, əhalinin güzəranını yaxşılaşdırmaq məqsədilə sosial sahədə mövcud problemlərin kompleks həlli, habelə elm, təhsil, mədəniyyət və səhiyyə sahələrinin sürətli inkişafı dövrü kimi daxil olmuşdur.

Ulu öndərdən sonra bu siyasəti inamla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi altında hazırda Azərbaycanın hərtərəfli inkişafında yeni mərhələ yaşanır. Dövlət başçısının həyata keçirdiyi iqtisadi siyasətin əsas xarakterik xüsusiyyətləri onun sosial yönümlü olması, habelə bütün problemlərin həllində iqtisadi aspektin mövcudluğunun

ön plana çəkilməsidir. Makroiqtisadi sabitlik şəraitində iqtisadiyyatın dinamizmə əsaslanan sürətli tərəqqisi əhalinin sosial rifah halının davamlı şəkildə yaxşılaşmasını, həmçinin onun beynəlxalq standartlara əsaslanan sosial müdafiə modelinin yaranmasını şərtləndirmişdir.

Cənab İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən və ilk növbədə sosial yönümlü problemlərin kompleks həllinə geniş imkanlar açan səmərəli islahatlar, imzalanan fərman və sərəncamlar ölkəmizdə yaşanan iqtisadi inkişafın sürətləndirilməsini uğurla təmin edir, tərəqqi prosesində özəl sektorun payı və rolunu davamlı şəkildə artırır.

Dövlət başçısı İlham Əliyevin uğurla reallaşdırdığı inkişaf strategiyası artıq özünün növbəti - üçüncü mərhələsi ərəfəsindədir. 2013-2023-cü illəri əhatə edəcək bu mərhələdə Azərbaycanın inkişaf etmiş ölkələr sırasına çıxarılması və əhalimizin yüksək gəlirli topluma çevrilməsi, qeyri-neft sektorunun hərtərəfli inkişafı sayəsində ümumi daxili məhsulun 2 dəfə artırılması, dövlət və özəl qurumların birgə fəaliyyəti üzrə yeni strategiyanın hazırlanması, ən müasir texnologiyaları tətbiq etməklə iqtisadiyyatın modernləşdirilməsi, elm və innovasiyalara əsaslanan cəmiyyət quruculuğu, hüquqi dövlətcilik prinsiplərinin, insan hüquq və azadlıqlarının tam bərqərar edilməsi - Prezident İlham Əliyevin qarşıya qoyduğu başlıca hədəflərdir.

Prezident İlham Əliyevin qeyd etdiyi kimi, inkişafımızın əsasında düşünülmüş siyasət, liberal islahatlar, dövlətin həyata keçirdiyi siyasətin xalq tərəfindən dəstəklənməsi, güclü hakimiyyət və sabitlik amilləri dayanır. Azərbaycan Prezidentinin praqmatik siyasi kursu, hakim komandanın səmərəli fəaliyyəti və ən əsası, xalqımızın güclü dəstəyi olmasaydı, bütün bu uğurlar əlçatmaz xəyal olaraq qalacaqdı. Buna görə də dünyanın nüfuzlu ekspertləri, politoloqları hesab edirlər ki, hazırda planetimizin müxtəlif bölgələrində münaqişələrin, siyasi kataklizmlərin müşahidə olunduğu aparıcı ölkələr iqtisadi və maliyyə böhranından əziyyət çəkdiyi bir dövrdə Azərbaycanın dinamik inkişafı əsl möcüzədir. Davamlı iqtisadi inkişaf, ictimai-siyasi sabitlik, sosial rifah, xalqla hakimiyyət arasında vəhdət - budur, müasir Azərbaycanın reallıqları.

Təbii ki, bütün bunlar həm xalqımızın, həm də beynəlxalq ictimaiyyətin nəzərində, habelə dünyanın siyasi elitası arasında cənab İlham Əliyevin qurucu, yaradıcı, görkəmli dövlət və siyasi xadim obrazını şərtləndirən mühüm amillərdir. İlham Əliyev dövlətimizin möhkəmləndirilməsi, müstəqilliyimizin dönməzliyinin təmin olunması kimi məsul bir vəzifəni yerinə yetirməklə həm də milli şüurumuzun inkişafı və cəmiyyətimizin müasirləşməsi üçün yorulmadan səy göstərir. O, hər bir situasiya üçün düzgün qərar verərək, onların həyata kecirilməsinə nail olur.

Azərbaycan Prezidenti siyasi lider kimi yeni dövrün tanınmış şəxsiyyətidir. Dövlət başçımızın qazandığı uğurlar xalqımıza böyük ümidlər verir, gələcəyə geniş yollar açır.

# AZAD BAYRAMOV

*ADAU-nun İctimai Fənlər kafedrasının müdiri, professor*



1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdan Ümummilli lider Heydər Əliyev ilk günlərdən Azərbaycanın xarici siyasətini yeniləşdirdi və ölkənin strateji maraqları əsasında yenidən qurdu. Ulu öndər, ilk növbədə keçmiş hakimiyyətin xarici siyasət sahəsində buraxdığı kobud səhvləri və bunun nəticəsində Azərbaycan ətrafında formalaşmış çox gərgin beynəlxalq siyasi vəziyyəti aradan qaldırmaq istiqamətində iş aparmağa, ölkənin strateji maraqlarını region dövlətlərinin və Qafqazda xüsusi təsiri olan ayrı-ayrı dövlətlərin maraqları ilə uzlaşdırmağa yönəlmiş siyasət yürütməyə başladı. Heydər Əliyev Azərbaycanın xarici siyasətində yer tutan özünütəcrid xəttinin tamamilə yolverilməz və milli maraqlara zidd olduğunu vurğuladı. O, özünütəcrid xəttinin acı nəticəsi kimi dünyanın Azərbaycanı tanımamasını, problemlərimizi bilməməsini, haqq səsimizi eşitməməsini göstərir və belə siyasəti "özümüzün özümüzə vurduğumuz zərbə" adlandırırdı. Ölkənin mənafelərini qorumaq istiqamətində hərtərəfli ölçülüb-biçilmiş addımların atılmasının vacibliyini vurğulayan Heydər Əliyev Azərbaycanın dövlətçilik mənafelərini hər şeydən uca tutaraq müxtəlif dövlətlərin bütövlükdə Qafqaz və bilavasitə respublikamız üzərində qurulmuş iqtisadi maraq və nüfuz dairəsi uğrunda mübarizələrini nəzərə alaraq, çevik manevrlər

və xüsusi taktiki gedişlər etdi. Xarici siyasət kursunda mövcud reallıqları nəzərə alan və ölkənin mənafelərinin qorunmasına yönəlmiş əməli dəyişikliklər edildi. Müstəqil Azərbaycan dövlətinin beynəlxalq münasibətlər sistemində yeri, Avropa ölkələri və ABŞ-la, yeni müstəqil dövlətlər və Rusiya ilə, türkdilli dövlətlər və Türkiyə, müsəlman dünyası və İranla, nüfuzlu beynəlxalq təşkilatlarla əlaqələrinin yaxın dövr üçün prioritetləri müəyyənləşdirildi və tədricən həyata keçirilməyə başlandı. Türkiyə ilə münasibətlərdəki dərin düşünülmüş çox ağıllı dəyişikliklər isə ölkəmiz üçün, həm də ümumiyyətlə, ümumtürk birliyinin inkişaf edərək möhkəmlənməsi üçün çox əhəmiyyətli oldu. Bu işdə Prezident Heydər Əliyevin Türkiyəyə səfərləri mühüm rol oynadı. Bu illər ərzində Türkiyə ilə əlaqələr "bir millət, iki dövlət" formulu əsasında, sarsılmaz təməl üzərində qurulmuşdur. Azərbaycanın etibarlı strateji tərəfdaşı olan Türkiyə ilə münasibətlərin möhkəmləndirilib daha da genişləndirilməsi ölkəmizin xarici siyasətinin çox mühüm tərkib hissəsidir. Hər iki ölkənin dövlət başçılarının qarşılıqlı səfərləri ikitərəfli siyasi, iqtisadi əməkdaşlığın inkişafında əhəmiyyətli rol oynamışdır. Bu gün ölkələrimiz arasında strateji tərəfdaşlıq münasibətləri mövcuddur, bütün sahələrdə əlaqələr uğurla inkişaf edir. Türkiyə beynəlxalq aləmdə Azərbaycanın fəal tərəfdarı kimi çıxış edir. Dağlıq Qarabağ münaqişəsinin ədalətli həlli üçün Azərbaycanın göstərdiyi səyləri dəstəkləyir. Türkiyə və Azərbaycan regional əməkdaşlıq prosesinin fəal və söz sahibi olan iştirakçılarıdır. Hər iki ölkə özünün iqtisadi-enerji imkanlarından və geosiyasi mövqeyindən ikitərəfli və regional əməkdaşlığın genişlənməsi naminə səmərəli istifadə edir. Azərbaycan və Türkiyə arasında strateji tərəfdaşlıq və dərinləşən əməkdaşlıq regionda sabitliyin göstəricisinə çevrilmişdir. Xüsusi vurğulamaq lazımdır ki, Azərbaycan Türkiyə də daxil olmaqla, bütün türkdilli dövlətlərin ümumi maraq və mənafelər naminə konsolidasiyası istiqamətində inamlı addımlar atmışdır. Xarici siyasət sahəsində neft amilindən bacarıqla istifadə edən ulu öndərimiz Heydər Əliyev neft müqavilələri bağlanması məsələsini nəzarətə aldı, danışıqlara şəxsən nəzarət etdi.

1994-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi" adlanan müqavilə imzalandı. Beləliklə, "Əsrin müqaviləsi" ilə ulu öndərimiz Heydər Əliyevin rəhbərliyi altında imzalanmış və sərmayə qoyulmuş 60 mlrd. ABŞ dolları həcmində olan 19 müqavilənin başlanğıcı qoyulmuş oldu. Cənubi Qafqaz regionu üzərindən beynəlxalq nəqliyyat və kommunikasiya dəhlizlərinin genişləndirilməsi və Azərbaycanın tranzit imkanlarının gücləndirilməsi ölkə iqtisadiyyatının və qeyri-neft sektorunun inkişafının vacib elementidir. Bu mənada, Azərbaycan "Avropa-Qafqaz-Asiya Transqafqaz nəqliyyat dəhlizi" (TRASEKA) layihəsi, habelə Şimal-Cənub nəqliyyat dəhlizinin həyata keçirilməsinə fəal cəlb olunmuşdur. Bununla yanaşı, Azərbaycan Türkiyə və Gürcüstanla geostrateji əhəmiyyət kəsb edən Bakı-Tiflis-Qars dəmiryolu xəttinin çəkilməsi bu istiqamətdə görülən ən vacib layihələrdən biri kimi qiymətləndirmək tam yerinə düşər. Azərbaycan ilə Türkiyə arasında əlaqələrin böyük tarixi var. Ortaq kök, dil, din birliyi, oxşar mədəniyyət, adət və ənənələr bu əlaqələri şərtləndirən amillər sırasında yer alır. Türkiyə Azərbaycan üçün beynəlxaq aləmdə müttəfiq və dayaqdırsa, Azərbaycanın da güclü dövlət olması Türkiyənin dünya siyasətində gücünün və rolunun artması deməkdir. Ölkəmizin müstəqillik qazanması və beynəlxalq münasibətlərin subyektinə çevrilməsi ilə onun xarici əlaqələrinin inkişafında sərhəd bölgəsində yerləşən Naxçıvanında rolu artmış oldu. Ermənistanın Azərbaycana qarşı yeritdiyi siyasət nəticəsində Naxçıvan Muxtar Respublikası ölkənin əsas ərazisi ilə birbaşa nəqliyyat-kommunikasiya əlaqələrindən məhrum olmuşdur. 1991-ci il sentyabrın 3-də Heydər Əliyev Naxçıvan Ali Məclisinin Sədri seçildikdən sonra Naxçıvan-Türkiyə münasibətləri yeni mərhələyə qədəm qoydu." Naxçıvan-Türk islam dünyasına bir qapıdır" deyən Heydər Əliyev bu istiqamətdə ardıcıl, məqsədyönlü fəaliyyət göstərməyə başladı. Həmin il oktyabrın 29-da Naxçıvan Muxtar Respublikasının Sədərək rayonunda Azərbaycan-Türkiyə arasında Araz çayı üzərində körpü müvəqqəti istifadəyə verildi. Həmin körpünün rəsmi açılış mərasimində Ali Məclisin sədri Heydər Əliyevlə bərabər Türkiyə hökumət dairələrinin

nümayəndələri, Azərbaycanın görkəmli elm və mədəniyyət xadimləri də iştirak etdilər. Bununla da 70 il ərzində bir-birlərinə həsrət qalan bu qardaş ölkələr arasında ilk gediş-gəliş əlaqələri yaradıldı. Ümummilli liderimiz Heydər Əliyevin Naxçıvanın ağır dövründə qurduğu beynəlxalq əlaqələr muxtar respublikanın mövcudluğu üçün bəlkə də yeganə vasitəyə çevrildi. 1991-ci il noyabrın əvvəllərində Türkiyə Nəqliyyat Nazirliyinin nümayəndə heyəti muxtar respublikaya səfər etmiş, səfər zamanı Ali Məclisin sədri ilə Araz çayı üzərində avtomobil körpüsünün tikilməsi, keçid məntəqəsi yaradılması haqqında məsələlər müzakirə edilmiş, Muxtar Respublika Nazirlər Kabineti ilə həmin qurum arasında protokol tərtib edilmişdir. Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində müvəqqəti körpü istifadəyə verildikdən sonra Türkiyə hökumət nümayəndələrinin, iş adamlarının, Naxçıvana səfərləri, muxtar respublikaya göstərilən yardımların həcmi artmışdı. Bu dövrdə Naxçıvan-Türkiyə əlaqələrinin inkişafında Heydər Əliyevin başçılığı ilə Naxçıvan Muxtar Respublikasının nümayəndə heyətinin qonşu ölkəyə səfərləri xüsusi rol oynadı. 1992-ci ilin martında Naxçıvanın ictimai-siyasi həyatında görünməmiş bir hadisə baş verdi. Türkiyənin o vaxtki baş naziri Suleyman Dəmirəlin göndərdiyi şəxsi təyyarə ilə Heydər Əliyevin dost ölkəyə işgüzar səfəri oldu. Səfər zamanı Türkiyə Respublikasının Prezidenti Turqut Özal, baş nazir Suleyman Dəmirəl ilə əhəmiyyətli görüşlər keçirildi. Görüşlərdə əsas müzakirə edilən məsələ, təbii ki, Ermənistanın Azərbaycana qarşı təcavüzü və Naxçıvanın düşdüyü ağır vəziyyətlə bağlı olmuşdur. Muxtar Respublikanın qonşu dövlətlə bütün sahələrdə əməkdaşlığının inkişaf etdirilməsi məqsədi ilə Türkiyənin baş naziri və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri birgə protokol imzalamışdılar. 1992-ci ilin 22-25 martında imzalanmış 13 maddəlik birgə əməkdaşlıq protokolunda muxtar respublikaya maliyyə, iqtisadi, texniki yardım göstərilməsi, muxtar respublikanın zəruri ehtiyaclarını ödəmək üçün 100 milyon ABŞ dolları həcmində kreditin ayrılması, tərəflər arasında enerji xətlərinin yaradılması, nəqliyyat əlaqələrinin inkişaf etdirilməsi öz əksini tapmışdı. Protokolda həmçinin bank işi,

turizm, informasiya sahəsində geniş əməkdaşlıq əlaqələrinin yaradılması, muxtar respublikadan olan 100 tələbənin Türkiyədə təhsil alması haqqında da razılığa gəlinmişdi. Bu gün Azərbaycan Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında inkişaf etmiş elm və təhsil əlaqələri də mövcuddur. İki ölkənin bu sahədə əməkdaşlığı həm məzmununa, həm də miqyasına görə digər dövlətlərlə müqayisə olunmazdır. Təhsil sahəsində çoxtərəfli əməkdaşlığı həyata keçirmək üçün lazımi hüquqi baza yaradılmışdır. İki ölkə arasında təhsil haqqında müqavilə, təhsil və elm sahəsində əməkdaşlıq protokolu, Təhsil Nazirliyi ilə Türkiyənin Ali Təhsil Şurası rəhbərliyi arasında razılıq protokolu imzalanmışdır. Hazırda Türkiyədə 40-dan çox ixtisas üzrə ali təhsilin müxtəlif pillələrində oxuyurlar. Mindən çox azərbaycanlı professor-müəllimlərimiz, elmi işçilərimiz dost ölkənin nüfuzlu ali təhsil və elm ocaqlarında çalışırlar. Türkiyənin elmə və təhsil işçilərinin Azərbaycandakı fəaliyyəti təqdirəlayiq hesab olunmalıdır. O zaman Ulu öndər bu protokolu böyük əhəmiyyətə malik tarixi sənəd kimi qiymətləndirmiş, muxtar respublikanın icra strukturlarına protokolun icrası ilə əlaqədar konkret təkliflərlə çıxış etməyi tapşırmışdı. Qısa müddət ərzində protokolda nəzərdə tutulmuş tədbirlərin reallaşdırılması üçün konkret işlər görülməyə başlandı. 1992-ci ilin aprelində qonşu ölkənin Kənd Təsərrüfatı Nazirliyi əməkdaşlarının Naxçıvana səfəri zamanı böyük miqdarda texniki yardım, gübrə, toxum göndərilməsi haqqında razılıq əldə edilmişdi. Azərbaycan-Türkiyə əlaqələrinin inkişafında 1992-ci il mayın 28-də Azərbaycan xalqı üçün əziz bir gündə-Respublika günündə Araz çayı üzərində açılmış “Sədərək-Dilucu” “Ümid” körpüsü mühüm mərhələ oldu. Naxçıvan torpağı həmin gün böyük bayram əhval - ruhiyyəsi yaşadı. Naxçıvanın tarixində ilk dəfə olaraq dünyanın ən iri dövlətlərindən birinin-Türkiyənin baş naziri birbaşa bu torpağa qonaq gəldi. Bu münasibətlə hava limanında qarşılanma mərasimi də böyük təntənəyə çevrildi. Həmin qarşılanmadan bir qədər əvvəl Naxçıvana xüsusi təyyarə ilə gəlmiş Türkiyənin 150 nəfərdən artıq yüksək vəzifəli məmur və yaradıcı ziyalılarından ibarət nümayəndə heyəti də iştirak

edirdi. Naxçıvan hava limanında Süleyman Dəmirəli böyük məhəbbətlə salamlayan Ali Məclisin sədri Heydər Əliyev dedi: “İlk dəfə olaraq Türkiyənin baş naziri bu qədim torpağa ayaq basır. Sayın Süleyman Dəmirəl və onu müşayiət edən şəxsləri bu gün burada qarşılamaq kimi bir xoşbəxtlik bizə nəsib olub. Bu körpü bizim ümid və arzularımızın körpüsüdür və türk dünyasına pəncərədir. 70 ildən artıq idi ki, biz bu günü gözləyirdik və arzularımız həyata keçdi”. Baş nazir Süleyman Dəmirəl də Heydər Əliyevə, eləcə də naxçıvanlılara sonsuz sevgi və məhəbbətinin bildirdi: ”Şadam və xoşbəxtəm ki, bu gün naxçıvanlılarla görüşürəm, sizləri bağrıma basıram. Sizi əmin etmək istəyirəm ki, Türkiyə həmişə Azərbaycanla birgə olmuş və olacaqdır. Dərdinizə də, sevincinizə də şərik olmuşuq”.

1992-ci ilin iyulunda keçirilmiş Muxtar Respublika Ali Məclisinin Rəyasət Heyətinin iclasında körpünün istifadəyə verilməsi böyük tarixi hadisə kimi qiymətləndirilmiş, Türkiyə ilə Azərbaycan arasında iqtisadi, mədəni əlaqələrin genişlənməsinə, qardaş xalqların bir-birinə yaxınlaşmasına xidmət edəcəyi bildirilmişdi. Rəyasət heyətinin qərarı ilə “Sədərək-Dilucu” körpüsü Türkiyə Respublikası ilə Naxçıvan Muxtar Respublikası arasında rəsmi keçid qapısı elan edildi. Naxçıvan-Türkiyə əlaqələrinin inkişafında ulu öndər Heydər Əliyevlə Suleyman Dəmirəl arasında yaranmış dostluq münasibətləri xüsusi rol oynayırdı. Heydər Əliyev Ermənistanın təcavüzü ilə əlaqədar Naxçıvanda yaranmış vəziyyətlə Suleyman Dəmirəl və digər Türkiyə rəhbərlərini daim məlumatlandırmış, təcavüzün dayandırılması üçün kömək göstərilməsini xahiş etmişdir. 1992-ci ilin mayında Ermənistanın Naxçıvana təcavüzü ilə bağlı Türkiyə hökuməti bəyanat qəbul etmiş və 1921-ci il Qars müqaviləsinə əsasən Naxçıvanın muxtariyyətinin qarantı olduğunu bütün dünyaya bəyan etmişdir. Naxçıvan Muxtar Respublikasını qonşu Türkiyə vilayətləri - Qars, İğdır, Ağrı, Ərzurum, Van ilə də əlaqələri yaranır və möhkəmlənirdi. Heydər Əliyev Türkiyədə səfərdə olarkən dəfələrlə bu bölgələrdə olmuş, həmin vilayətlərin nümayəndə heyətləri də öz növbəsində Naxçıvana işgüzar səfərlər etmişdilər. Xüsusən, Qars və İqdır vilayətləri ilə əlaqələr

sürətlə, yüksələn xətt üzrə inkişaf edirdi. Müasir dünya siyasətçilərindən tutmuş, elm və mədəniyyət xadimlərinin birmənalı şəkildə etiraf etdikləri kimi çağdaş Azərbaycan tarixinin və siyasətinin bayraqdarı olan ümummilli liderimiz Heydər Əliyevin Azərbaycan-Türkiyə mədəni əlaqələrinin inkişafında da danılmaz və əvəzedilməz xidmətləri vardır. Heydər Əliyev birmənalı şəkildə bəyan edirdi ki, "Türkiyə ilə Azərbaycan arasında olan əlaqələr qazanc, para üzərində qurulmamalıdır. Bizim ölkələrimizin böyük mənəvi kökləri var, bunları bir-birinə bağlayan milli köklər var. Bu milli, mənəvi mənafeyi ayrı-ayrı şəxslərin qazancına qurban vermək olmaz. Ona görə də mən bu barədə öz fikrimizi və etirazımızı Türkiyənin bütün dövlət və hökumət başçılarına bildirmişəm. Biz bildirmişik ki, buna yol vermək olmaz. SSRİ-nin dağılmasından sonrakı dövrdə Azərbaycan-Türkiyə elmi-mədəni əlaqələrindən bəhs edərkən qeyd etməliyik ki, bu əməkdaşlığın hüquqi əsasları diplomatik əlaqələrin qurulmasından sonra daha da intişar tapmışdır. 1993-cü ildən başlayaraq Azərbaycan kifayət qədər uğurlu xarici siyasət strategiyası həyata keçirib. Ölkəmiz daim dəyişən beynəlxalq mühitə uyğunlaşmaqla yanaşı, eyni zamanda, regional liderə çevrilməyə nail olaraq milli maraqların həyata keçirilməsi, müstəqilliyin və suverenliyin gücləndirilməsi, ərazi bütövlüyünün bərpasına istiqamətlənmiş fəal xarici siyasət yürüdüb. Bu gün Azərbaycan çox mühüm ölkədir. O, Cənubi Qafqazda həlledici geosiyasi oyunçudur. Azərbaycan həm də Şərqə və Mərkəzi Asiyaya açılan "geosiyasi pəncərə"dir. Cənubi Qafqazın başqa bir ölkəsinin coğrafi, geoloji və geosiyasi xarakteristikalarına görə bu funksiyanı yerinə yetirməsi imkanı yox dərəcəsindədir. Bütün bunlar onu göstərir ki, qlobal səviyyədə gedən geosiyasi proseslərin ümumi məntiqi, postsovet məkanının geosiyasi xüsusiyyətləri, Cənubi Qafqazda yaranmış ümumi vəziyyət və Azərbaycanın öz daxili siyasi mühitinin ziddiyyətləri sistem halında ölkənin strateji seçimini xeyli çətinləşdirmişdi. Bu cür iyerarxik maraqlar sistemini nəzərə almadan ümumi inkişaf strategiyası və onun tərkib hissəsi olan xarici siyasət kursu seçilə bilməzdi. Heydər Əliyev bu mürəkkəb vəziyyətdə xarici

siyasətin qarşısında duran vəzifələri və onun prioritetlərini dəqiq müəyyənləşdirdi. Yığcam şəkildə həmin vəzifələr barədə ulu öndər 1993-cü il oktyabr ayının 10-da Prezident seçilməsi ilə bağlı keçirilən andiçmə mərasimində danışmışdır. Ulu öndər bəyan edirdi: "Respublikamızın qarşısında duran əsas vəzifələrdən biri Azərbaycanın mənafeyini dünya miqyasında müdafiə edə bilən ağıllı, səriştəli xarici siyasətin yeridilməsidir. Qarşıda böyük vəzifələr durur. Bizim xarici siyasətimiz birinci növbədə Azərbaycanın dövlət müstəqilliyini təmin etməyə yönəldilməlidir". Bunun üçün önəmli vəzifə kimi Ümummilli lider bərabərhüquqlu əlaqələr yaratmağı qarşıya qoyurdu. Azərbaycanın beynəlxalq aləmlə inteqrasiyasında, regional təhlükəsizliyin qorunmasında və ümumiyyətlə, ölkəmizin siyasi-iqtisadi və elmi-mədəni maraqlarının reallaşmasında Türkiyə ilə hərtərəfli əməkdaşlığın genişlənməsinə xüsusi əhəmiyyət verən Heydər Əliyev 1993-cü ildə yenidən hakimiyyətə qayıtdıqdan sonra bu istiqamətdə kursun yüksələn xətt üzrə inkişafını təmin etdi. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Yeni əsr və üçüncü minillik münasibəti ilə Azərbaycan xalqına müraciətində qeyd etdiyi kimi: “1993-cü ilin yayından başlayaraq, Türkiyəyə münasibətdə də xarici siyasət kursunda ciddi dəyişikliklər edildi və Azərbaycan-Türkiyə münasibətlərində keyfiyyətcə yeni mərhələ başlandı. Bu gün Türkiyə Azərbaycanın ən etibarlı siyasi müttəfiqi, bərabər hüquqlu iqtisadi tərəf müqabilidir. İki qardaş dövlətin başçılarının qarşılıqlı rəsmi səfərləri zamanı hərtərəfli əməkdaşlığımızı əhatə edən bir sıra mühüm sənədlər imzalanmışdır. Azərbaycan-Türkiyə münasibətləri iki qardaş xalqın mənafelərinə xidmət etməklə yanaşı, bütün türk dünyası üçün də mühüm rol oynayır və türkdilli dövlətlər arasında münasibətlərin inkişafına da güclü təsir göstərir. Bununla yanaşı dünyada və bölgədə sülhün və əmin-amanlığın bərqərar olunması işinə də öz töhfəsini verir.

Daim Vətənini, xalqını düşünən Ulu öndər Azərbaycana cənab İlham Əliyev kimi praqmatik düşüncəyə, siyasi təfəkkürə malik bir lider bəxş etdi. Bu gün Ulu öndərin siyasi kursu, ümummilli mənafeyə yönəldilmiş islahatlar strategiyası xalqımıza uğurla xidmət göstərir. Bu

siyasəti müasir dövrün tələblərinə uyğun, yaradıcı şəkildə davam etdirən möhtərəm Prezident İlham Əliyev ölkənin bütün problemlərinə milli dövlətçilik prinsipləri kontekstindən yanaşır, onların uğurlu həllinə nail olur. Əsası ulu öndərimiz Heydər Əliyev tərəfindən qoyulmuş bu siyasi kurs bu gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla və qətiyyətlə davam etdirilir.

Bu gün artıq Azərbaycan və Türkiyə müxtəlif beynəlxalq təşkilatlarda, o cümlədən BMT, Avropa Birliyi ATƏT və Avropa Şurasında bir-birinə lazimi dəstəyi verir. Rəsmi Ankara bütün beynəlxalq toplantılarda haqlı mövqeyimizi müdafiə edərək, Ermənistanın işğal etdiyi tarixi Azərbaycan torpaqlarını dərhal və qeyd-şərtsiz azad etməsi tələbini sürür. Prezident İlham Əliyevin Türkiyəyə ilk rəsmi səfəri isə iki qardaş ölkə arasındakı müttəfiqlik münasibətlərin inkişafına güclü təkan verdi. Bir sözlə, Azərbaycan prezidenti cənab İlham Əliyevin Türkiyəyə ilk rəsmi səfəri göstərdi ki, iki ölkənn starteji müttəfiqliyi XXI əsrdə Cənubi Qafqazın siyasi düzənini müəyyənləşdirən ciddi güc mərkəzinin yaranması ilə nəticələnəcək. Bundan əlavə, 12 ilin sınağından çıxmış Azərbaycan - Türkiyə mütəffiqliyi normal səviyyədə, ölkələrimizin gerçək potensialı hazırki münasbətlərin daha da inkişaf etdirilməsinə imkan yaradır. Sonrakı qarşılıqlı səfərlər də bu baxımdan xüsusi əhəmiyyət daşımışdır. 2006-cı il iyulun 13-də Türkiyənin Ceyhan limanında Şərq - Qərb enerji dəhlizinin mühüm qolunu təşkil edən və ulu öndər Heydər Əliyevin adını daşıyan Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin təntənəli açılış mərasimi keçirildi. Bu hadisə ümummilli liderin uzaqgörən və düşünülmüş siyasətinin, eləcə də uğurlu neft strategiyasının nəticəsi və vaxtilə bəzi mütəxəssislərin inanmadığı üç dəniz əfsanəsinin reallığa çevrildiyi gün kimi tarixə düşdü. Ölkələrimiz arasında bütün sahələrdə əlaqələrin dinamik şəkildə inkişafının göstəricisi olan qlobal iqtisadi layihələr - Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz və Bakı-Tbilisi-Qars dəmir yolu layihələri regionda sülhün və təhlükəsizliyin təmin olunmasına öz töfhəsini verməklə yanaşı, xalqlarımızın rifah halının yaxşılaşdırılması baxımından da böyük

əhəmiyyətə malikdir. Bu mənada 2008-ci il iyulun 24-də Azərbaycan Prezidenti İlham Əliyevin Türkiyəyə səfəri zamanı Qars şəhərində Bakı-Tbilisi-Qars dəmir yolunun Türkiyə hissəsinin təməlinin qoyulması mərasimindəki nitqində dövlət başçısı Azərbaycanın beynəlxalq enerji və nəqliyyat dəhlizi ölkəsi olaraq yüksək potensialını göstərməklə yanaşı, bu dəmir yolunun ümumən regionda əməkdaşlığın genişlənməsi üçün çox önəmli layihə olduğunu bildirdi. Hazırda regionun ən böyük və mühüm layihələri hesab edilən hər üç layihənin Bakıdan başlanması təkcə Azərbaycanın neft və qaz ehtiyatlarına malik olması deyil, eləcə də ölkəmizin regionda ən böyük iqtisadi potensiala, gücə və həmin layihələrin reallaşmasını diktə etmək imkanına sahib olması deməkdir.

Azərbaycan-Türkiyə münasibətləri hazırda özünün yüksək zirvəsinə yüksəlib. Azərbaycan və Türkiyə arasında əlaqələrin yüksək səviyyəsi ümumilikdə regionun tərəqqisinə, sabitliyin bərqərar olmasına mühüm töhfələr verir. 44 günlük Vətən müharibəsi zamanı dünya bir daha bunun şahidi oldu. Müharibənin ilk günlərindən qardaş Türkiyə Azərbaycana siyasi-mənəvi dəstək verdi. Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan açıq və birmənalı bəyanatlar səsləndirərək, bu müharibədə Azərbaycanın tək olmadığını, Türkiyənin hər zaman Azərbaycanın yanında olduğunu bildirdi. Bu, gücümüzə güc qatdı, Qarabağ zəfərində mühüm rol oynadı. Xüsusən, Rəcəb Tayyib Ərdoğanın Bakıda Azadlıq meydanında keçirilən Zəfər paradında prezident İlham Əliyevlə yan-yana dayanması ölkələrimizin birliyini, xalqımızın qardaşlığını bir daha bütün dünyaya nümayiş etdirdi. Azərbaycan və Türkiyə arasında imzalanmış Şuşa bəyannaməsi isə iki ölkə arasındakı münasibətlərdə inqilabi gerçəklikdir. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin “Bir millət, iki dövlət” və Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürkün “Azərbaycanın sevinci sevincimiz, kədəri kədərimizdir” kəlamları ilə xarakterizə olunan Azərbaycan - Türkiyə münasibətləri Şuşa Bəyannaməsi ilə öz zirvəsinə yüksəlib və yeni bir mərhələyə qədəm qoyub. Soykökü, dil, mədəniyyət və digər bu kimi ortaq mənəvi

dəyərlərlə bir-birinə bağlı olan Azərbaycan və Türkiyə arasındakı münasibətlər bu gün də öz axarı ilə inkişaf etməkdədir. Təməlində qırılmaz dostluq və qardaşlıq telləri dayanan Azərbaycan-Türkiyə əlaqələri bütün istiqamətlərdə strateji önəm daşıyır. Azərbaycan Respublikası öz müstəqilliyini bərpa etdikdən sonra xarici siyasətinin əsas istiqamətlərindən biri türk dövlətləri, xüsusən də Türkiyə Cümhuriyyəti ilə çoxcəhətli sıx əlaqələrin qurulması olmuşdur. Ümumiyyətlə, Türkiyə rəsmi və işgüzar dairələrində Azərbaycana münasibətdə həmişə xüsusi yanaşma mövcud olmuş, dövlət və hökümət, həmçinin digər müxtəlif səviyyəli görüşlərdə bu münasibət dəfələrlə vurğulanmışdır. Qeyd edək ki, keçmiş Sovetlər Birliyi məkanında müstəqillik qazanmış beş türk dövlətindən coğrafi cəhətdən Türkiyəyə ən yaxın və xarici siyasət fəaliyyətində ona daha çox önəm verəni də məhz Azərbaycan olmuşdur. Ölkəmizin qardaş Türkiyə ilə münasibətləri Ulu öndər Heydər Əliyevin xalqın tələbi ilə ikinci dəfə hakimiyyətə qayıdışından sonra sürətli inkişaf mərhələsinə qədəm qoydu. Xalqımızın Ümummilli lideri Heydər Əliyevin "Türkiyə və Azərbaycan bir millət, iki dövlətdir!", Mustafa Kamal Atatürkün isə "Azərbaycanın kədəri bizim kədərimiz, sevinci bizim sevincimizdir!" kəlamlarına əsaslanan Azərbaycan-Türkiyə əməkdaşlığı Prezident İlham Əliyevin ölkəmizə rəhbərliyi dövründə də yeni inkişaf mərhələsinə qədəm qoymuş, Türkiyə ilə münasibətlərimizdə ikinci nəfəs açılmışdır. Prezident İlham Əliyev 2003-cü ildən bu yana daim türk dünyasının birliyinin daha da möhkəmləndirilməsinin, eləcə də Türkiyə ilə münasibətlərin ən yüksək səviyyəyə çatmasının təşəbbüskarı kimi çıxış etmiş, bu istiqamətdə müsbət nəticələri olan bir sıra konkret addımlar atmışdır. Məhz Prezident İlham Əliyevin təşəbbüsü ilə Bakıda keçirilən Azərbaycan və Türk diaspor təşkilatlarının Bakı Forumu ümumtürk birliyinin daha da möhkəmlənməsinə mühüm təkan vermişdir. Bu gün hər iki ölkə rəhbərliyinin qarşılıqlı münasibətlərin prinsiplərini uğurla müəyyənləşdirmələri dövlətlərimizin və ümumən türk dünyasının birliyinin, həmrəyliyinin qırılmazlığını şərtləndirmişdir. Siyasi, iqtisadi,

mədəni, humanitar, eyni zamanda hərbi sahələrdə əlaqələrimizin analoquna dünyada rast gəlmək mümkün deyil. Türkiyə ilə Azərbaycanın bir-birinə qırılmaz tellərlə bağlandığını, bütün məsələlərdə eyni mövqedən çıxış etməsini təsdiqləyən faktorlardan biri də rəsmi Ankaranın Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı mövqeyidir. Belə ki, rəsmi Ankara Azərbaycan torpaqları işğaldan azad olmayınca, Ermənistan - Türkiyə sərhədlərinin açılmasından söz gedə bilməz mövqeyi daim saxlanılmış və hər zaman bu mövqe ön plana çəkilmişdir. Prezident İlham Əliyevin Avropa İttifaqının "Şərq tərəfdaşlığı" Proqramının sammitindəki çıxışı zamanı "Bu masa arxasında Türkiyə nümayəndələri yoxdur. Ancaq mən buradayam" deməsi, eyni zamanda dünyanın əksər ölkələrinin planetimizin ən böyük ədalətsizliklərindən birinə - erməni işğalına reaksiya vermədiyi dövrlərdə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın "Qarabağ Azərbaycan qədər bizim də məsələmizdir" bəyanatı Azərbaycan-Türkiyə qardaşlığının sarsılmazlığının bariz nümunələridir. Dövlətlərimizin və xalqlarımızın bir-birini dəstəklədiyi belə məqamlar saysız-hesabsızdır və onları sadalamaqla bitməz. Məlum olduğu kimi, Azərbaycan tarixinə qızıl hərflərlə yazılan 2020-ci ildə müdrik rəhbər, qətiyyətli sərkərdə Prezident İlham Əliyevin rəhbərliyi ilə mübariz xalqımız və rəşadətli ordumuz düşmən üzərində parlaq qələbə qazandı. Əslində Vətən Müharibəsi Azərbaycan ilə Türkiyə arasında əlaqələrin ən yüksək səviyyədə olmasının bütün dünyaya göstəricisi idi. Qırx dörd günlük qürur dolu tarixin ilk günlərindən qardaş Türkiyə Azərbaycana siyasi-mənəvi dəstək verdi. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan açıq və birmənalı bəyanatlar səsləndirərək, bu müharibədə Azərbaycanın tək olmadığını, Türkiyənin hər zaman dövlətimizin və xalqımızın yanında olduğunu bildirdi. Bu da təbii olaraq gücümüzə güc qatmaqla əldə etdiyimiz möhtəşəm tarixi qələbədə mühüm rol oynadı. İyunun 15-də Şuşada imzalanmış "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi" isə iki dövlət və onların xalqları arasındakı birliyin, doğmalığın, dostluğun və

qardaşlığın növbəti təzahürü oldu. Azərbaycan Prezidenti İlham Əliyevin və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın 2021-ci il 15 İyun - Milli Qurtuluş Günündə imzaladıqları "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi" ilə bu yaxınlığın, birliyin, doğmalığın, dostluğun və qardaşlığın yeni - qızıl dövrü başladı. Həmin sənəddə birgə milli mənafelər baxımından siyasi, hərbi və təhlükəsizlik sahələrində əlaqələndirilmiş ortaq fəaliyyətin təşviq edilməsi də xüsusi yer tutur.

Şanlı Qələbənin şərəfinə dekabrın 10-da Azərbaycan Prezidenti İlham Əliyevin və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə Bakının ən böyük meydanı olan "Azadlıq meydanı"nda möhtəşəm Zəfər Paradı keçirildi. Xüsusi vurğulamaq lazımdır ki, Rəcəb Tayyib Ərdoğanın Bakıda Azadlıq meydanında keçirilən Zəfər Paradında Prezident İlham Əliyev ilə çiyin-çiyinə dayanması ölkələrimizin birliyini, xalqlarımızın qardaşlığını bir daha bütün dünyaya nümayiş etdirdi. Eyni zamanda bir il sonra "Azərbaycan - Türkiyə strateji müttəfiqlik münasibətləri Qafqaz və region üçün sülh və sabitlik mənbəyidir" mövzusunda Şuşada keçirilən beynəlxalq konfrans əslində mövcüd dostluğun və əməkdaşlığın davamıdır desək, heç də yanılmarıq. Tarixən Azərbaycanı daim Türkiyədən ayrı salmaq, əlaqələrini tamamilə kəsmək mövqeyində dayananlar yenə də öz istəyinə nail ola bilmədilər. Çünki artıq reallaşma astanasında olan Zəngəzur yolu Arazboyunu kəsib depoya çevirənlərə, bizi doğma Naxçıvanımızdan ayrı salan və Türkiyə ilə möhkəm telləri qoparmağa çalışan qüvvələrə tarixi cavab və minillərlə ata - babalarımızın qurduğu nizama tarixi qayıdışdır. Sözsüz ki, bu qayıdışın təməl sütunu Türkiyə - Azərbaycan qardaşlığı və birliyidir. O birlik ki, əsası Ümummilli lider Heydər Əliyev tərəfindən təməli qoyulmuş tarixi siyasət mirasının tərkib hissəsi kimi bu gün də inkişaf edir, daha da möhkəmlənir və dünya üçün qibtə olacaq örnəyə çevrilir.

## HƏMİD NƏSİROV

*Gəncə şəhər Gənclər və İdman Baş İdarəsinin rəisi*



Bəşər tarixində liderlərin böyüklüyü bir tərəfdən yaşadığı dövrdə gördüyü işlərin, yaratdıqlarının əhəmiyyəti ilə ölçülürsə, digər tərəfdən onların fəaliyyətinin gələcəyin axarına təsiri, əks-sədaları ilə müəyyənləşir. Dərin fəlsəfəyə əsaslanan, daim zamanın nəbzini tutmağı, hadisələrə müdrik qiymət verməyi, siyasi potensialını çevik dəyərləndirməyi bacaran şəxsiyyətlər cəmiyyətdəki prosesləri düzgün istiqamətləndirməyə nail olur, təmsil etdikləri xalqları zamanın sərt fırtınalarından, çətin sınaqlarından üzüağ çıxarır, milli xilaskara çevrilirlər. Müstəqil Azərbaycan dövlətinin qurucusu və memarı, bütün varlığı ilə vətəninə, xalqına bağlı olan dünya şöhrətli siyasətçi və böyük dövlət xadimi, ümummilli lider Heydər Əliyev çağdaş tariximizdə əbədiləşmiş, respublikamıza rəhbərliyinin bütün dövrlərində vətən və xalq qarşısında misilsiz xidmətlər, xilaskarlıq missiyası, zəngin dövlətçilik irsi nümunəsi göstərmişdir.

Ulu Öndər rəhbərlik etdiyi dövr ərzində Azərbaycanı bir dövlət kimi zamanın ağır və sərt sınaqlarından çıxara bildi, ölkənin gələcək inkişaf

strategiyasını müəyyən etdi və onun həyata keçirilməsi üçün mühüm addımlar atdı.

Heydər Əliyev gənclərə çox böyük əhəmiyyət verirdi və onlara güvəndiyini gənclərlə görüşlərdə həmişə bildirirdi. Təsadüfi deyildi ki, o gənclərlə bağlı çıxışlarında Azərbaycanın gələcəyinin gənclərin əlində olduğunu fəxrlə dilə gətirirdi.

"Hər bir Azərbaycan gənci hər şeydən çox, hər şeydən artıq müstəqil Azərbaycanın bu günü, gələcəyi haqqında düşünməlidir" - deyən Ulu Öndər 1994-cü ildə Gənclər və İdman Nazirliyinin əsasını qoydu. Bu siyasi dövlət institutu qısa vaxtda gənclər siyasətinin əsas konturlarını müəyyənləşdirdi və reallaşdırmağa başladı. 1995-ci ildə Gənclər Təşkilatlarının Milli Şurası yaradıldı.Azərbaycan gənclərinin cəmiyyətin inkişafında və bir çox vacib problemlərin həllində rolunu artırmaq, ölkənin gələcək inkişafında iştirakını və məsuliyyətini yüksəltmək məqsədilə ümummilli lider Heydər Əliyev tərəfindən hələ 1995-ci ildə Azərbaycan Gənclərinin Forumunun keçirilməsi təşəbbüsü irəli sürüldü. Beləliklə də, 2 fevral 1996-ci ildə gənclərin I Forumu keçirildi. İlk Forum Azərbaycanda gənclər siyasətinin müəyyən olunmasında mühüm rol oynadı. 1997-ci il fevralın 1-də forumun ildönümü münasibətilə gənclərin bir qrupunu qəbul edən Ulu Öndər Heydər Əliyev 2 fevral - Azərbaycan Gəncləri Gününün elan edilməsi haqqında Sərəncam imzaladı.

Ümummilli lider Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə hakimiyyətə qayıdışından sonra idmanın inkişafı dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrildi. Beləliklə də, bu sahədə yüksəlişin əsası qoyuldu. Azərbaycanın bir idman ölkəsi kimi tanınması və olimpiya hərəkatına qoşulması geniş vüsət aldı. Çox qısa zamanda həyata keçirilən mühüm tədbirlərin nəticəsi olaraq idmançılarımız tədricən möhtəşəm qələbələrə imza atdılar. Ilk dəfə 1996-cı il Atlanta Olimpiadasına 23 nəfər idmançı ilə qatılan Azərbaycanın 197 ölkə arasında 61-ci yeri tutması idmanımızın beynəlxalq olimpiya hərəkatında ilk nailiyyəti idi. Dövlət idman siyasətinin həyata keçirilməsində əvəzsiz xidmətləri olan Ulu öndərin

diqqət və qayğısı sayəsində 1997-ci ildə Azərbaycan idmanı özünün ən mühüm mərhələsinə qədəm qoydu. Cənab İlham Əliyevin Milli Olimpiya Komitəsinin prezidenti seçilməsi ölkəmizdə idmanın daha böyükmiqyaslı tərəqqisinə, Azərbaycanın dünya idman ailəsinin üzvü olmasına, idmançılara dövlət qayğısının artırılmasına, maddi-texniki bazanın möhkəmlənməsinə geniş üfüqlər açdı.

Bu gün cənab Prezident İlham Əliyevin idmana göstərdiyi diqqət və qayğının nəticəsində Azərbaycan artıq dünyada idman ölkəsi kimi tanınmışdır. Bunun nəticəsi olaraq idmançılarımız idmanın hər bir sahəsində bayrağımızı yüksəkliklərdə dalğalandırmaqdadırlar.

**BAYRAM APOYEV**

***Azərbaycan Yazıçılar Birliyinin üzvü, GDU-nun dosenti, "Azərbaycan Respublikasının Qabaqcıl Təhsil İşçisi", Prezident təqaüdçüsü***



Azərbaycan xalqı və dövlətinin tarixin səhnəsində özünəməxsus yer tutmasını, gerçək müstəqilliyini əldə edərək qoruyub saxlamasını təmin edən məhz Ulu öndər Heydər Əliyev olmuşdur. Dahi şəxsiyyət Heydər Əliyev öz həyat yolu, amalı haqqında danışarkən demişdir: "İstər bir azərbaycanlı, Azərbaycan Respublikasının vətəndaşı, istərsə də onun rəhbəri, Prezident kimi mənim həyat amalım yalnız Sizə - bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi, mənəvi inkişafına xidmət olmuşdur. Bu yolda bütün gücümü və iradəmi yalnız müdrik və qədirbilən xalqımdan almışam. Ən çətin anlarda, ən mürəkkəb vəziyyətlərdə yalnız və yalnız xalqıma arxalanmışam. Bu da mənə dözüm, iradə verib və bütün uğurlarımı təmin edib".

Ümummilli lider Heydər Əliyevin həm SSRİ dönəmində, həm də müstəqillik illərində ölkəmizə rəhbərliyi dövründə xalqın rifah halının daha da yaxşılaşdırılması, respublikamızın tərəqqisinin

təmin olunması və digər istiqamətlərdə tarixi əhəmiyyətə malik olan misilsiz işlər görülmüşdür.

Bu gün Azərbaycan Ümummilli lider Heydər Əliyevin ideyaları əsasında uğurla inkişaf edir.

## 100 YAŞIN MÜBARƏK !

Kimsənin önündə əymədin dizin,
Yurdun hər yerində görünür izin,
Arzumdu verəsən mənə də izin:
Müqəddəs ruhuna salam göndərim,
100 yaşın mübarək, ulu öndərim!

**......**

Xalqın qəlbindədir sənə məhəbbət,
El sənə, sən elə vermisən cürət,
Kaş ki, məndə ola elə bir qüdrət,
Fələyin çərxini geri döndərim,
100 yaşın mübarək, ulu öndərim !

**......**

Dediyin "Ədalət "  zəfər çalıbdı,
İlhamın düşməndən qisas alıbdı,
Zəngəzur arzusu hələ qalıbdı,
Sən ey Haqq yolçusu, ey Peyğəmbərim,
100 yaşın mübarək; ulu öndərim!

**......**

Varisin haylara çəkdi çarpaz dağ,
Azaddır sevdiyin Şuşa , Qarabağ,
Cıdıra qayıdıb yenə o şən çağ,
Oxuyur Bülbülün, açıb güllərin,
100 yaşın mübarək,ulu öndərim!

**......**

Sənə xor baxanın üzü qaradır,
Xain əğyarların qəlbi paradır,

Birləşib el-oba , qurub- yaradır,
Ey sönməz Günəşim, aydın səhərim,
100 yaşın mübarək, ulu öndərim!

## Ulu Öndər

Doğdu Vətən "adasında",
Müqəddəslər odasında,
Azərbaycan səmasında,
Dahi insan, Ulu Öndər.

**......**

Vətən üçün o qoydu can,
Xilas etdi dağılmaqdan,
Qurdu, "Yeni Azərbaycan",
Zəkada pir, sözdə kəsər
Dahi insan, Ulu Öndər.

**......**

Xalq hər zaman "Heydər"- dedi,
Əvəzsiz bir "Rəhbər!"- dedi,
"Tanrım, onu göndər!" - dedi,
Xalqı üçün o, "Şah əsər",
Dahi insan, Ulu Öndər.

**......**

O, cahana səda saldı,
Düşmənlərdən qisas aldı,
Dühasına heyran qaldı
Təkcə mən yox, bütün bəşər,
Dahi insan, Ulu Öndər.

**......**

Xətainin xələfidi,
İlhamının sələfidi.
Daimidi, əbədidi,
Xalq elçisi o peyğəmbər,
Dahi insan, Ulu Öndər.

## Xilaskarısan

Həm böyük dahisən, həm sadə insan,
Uşağa, böyüyə oldun mehriban.
Köməyə göndərdi böyük Yaradan,
Ulu xalqımızın iftixarısan,
Əbədi rəhbəri, xilaskarısan.
......
Ana gözlərinin sildin yaşını,
Qandırdın nankoru, nadan, naşını,
Heç kimə əymədin məğrur başını,
Xalqın tükənməyən dövlət-varısan,
Əbədi rəhbəri, xilaskarısan.
......
Hayqırdın dünyaya: "Xalqa zülmə bax,
Yurdumu zəbt edib gavur-gəlmə, bax,
Avropa danışmır bircə kəlmə, bax!"
Elin Qorqudusan, Şəhriyarısan,
Əbədi rəhbəri, xilaskarısan.
......
"Vətənə qurbandı şirin can",- dedin,
Kişitək vuruşdun, "qana-qan" dedin.
Xalqa: "Nə yatmısan?! Qalx, Oyan!"- dedin,
Elin həm əsgəri, həm sərkarısan,
Əbədi rəhbəri, xilaskarısan.
......
Adınla yüksəldi Vətən şöhrəti,
Qanında çağladı Oğuz qeyrəti.
Elindən alaraq gücü-qüdrəti,
Xar etdin hər zaman sitəmkarı, sən,
Xalqın peyğəmbəri, xilaskarısan.

## HÜSEYN BƏXTİYARLI

***Gəncə Dövlət Universitetinin Ümumi tarix kafedrasının dosenti***



Heydər Əliyev və "Milli Qurtuluş Günü" çağdaş tariximizin şərəf səhifəsidir.

Tariximizə Milli Qurtuluş Günü kimi daxil olmuş 15 iyun sadəcə təqvim bayramı deyil, böyük ictimai, siyasi və tarixi əhəmiyyətə malik bir gün, çağdaş tariximizin şərəf səhifəsidir. Ümummilli liderimiz Heydər Əliyevin 1993-cü il iyunun 15-də yenidən hakimiyyətə qayıtması xalqımızın çoxəsrlik tarixinə taleyüklü möhtəşəm siyasi hadisə kimi daxil oldu. 1991-ci il oktyabrın 18-də Azərbaycan XX əsrdə ikinci dəfə dövlət müstəqilliyini elan etdi. Təəssüf ki, müstəqilliyin ilk illərində dövlətin idarəçilik sükanı arxasında xalqın qüvvələrini bir yerə cəmləşdirə biləcək qüdrətli bir lider yox idi. Həmin dövrdə Azərbaycan ərazilərinin davamlı işğalı, getdikcə gərginləşən siyasi vəziyyət, əhalinin günbəgün ağırlaşan sosial durumu ölkəni bu bəlalardan xilas edə biləcək, xalqı öz arxasınca aparmağa qadir LİDERƏ ehtiyac olduğunu şərtləndirirdi. Cəmiyyətin bütün təbəqələri əmin idi ki, yenicə müstəqillik qazanmış ölkəni düşmüş olduğu ağır və dözülməz vəziyyətdən çıxarmağa qadir yeganə şəxsiyyət məhz Heydər Əliyevdir. Əslində, bu, bütün xalqın ürəyinin

səsi idi. Xalqımız Heydər Əliyevin ətrafında sıx birləşməklə öz gələcək taleyini özü həll etmək niyyətində idi.

1993-cü ilin ortalarına doğru hakimiyyət böhranı getdikcə daha kəskin xarakter alırdı. Bu dövrdə hakimiyyətdə olan qüvvələr öz səriştəsiz əməlləri ilə Azərbaycanın müstəqilliyi üçün təhlükə yaratdılar. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev müstəqilliyimizin bu mərhələsini belə xarakterizə edirdi: "Azərbaycan böyük təhlükə qarşısında idi. Çünki, Azərbaycanın müstəqil yaşamasının əleyhinə olan həm daxildəki qüvvələr güclü idi, həm də Azərbaycan kimi böyük coğrafi-strateji əhəmiyyətə, zəngin təbii sərvətlərə malik olan ölkənin tam müstəqil olması başqa ölkələrdə bəzi dairələri qane etmirdi. Ermənistanın Azərbaycana etdiyi təcavüz və bunun nəticəsində Azərbaycanın zəifləməsi, məğlubiyyətə uğraması, ikinci tərəfdən də daxildə hakimiyyət çəkişməsi 1992-ci ilin iyun ayında hakimiyyətə gəlmiş qüvvələri bir ildən sonra hakimiyyətdən saldı, xalq özü saldı".

Məhz 1993-ci ilin yanvar-fevral aylarında Surət Hüseynovun komandirlik etdiyi 2-ci ordu korpusu Ağdərə istiqamətində uğursuz əməliyyatlar həyata keçirir və nəticədə bir çox ərazilər, texnika ermənilərin əlinə keçir.

Belə bir anda S.Hüseynovun əmri ilə Ağdərədə müdafiədə dayanan qüvvələr mövqelərindən çıxarılaraq arxaya qaytarılır. Nəticədə Ağdərə-Kəlbəcər yolu ermənilər tərəfindən tutulur və Kəlbəcər yarımmühasirəyə alınır. Bu hadisədən sonra Baş Prokurorluq Surət Hüseynovun bir sıra komandirlərinə cinayət işi açır və onların bəziləri həbs edilir.

## Surət Hüseynovun vəzifələri əlindən alınır

1993-cü ilin 22 fevralında Əbülfəz Elçibəyin əmri ilə Surət Hüseynov korpus komandirliyindən uzaqlaşdırılır. Bundan əvvəlsə o, prezidentin Qarabağ məsələləri üzrə nümayəndəliyindən və baş nazirin müavini vəzifəsindən çıxarılır.

Bir neçə gün sonra isə Prezident Əbülfəz Elçibəy Gəncədəki 709 saylı hərbi hissənin ləğvi haqqında sərəncam verir. Lakin bu sərəncamı

həmin hissəyə faktiki rəhbərlik edən Sürət Hüseynov icra etməkdən imtina edir. O, Qarabağda komandanlığın ona verilməsini və 709 saylı hərbi hissənin bərpa edilməsini tələb edir. Sürət Hüseynov əks təqdirdə ermənilərin Gəncəni tutacaqları barədə Bakını inandıra bilir. Nəticədə Elçibəy Gəncəni itirməmək və S.Hüseynovu neytrallaşdırmaq üçün bu barədə sərəncam imzalayır. Sürət Hüseynovun yaxın adamlarından biri, Gəncənin hərbi polisinin keçmiş rəisi Eldar Əliyev hissəyə komandir təyin olunur.

### Surət Huseynov mərkəzi hakimiyyətə qarşı baş qaldırır

Lakin, bir ay keçməmiş Sürət Hüseynov prezidentə yazılı ultimatum göndərərək onu tanımadığını bəyan edir. Prezident mayın axırlarında 709 saylı hərbi hissənin rəhbərliyinin dəyişdirilməsi və onun Ağcabədi rayonuna köçürülməsi haqqında yeni bir sərəncam imzalayır. S.Hüseynov prezidentin bu sərəncamına da məhəl qoymur və ora gələn hüquq mühafizə orqanlarının rəhbər şəxslərinin girov götürülməsi barədə əmr verir.

Hissənin komandiri E.Əliyev Gəncə qiyamı ilə bağlı istintaqa verdiyi ifadədə öz hərəkətini belə əsaslandırır: "Şəxsi heyətin əsas qismi Gəncədən olduğu üçün və Gəncənin müdafiəsini təmin etmək məqsədi ilə Murov və Gülüstan ərazisində vuruşmaq istədiklərini bildirərək əmrdən imtina etdilər".

Qeyd etmək lazımdır ki, hökumətə tabe olmaqdan imtina edən bir qrup zabit S.Hüseynovun başçılığı ilə hələ aprelin 3-də Gəncədə "Hərbi Birlik" adlı hərbi siyasi təşkilat yaratmışdı. Təşkilat və onun təsiri altında olan 709 saylı hərbi hissə Ali Baş Komandana, Müdafiə Nazirliyinə tabe olmur və əmrləri yerinə yetirmək istəmirdi.

### Qiyam günü

İtaətsizlik nəticəsində 1993-cü il iyunun 4-də bir neçə saat ərzində Gəncədə polis postlarını ləğv edən silahlı qruplaşma İcra Hakimiyyətinin binasını ələ keçirir və daha sonra tank, "Qrad" qurğusu, qumbaraatan, pulemyot və avtomatla silahlanmış 200 nəfərlik dəstə MTN-in Gəncə şöbəsinə hücum edir. Bina güllələbaran edilir və binadakıların silahları təhvil verməsi, burada olan Baş prokuror İxtiyar

Şirinov və Milli Təhlükəsizlik nazirinin birinci müavini Sülhəddin Əkbərovun onlarla hərbi hissəyə getməsi tələb olunur. Fəlakətin qarşısını almaq üçün dövlət məmurları qiyamçıların qanunsuz tələbilə razılaşırlar. MTN-in Operativ Tədbirlər Dəstəsinin hərbçilərinin Gəncəni tərk eləməsi də razılaşmaya daxil edilir. Həmin vaxt Sülhəddin Əkbərov hərbi hissəyə, İxtiyar Şirinov isə qiyamçıların nəzarətinə keçən polis idarəsinə aparılır.

Həmin gün Bakıya qayıtmaq istəyən prezident qvardiyasının komandiri və 18 əsgər avtobusdaca güllələbaran edilir. Qiyamçılar artıq saat 16-17 radələrində şəhərin bütün hakimiyyət və hüquq-mühafizə orqanlarını ələ keçirib, ora öz adamlarını rəhbər təyin edirlər.

**Əbülfəz Elçibəy Heydər Əliyevi Bakıya çağırır**

Prezident Əbülfəz Elçibəy qan tökülməsinin qarşısını almaq, problemi danışıqlar yolu ilə həll etmək üçün iyunun 5-də Gəncə ətrafında yerləşdirilən bütün hərbi birləşmələrin hərəkətinin dayandırılması barədə əmr verir. Hərbi qiyam və vətəndaş qarşıdurması ölkənin varlığına təhdid yaradır və Əbülfəz Elçibəy vəziyyətdən yeganə çıxış yolu kimi Heydər Əliyevi Bakıya dəvət etməkdə görür.

Milli Məclis iyunun 9-da qiyamçıların Gəncədə törətdikləri cinayətlərə görə məsuliyyətdən azad olunmaları barədə qərar qəbul edir. Gəncə hadisələrinin araşdırılması üçün deputat-istintaq komissiyası yaradılır.

Lakin, Surət Hüseynov və onun dəstəsi bu qərarla kifayətlənmir və ağır zirehli texnika, raket qurğuları və çoxsaylı şəxslərdən ibarət qiyamçılar Bakıya istiqamətləndirilir. 8 iyunda Gəncə hadisələri ilə bağlı ölkədə böhran dərinləşdi. Surət Hüseynovun tabeliyindəki silahlı birləşmələr Gəncəbasar bölgəsində yerli hakimiyyət strukturlarını devirərək Bakıya doğru hərəkət etməyə başladılar.

9 iyunda Naxçıvan Ali Məclisinin sədri Heydər Əliyev prezident Əbülfəz Elçibəyin dəvəti ilə Bakıya gəldi. Həmin gün Milli Məclis Gəncədəki qiyamda iştirak etmiş şəxslərə amnistiya verilməsi və Gəncə olaylarının araşdırılması üçün deputat-istintaq komissiyasının yaradılması haqqında qərarlar qəbul etdi.

13 iyunda Milli Məclisdə Gəncə hadisələri (4 iyun) ilə bağlı gərgin müzakirələr başlandı. Gəncədəki hərbi qiyamı yatırtmaq üçün həyata keçirilən uğursuz əməliyyata görə məsuliyyət daşıyan AXC iqtidarının ikinci şəxsi, parlamentin sədri İsa Qəmbər istefa verdi. Onun istefasını Surət Hüseynovun başçılıq etdiyi qiyamçılar dəstəsi tələb edirdi. Prezident Elçibəy və digər hakimiyyət mənsubları parlament sədri postunu Naxçıvan Ali Məclisinin sədri Heydər Əliyevə təklif etsələr də, o, mövcud vəziyyəti bilavasitə öyrənmək üçün Gəncəyə gedəcəyini və yalnız bundan sonra təklifə cavab verəcəyini bildirdi. Heydər Əliyev bir qrup jurnalistin müşayiəti ilə həmin gün Gəncəyə yola düşdü. 15 iyunda isə Heydər Əliyev parlamentin sədri seçilir.

1993-cü ildə xalqın xahiş və tələbi ilə ümummilli liderimiz Heydər Əliyevin hakimiyyətə yenidən qayıdışından sonra ölkədə baş vermiş sosial-iqtisadi və siyasi inkişaf dövlətimizin möhkəmləndirilməsində, sivil dünyaya sıx inteqrasiya prosesinə qoşulmasında və xalqımızın strateji mənafelərini təmin edən modern cəmiyyətin qurulmasında həlledici rol oynadı. 1993-cü ildə "olum, ya ölüm" ayrıcında qalmış Azərbaycan Heydər Əliyevin yorulmaz fəaliyyəti nəticəsində gələcəyə inamla baxan qüdrətli bir dövlətə çevrildi.

15 iyun müasir Azərbaycan dövlətinin tarixinə Milli Qurtuluş günü kimi daxil oldu. Qurtuluş günü Azərbaycan Milli Məclisinin qərarı ilə 1997-ci ilin 27 iyununda rəsmiləşdirildi. Milli Məclisin həmin tarixi qərarında deyilir: "Azərbaycan xalqının azadlığının, müstəqil dövlətçiliyinin müqəddəratının həll edildiyi ən ağır günlərdə Heydər Əliyevin öz xalqının iradəsinə tabe olaraq ölkə rəhbərliyinə qayıtması, əslində, onun müstəqil Azərbaycan Respublikasını, Azərbaycan xalqını, milli-azadlıq hərəkatında qazanılmış tarixi nailiyyətləri məhv olmaqdan xilas etmək kimi çox çətin və şərəfli bir missiyanı könüllü olaraq öz üzərinə götürməsi idi. Bu, sözün əsl mənasında, "ömrümün qalan hissəsini də xalqıma qurban verirəm" deyib meydana atılan böyük ürəkli Vətən oğlunun öz xalqı, öz Vətəni qarşısında misilsiz fədakarlığı idi".

Həmin vaxtdan bu günə qədər Azərbaycan xalqı 15 iyun gününü əziz bayram kimi qeyd edir və Azərbaycan dövlətinin qurtuluşunun başlanğıcı kimi dəyər-ləndirir. Ötən illərdə ümummilli liderimizin həyata keçirdiyi şərəfli xilaskarlıq missiyası xalqımızın və bütün dünyanın gözü qarşısında cərəyan etmiş, Azərbaycan məhv olmaq təhlükəsindən qurtularaq gələcəyə inamla baxan güclü bir dövlətə çevrilmişdir. Bu illərdə Heydər Əliyevin gərgin zəhmət, əzm və siyasi iradə sayəsində reallaşdırdığı nəhəng işlər öz miqyasına görə insanı heyrətə gətirir.

Azərbaycançılıq, müstəqillik və dövlətçilik amalları naminə milli həmrəylik yaradılması istiqamətində ardıcıl addımlar atılmışdır. Dünyanın müxtəlif qitələrinə səpələnmiş soydaşlarımızın tarixi Vətənlə əlaqələrini gücləndirmək, onların dil, əqidə və əməl birliyini möhkəmləndirmək məqsədilə Bakıda Dünya azərbaycanlılarının qurultayları keçirilmişdir.

Bu gün Azərbaycanda müstəqil dövlətçilik ənənələri formalaşdırılmışdır və şübhəsiz ki, bu mühüm nailiyyətin əldə edilməsində ümummilli lider Heydər Əliyevin fədakar xidmətlərinin müstəsna əhəmiyyəti vardır. Onun siyasi xadim kimi yürütdüyü siyasətin başlıca qayəsi Azərbaycanı hər bir vətəndaşının təhlükəsizliyini qoruya biləcək qədər qüdrətli dövlətə çevirmək olmuşdur. Bu gün Azərbaycan Prezidenti cənab İlham Əliyev ümummilli liderimizin siyasi xəttinə sadiq qalaraq müstəqil ölkəmizi inamla gələcəyə doğru aparır. Artıq neçə ildir ki, Azərbaycan Respublikasının milli qurtuluş yolu davam edir. Bu yol Heydər Əliyevin müəyyənləşdirdiyi yoldur. Bu yolla gedən Azərbaycan durmadan yüksəlir, inkişaf edir, uğurlar qazanır. Heydər Əliyevin özü vaxtilə müdrikcəsinə demişdir: "Heç bir qüvvə Azərbaycanın müstəqilliyini əlindən ala bilməz. Bundan sonra heç bir qüvvə Azərbaycan dövlətçiliyini məhv edə bilməz". Bu inam, bu qətiyyət Milli Qurtuluş gününün mənası və verdiyi ibrət dərsləridir. Bu onu göstərir ki, nə qədər Azərbaycan var, Heydər Əliyev də olacaq, onun ideya və əməlləri yaşayacaq, bizi daim doğru yolla, irəliyə aparacaqdır.

"...Heydər Əliyev qalib idi. O, bütün döyüşlərdən qalib kimi çıxıb, heç kim ona qalib gələ bilməmişdir. Əslində, o, yeni güclə, yeni enerji ilə siyasi mübarizəyə qoşuldu, yenidən qələbə qazandı və tarixdə qalib kimi qaldı. Heç kim və heç nə ona qalib gələ bilmədi. Nə xarici düşmənlər, nə də Azərbaycanda özünü ona rəqib qismində təqdim etməyə çalışanlar, bəzi uğursuz siyasətçilər. Ona zaman da qalib gələ bilmədi.

Bu gün Heydər Əliyev bizimlə deyil, ancaq o, ürəyimizdə yaşayır, qəlbimizdə yaşayır, onun əməlləri, ideyaları yaşayır, onun siyasəti yaşayır və əbədi yaşayacaqdır"! Azərbaycan Prezidenti cənab İlham Əliyevin söylədiyi bu fikirlər zaman keçdikcə öz əhəmiyyətini saxlayacaqdır...

Heydər Əliyevin yenilməz iradəsi, uzaqgörənliyi, fədakarlığı onu bütün dünya azərbaycanlılarının lideri etmiş, ömür yolu doğma vətənə xidmət nümunəsinə çevrilmişdir. Bütün şüurlu həyatını canından artıq sevdiyi xalqına, ölkəsinə həsr etmiş bu müdrik siyasi və dövlət xadimi tariximizdə müstəqilliyimizin memarı və qurucusu kimi yer tutmuşdur. Heydər Əliyev fenomeninə məxsus iti zəka, müdriklik, uzaqgörənlik və əzmkarlıq ona əvəzsiz ümummilli lider mövqeyi qazandırmışdır. Çoxşaxəli və zəngin fəaliyyəti, misilsiz insani keyfiyyətləri sayəsində o, zəmanəmizin əbədiyaşar dahisinə çevrilmişdir. Azərbaycan xalqı haqlı olaraq Heydər Əliyev irsini müstəqilliyinin təminatçısı kimi qəbul edir.

**ETİBAR MUSAYEV**

***Gəncə Dövlət Universitetinin Ümumi tarix kafedrasının müəllimi, tarix üzrə fəlsəfə doktoru, dosent***



Azərbaycanda gənclər hərəkatına münasibət birmənalı olmayıb. Bu hərəkata qiymət müxtəlif vaxtlarda müəyyən qruplar tərəfindən birqütblü qiymətləndirilib.

Çar Rusiyasının vaxtında gənclərdən yalnız öz maraqları naminə istifadə olunub. Belə münasibət elə sovet totalitar rejimi dövründə də olub. Lakin gənclər hərəkatına münasibət Respublikamız müstəqillik əldə etdikdən sonra tamamilə kökündən dəyişdi. Belə ki, gənclər təşkilatının hər birinin öz dövrü üçün hansı dərəcədə əhəmiyyətli olduğunu həmin dövrün siyasi hakimiyyəti müəyyən edirdi.

Bu gün dünyada gedən ictimai - siyasi proseslər Azərbaycanda da gənclər hərəkatının ümumi strategiyası və ideologiyasının formalaşmasına çox böyük təsir göstərir.

XX əsrin əvvəllərində olduğu kimi, həmin əsrin sonlarında da gənclər müxtəlif təşkilatlarda təmsil olunurdular. Onlarda milli şüurun təşəkkül tapması və inkişaf etməsində həmin dərnəklərin rolu böyük

oldu. Gənclər müxtəlif dövrlərdə mövcud dövrün problemləri ilə maraqlanır, həmin problemlərin aradan qaldırılması yollarını birgə müzakirə edirdilər. Bu da xalqın maariflənməsində və mətbuatın inkişafında müstəsna rola malik olub, tərəqqisinə təkan verdi. Bütün bunlar Azərbaycanın gənc ziyalılarında azadlıq uğrunda mübarizəni sistemləşdirdi.

XX əsrin sonlarında Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra hüquqi-demokratik, vətəndaş cəmiyyəti qurmaq uğrunda böyük uğurlar əldə etdi. Bu uğurlar tarixi nöqteyi nəzərdən qısa vaxt ərzində qeyri - adi dövlət idarəçilik bacarığına, zəngin həyat təcrübəsinə malik, xalqımızın və dövlətimizin müstəqilliyini itirmək təhlükəsindən xilas edən, fenomenal şəxsiyyət, ümummilli lider Heydər Əliyevin adı və fəaliyyəti ilə bilavasitə bağlıdır.

1993 - cü ildə xalqın iradəsi və tələbi ilə yenidən hakimiyyətə qayıdan ümummilli lider Heydər Əliyevin fəaliyyətinin əsas istiqamətlərindən biri dövlət quruculuğu ilə yanaşı gənc nəslə diqqət və qayğının artırılması idi. Yeniyetmə və gənclərlə bağlı dövlət siyasətinin əsas prinsiplərini müəyyən edən ümummilli lider Heydər Əliyev onların ölkənin sosial-iqtisadi, ictimai-siyasi həyatında fəal iştirakının təmin olunması üçün münbit şərait yaratdı. Gənclərin layiqli vətəndaş kimi yetişməsi üçün şəraitin yardılması, onların sosial-psixoloji vəziyyətlərinin, fəaliyyətlərinin yaxşılaşdırılması dahi şəxsiyyətin uzaqgörən və müdrik siyasətinin təzahürü idi.

Keçən əsrin 80-ci illərində erməni millətçilərinin quldur dəstələrinin Azərbaycana qarşı başladıqları hərbi təcavüzün qarşısını almaq üçün özünümüdafiə dəstələrinin yaradılmasında gənclərin böyük xidmətləri olmuşdur. Həmçinin 2020-ci il sentyabrın 27-də başlayan 44 günlük II Qarabağ müharibəsində də gənclərin müstəsna xidmətləri olmuşdur. Onların vətənə və dövlətə necə sədaqət nümayiş etdirdiklərinin canlı şahidləriyik.

Müstəqillik dövründə Azərbaycan gəncliyində formalaşan yeni prinsip və mənəvi dəyərlər, həyata yeni baxışlar sistemi ilə yanaşı, məqsəd və vəzifələrinə, fəaliyyət istiqamətlərinə, sosial tərkibinə görə

bir-birindən fərqli, yeni, müstəqil təşkilatlar yaranmağa başladı. Gənclərin ilk təşkilatları əsasən kortəbii surətdə, respublikanın ərazi bütövlüyü və suverenliyi uğrunda xalq hərəkatının təsiri altında təşəkkül tapırdı. Lakin 1991-1993-cü illərdə respublikada hökm sürən hərc-mərclik şəraitində təşəkkül tapmış gənclər təşkilatlarının çoxunda siyasiləşmə, populizm meyilləri özünü büruzə verdi. Bu təşkilatların bir çoxu o dövrdə fəaliyyət göstərən müxtəlif yönlü siyasi partiya və qurumların təsiri altına düşdü. Azərbaycanın müstəqilliyi, suverenliyi və ərazi bütövlüyünün qorunması, ölkədə hüquqi, demokratik dövlət quruculuğu prosesinin həyata keçirilməsi vəzifələri gənclərin ayrı-ayrı partiya və qurumların deyil, ümummilli dövlət mənafeləri əsasında səfərbər olunması, vahid gənclər siyasətinin hazırlanıb həyata keçirilməsi zərurətini ortaya atdı.

Gənclərlə iş sahəsində yaranmış boşluğun aradan qaldırılmasına yalnız ümummilli lider Heydər Əliyevin 1993-cü ilin iyununda müstəqil Azərbaycan Respublikasında siyasi hakimiyyətə qayıdışından sonra başlandı. Məhz bundan sonra gənc nəslə diqqət və qayğı dövlətin fəaliyyətində mühüm yer tutdu. Beləliklə, ümummilli lider Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışından sonra respublikada dövlət gənclər siyasəti təşəkkül tapmağa başladı.

Ümummilli lider Heydər Əliyev Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini icra edərkən, Respublika Ali Sovetinin sədri olan zaman, 1993-cü ilin sentyabrın 22 - də gənclərin bir qrupu ilə görüşmüş, gəncləri ölkənin ictimai-siyasi həyatında daha da fəal iştirak etməyə, ölkənin taleyinə biganə qalmamağa çağırmışdı.

Ümummilli lider Heydər Əliyev gənclərlə iş sahəsində dövlət siyasətini həyata keçirmək məqsədilə 1994-cü ilin iyulun 26-da yeni dövlət qurumunun - Gənclər və İdman Nazirliyinin yaradılması haqqında fərman imzaladı. Bunun ardınca gənclərin sosial-iqtisadi problemlərinin həlli, mənəvi ehtiyaclarının ödənilməsi və hərtərəfli inkişafı üçün lazımi şəraitin yaradılması ilə əlaqədar fərman verdi. Gənclərlə bağlı dövlət siyasətinin bir komponenti olan həmin fərmana əsasən 1996-cı il fevralın 2-də keçirilmiş Gənclərin I Forumunun

xüsusi əhəmiyyəti oldu. Fərmana əsasən Forumda gənclərin bütün kateqoriyalarını: tələbələri, hərbçiləri, jurnalistləri, siyasi partiya və gənclər təşkilatlarını 2 min nəfərdən çox nümayəndə təmsil edirdi. Ümummilli lider Heydər Əliyev başda olmaqla bütün dövlət orqanlarının rəhbərləri Forumun işində iştirak edərək, gənclərin irad və təkliflərini dinlədilər. Növbəti forum 1999-cu ilin martın 2-3-də keçirildi.

Ümummilli liderimiz Heydər Əliyevin hakimiyyətdə olduğu dövrdə dövlət gənclər siyasətinin tənzimlənməsi ilə bağlı normativ-hüquqi baza yaradıldı. Belə ki, ümummilli liderimiz Heydər Əliyev 1993-2003-cü illərdə gənclərlə bağlı fərmanlar vermişdi. 1999-cu il iyulun 29-da "Dövlət gənclər siyasəti"nə aid geniş tədbirlər planı ilə əlaqədar xüsusi Fərman imzaladı.

Uşaq və gənclərin hərətərəfli inkişafını təmin etmək, onların problemlərinin həlli və hüquqlarının müdafiəsi sahəsində daha təsirli tədbirlər görmək məqsədilə qəbul edilmiş "Dövlət Gənclər Siyasəti haqqında" Azərbaycan Respublikası Qanunu ümummilli lider Heydər Əliyevin 6 may 2002-cı il tarixli fərmanı ilə qüvvəyə minmişdir. Bu qanun Respublikamızda gənclər siyasətinin məqsədlərini, prinsiplərini, istiqamətlərini, təşkilati-hüquqi əsaslarını müəyyən edir və bu sahədə yaranan münasibətləri tənzimləyir. Qanunda "gənclər" anlayışı 16-35 yaşlarında olan bütün vətəndaşlara şamil edilmişdir.

Ümummilli lider Heydər Əliyevin gənclərlə bağlı həyata keçirdiyi strategiya bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Möhtərəm prezidentimiz İlham Əliyevin "Azərbaycan Gəncliyi Dövlət Proqramı (2005-2009-cu illər)" üzrə həyata keçirilən tədbirlər haqqında 30 avqust 2005-ci il tarixdə imzaladığı sərəncam bir daha Azərbaycan gəncliyinə göstərilən diqqət və qayğının bariz nümunəsidir.

Həyata keçirilən tədbirlər, qəbul olunmuş qərarlar, verilmiş fərmanlar respublikamızda gənclərlə iş siyasətini tənzimləmək və onların dövlət - quruculuq işlərində yaxından iştirak etməsini təmin edir. Ümummilli liderimiz Heydər Əliyevin qeyd etdiyi kimi "gənclərimizin əsas

vəzifəsi özünü müstəqil Azərbaycan Respublikasının inkişafına sərf etməkdən, müstəqil Azərbaycan Respublikasının yaşamasına və əbədi olmasına həsr etməkdən ibarət olmalıdır".

Müasir mərhələdə Azərbaycan dövlətinin gənclər siyasəti ümummilli liderimiz Heydər Əliyevin gənclərlə bağlı qəbul etdiyi sərəncam və fərmanlar, etdiyi çoxsaylı çıxışlar və məruzələr, eləcə də Konstitusiyanın müvafiq müddəaları, Dövlət Gənclər Siyasəti haqqında Azərbaycan Respublikası Qanunu, digər qanunvericilik aktları və qərarları, Azərbaycan Respublikası Prezidentinin imzaladığı gənclərlə bağlı Dövlət Proqramları ilə tənzimləndyini və həyata keçirildiyini görmək mümkündür.

1997-2000-ci illərdə gənclər siyasətinin normativ-hüquqi bazasının təkmilləşdirilməsi ilə bağlı mühüm işlər görüldü. Bu müddətdə uşaq və gənclərin fiziki, mənəvi-əxlaqi, vətənpərvərlik tərbiyəsi işi, onların sosial-iqtisadi problemlərinin həllini sürətləndirmək üçün bir sıra qanunvericilik aktları və dövlət proqramları qəbul olunmuşdur: "Uşaq hüquqları haqqında" Azərbaycan Respublikasının qanunu (19 may 1998-ci il), "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının qanunu (22 iyun 1999-cu il), "Dövlət Gənclər Siyasəti haqqında" Azərbaycan Respublikası Prezidentinin fərmanı (29 iyul 1999-cu il), "Gənc ailə proqramı" (16 fevral 1999-cu il), "Gənclərdə vətənpərvərlik və vətəndaşlıq hisslərinin yüksəldilməsi" Proqramı (17 fevral 1999-cu il), Azərbaycan Respublikası Prezidentinin 29 iyul 1999-cu il tarixli 169 nömrəli Fərmanı ilə "Azərbaycan Respublikasında dövlət gənclər siyasətinin həyata keçirilməsi ilə bağlı tədbirlər planı" təsdiq edildi. Planda nəzərdə tutulmuş tədbirlərin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi tərəfindən təqdim olunmuş Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq sərəncamları ilə "Uşaqların təlim-tərbiyəsinin yaxşılaşdırılması və hüquqlarının qorunması haqqında" Dövlət Proqramı (22 iyun 2000-ci il), "İstedadlı yeniyetmələrin və yaradıcı gənclərin sosial-iqtisadi və s. problemlərin həllinə yönəlmiş,

onların öz qabiliyyətlərini inkişaf etdirmələrinə kömək edən" Dövlət Proqramı (4 avqust 2000-ci il), "Ordudan tərxis olunmuş gənclərin məşğulluq" Proqramı (23 avqust 2000-ci il) kimi bir sıra yeni proqramlar təsdiq edildi. Bu proqramların bir çoxunun icra müddəti başa çatmış, yeni proqramlar hazırlanaraq həyata keçirilməkdədir.

Gənclər siyasətinin əsas istiqamətlərindən biri heç şübhəsiz bədən tərbiyəsi və idmanın inkişaf etdirilməsidir. 1995-ci il martın 5-də dövlət başçısı Heydər Əliyev yığma komandaların XXVI Yay Olimpiya oyunlarına hazırlığını nümayiş etdirmək məqsədilə keçirilən idman baxışında iştirak etdi və respublikada bədən tərbiyəsi və idmanın bütün qayğılarını öz üzərinə götürdüyünü bəyan etdi. Həmin ilin dekabrında beynəlxalq yarışlarda uğurlar qazanmış idmançıları və məşqçiləri qəbul edərək onlara mükafatlar təqdim etməsi bunun aydın təzahürü oldu. 1996-cı il iyunun 29-da "Gənclik" Beynəlxalq Turizm Mərkəzində Heydər Əliyev şəxsən idmançılarımızı XXVI Yay Olimpiya oyunlarına yola salmışdı.

1994-cü ildə Milli Olimpiya Komitəsi yarandı. 1998-ci ildə ARDNŞ - nın I vitse-prezidenti İlham Əliyevin MOK-un prezidenti seçilməsi ölkəmizdə idmanın inkişafına güclü təkan verdi. Həmin ildən başlayaraq İlham Əliyevin başçılığı altında Azərbaycan MOK-nun Avropa Olimpiya Komitəsinin məclisində iştirakı, orada Beynəlxalq və Avropa Olimpiya Komitəlrinin rəhbərləri ilə görüşləri Azərbaycan idmanının beynəlxalq əlaqələrinin inkişafında mühüm mərhələ oldu. 1998-ci ildə Azərbaycan idmançılarının 2000-ci ildə keçiriləcək XXVII Olimpiya oyunlarına hazırlaşması üçün xüsusi dövlət Proqramı qəbul edildi.

Ümummilli lider Heydər Əliyevin üzaqgörən siyasəti nəticəsində gənclərə qayğı və diqqət davamlı olaraq artır və inkişaf edir. Hələ vaxtilə İlham Əliyevin MOK sədri seçilməsindən sonra Respublikamızda idman sürətlə inkişaf mərhələsinə qədəm qoydu. Beləki, silsilə proqramlar nəticəsində ölkə idmanının inkişafı ilə əlaqədar yeni - yeni idman kompleksləri tikilməyə başlanıldı. İdmançılarımızın uğurlu nəticələri dövlətimizin bu sahəyə diqqətini

daha da artırdı. Olimpiya komplekslərinin tikintisi getdikcə genişləndirildi. Müasir standartlara cavab verən həmin komplekslər gənclərin ixtiyarına verildi. Sağlam gənclərin yetişdirilməsi dövlətimizin əsas qayəsi olduğundan gənc idmançılarımıza dövlət qayğısı getdikcə artır.

Ümummilli lider Heydər Əliyev həmişə zəngin milli - mənəvi keyfiyyətlərə malik olmaq üçün insanların birliyinin, həmrəyliyinin, millətin və xalqın birliyinin vacib olduğunu tövsiyyə etmişdir. Ümummilli lider Heydər Əliyevin bu barədə tövsiyyələrində aşağıdakı məqam xüsusi yer tutur: “Əsl vətənpərvər odur ki, xalqın mənafeyini ifadə etsin və bu mənafe uğrunda, bütün əmək adamlarının beynəlmiləl birliyi uğrunda fəal mübariz olsun. Öz ölkəsini əsl mənada yalnız o kəslər sevirlər ki, ölkə ilə bir nəfəs alır və bir qayğı ilə yaşayırlar, öz duyğularında, əqidə və işlərində möhkəm və ardıcıldırlar”.

Ümummilli lider Heydər Əliyev gənclərə çətin məqamlardan necə çıxmağın, çətinliklərə necə qalib gəlməyin yollarını göstərdi. Ümummilli lider gənclərə qayğı və diqqətin təzahürü olaraq belə deyirdi: ... “Əziz balalar, gənclər, hamımız çalışacağıq, güman edirəm, mənimlə bərabər bütün hakimiyyət orqanlarının nümayəndələri də çalışacaqlar ki, sizin problemlərin həll olunmasını ardıcıl surətdə təmin edək, çalışacağıq və əlimizdən gələni edəcəyik. O şeyi ki, bu gün edə bilməyəcəyik, onu bir neçə vaxtdan sonra edəcəyik, amma əmin olun ki, gənclərə qayğı, diqqət bundan sonra günbəgün, aybaay, ilbəil artacaq. Çünki, siz həqiqətən Azərbaycanın gələcəyisiniz. Hər bir Azərbaycan vətəndaşı, hər bir Azərbaycan vətənpərvəri Azərbaycanın gələcəyi haqqında düşünməlidir. Buna əmin ola bilərsiniz”.

Heydər Əliyevin gənclərə tövsiyəsi odur ki, onlar dövlətin idarə edilməsi işində ləyaqətlə təmsil olunsunlar, vətənə, xalqa, doğma yurda əsl azərbaycanlı vicdanı ilə xidmət göstərsinlər. Heydər Əliyev gənclərin vətənə ləyaqətlə xidmət göstərməsini tövsiyə etməklə bu gün, sabah və tarixin bundan sonrakı mərhələlərində onların vəzifələrini də müəyyən edir. Gənclərin həyatdakı vəzifələrinin yerinə yetirilməsi ilə bağlı onların qarşısında duran Heydər Əliyev yolunu dahi rəhbər belə

müəyyənləşdirir: “Ancaq sizin qarşınızda çox böyük vəzifələr durur, qarşınızda böyük bir yol var. Yol hamar deyil, asfalt deyil, yol uzun yoldur, o yolu hər biriniz keçməlisiniz. Bu yol müstəqil Azərbaycanın gələcəyi yoludur. Hər bir Azərbaycan gənci öz həyat yolunu müstəqil Azərbaycan Respublikasının gələcək yolu kimi qəbul etməlidir və öz həyatını qurarkən, özünü həyatda fəaliyyətə hazırlayarkən və fəaliyyətə başlayıb onu davam etdirərkən, özü haqqında düşünməlidir, ailəsi haqqında da düşünməlidir, ancaq hər şeydən çox, hər şeydən artıq müstəqil Azərbaycanın bu günü, gələcəyi haqqında düşünməlidir. Bu, sizin vəzifənizdir və güman edirəm ki, hər bir Azərbaycan gənci cəmiyyətdə, Vətəndə, ölkədə öz vəzifələrini layəqətlə yerinə yetirməyə çalışmalıdır”.

Heydər Əliyev dövlət müstəqilliyinin qorunmasının bütün gələcəyimiz üçün ən vacib vəzifə olduğunu göstərır və bu vəzifənin yerinə yetirilməsində gənclərin mövqeyini qətiləşdirir. Gənclərin mövqeyi bu məsələdə ondan ibarətdir ki, “Müstəqilliyi qoruyub saxlamaq üçün ölkəmizdə, respublikamızda vətəndaş həmrəyliyi, vətəndaş birliyi yaratmaq lazımdır, ictimai-siyasi sabitlik yaratmaq lazımdır, qanunların aliliyini yaratmaq lazımdır, sabitliyi təmin etmək lazımdır. Biz bunu edirik və edəcəyik”.

Heydər Əliyevin gənclərə tövsiyyəsində ən əsas cəhətlərdən biri onların vətənpərvər olmasından, vətənpərvərlik ruhunda təlim, tərbiyə və təhsil almasından ibarətdir. Heydər Əliyev tövsiyyə edir ki, “Gənclərimiz milli ruhda tərbiyə olunmalıdır, bizim milli-mənəvi dəyərlərimizin əsasında tərbiyələnməlidir. Gənclərimiz bizim tariximizi yaxşı bilməlidir, keçmişimizi yaxşı bilməlidir, dilimizi yaxşı bilməlidir, milli dəyərlərimizi bilməlidir. Milli dəyərlərimizi, dilimizi yaxşı bilməyən gənc vətənpərvər ola bilməz. Hər bir gənc vətənpərvər olmalıdır”.

Yeniyetmə və gənclərin təhsillə bağlı problemlərinin həlli, istedadlı gənclərin aşkar edilməsi və onlara öz qabiliyyətlərini inkişaf etdirmələri üçün şərait yaradılması istiqamətində də əlaqədar dövlət orqanları ilə birgə ardıcıl işlər görülür. Xüsusi istedada malik şagird və

tələbələrin ölkədən kənarda təhsil almaları və ya təhsillərini davam etdirmələri üçün onlara kömək göstərilir.

Gənclərə böyük diqqət və qayğının təzahürü kimi, Respublika Prezidentinin 1997-ci il 1 fevral sərəncamı ilə fevralın 2-nin Azərbaycan Gəncləri Günü elan edilməsi bu atalıq qayğısının parlaq sübutudur. Heydər Əliyevin gənclərə atalıq qayğısı bir daha onda özünü göstərir ki, 2 fevral 1996-cı il forumundan sonra gənclərin həyatı, təhsili, sosial və məişət qayğıları, həmçinin, vətənpərvərlik problemlərinin həlli istiqamətinə yönəlmiş 2 fevral 1999-cu il və 2 fevral 2002-ci il tarixli forumları keçirilmişdir.

Gənclərin yaxşı təhsil alması, yaxşı yaşaması, həyata daim nikbin nəzərlərlə baxması onların müstəqil Azərbaycanın layiqli davamçısı kimi fəaliyyət göstərməsinə təminat verən reallıqdır. Heydər Əliyev gəncləri əmin edir ki, "Azərbaycan dövləti, Azərbaycanın prezidenti gənclərimizin bütün hüquqlarının qorunmasının təminatçısı olub və bundan sonra da təminatçısı olacaqdır. Əmin ola bilərsiniz ki, Azərbaycan gənclərinin yaxşı yaşaması, təhsil alması üçün, əmək fəaliyyəti göstərməsi üçün bundan sonra da əlimizdən gələni edəcəyik". Heydər Əliyevin gənclərə hər bir müraciətində onların həyati amalları göstərilir. Heydər Əliyev gənclərə müraciəti ilə onları vətənin mənafeyi üçün çalışmağa sövq edir.

İctimai şüurun milli şüura çevrilməsində iqtisadi dirçəliş, milli mənəvi dəyərlərin qorunması və mənəvi tərbiyə amili vəhdət təşkil edir. Milli şüurun formalaşdırılması isə əslində müstəqil dövlət quruculuğu yolunda əldə edilən ən mühüm nailiyyətlər kimi qiymətləndirilməlidir. İqtisadi dirçəliş məntiqi cəhətdən milli-mənəvi dəyərlərin qorunmasının, bunların hər ikisi isə ardıcıl olaraq mənəvi tərbiyə amilinin bazasını təşkil edir.

Heydər Əliyev hələ sovet ideologiyasının güclü təbliğ olunduğu bir dövrdə belə bir cəsarətli addım atmışdı. Heydər Əliyevin o zaman apardığı siyasət onun fəaliyyətinin sovet dövlətinə xidmətinin zahiri görünüşü idi. Bu siyasətin altındakı diplomatik fəaliyyət isə Azərbaycanın gələcək müstəqilliyinə xidmət edirdi. Müstəqil

Azərbaycan dövlətçiliyinin nəzəri bazası Heydər Əliyevin sovet dovründəki fəaliyyəti zamanı tamamilə mükəmməl bir şəkildə hazırlanmışdır. Onun həyata keçirilməsi üçün əlverişli bir tarixi məqam lazım idi. Bu tarixi mərhələnin yaranması isə gec-tez labüd idi. Tarix bu məqamı yetişdirdi. Heydər Əliyevin hazırladığı nəzəri proqram ictimai həyatda özünün əli ilə real təsdiqini tapdı. Heydər Əliyev özünün dərin zəkası, uzaqgörən siyasəti, diplomatik uğurları ilə zamanın ixtiyarını öz əlinə aldı və onu Azərbaycan cəmiyyətinin ixtiyarına yönəltməyə müvəffəq oldu.

## MEHMAN RZAYEV

***Gəncə Tibb Kollecinin direktoru, Azərbaycan Respublikasının Əməkdar həkimi***




Ulu Öndər Heydər Əliyevin siyasi irsi Azərbaycanın ən dəyərli milli sərvətidir.

Bu il xalqımızın xilaskar oğlu, müasir Azərbaycan dövlətinin qurucusu və banisi, xalqın əbədi sevgisini qazanmış Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100-cü ildönümü təntənə ilə qeyd ediləcəkdir. Ölkəmizin milli dövlətçilik ənənələrinin qurulmasında və inkişafında misilsiz xidmətləri olan dahi rəhbər Heydər Əliyevin həyatı və siyasi fəaliyyəti Azərbaycanın ən yeni tarixində müstəsna yer tutur.

Ulu Öndər Heydər Əliyev Azərbaycanın iki fərqli və hətta tam ziddiyyətli siyasi formasiyaya malik olduğu ayrı-ayrı dövrlərdə respublikaya rəhbərlik etmişdir. Ümummilli lider 1969-1982-ci illərdə Azərbaycan SSR-a və 1993-2003-cü illərdə artıq müstəqil Azərbaycana rəhbərlik etmişdir. Birmənalı olaraq qeyd olunmalıdır ki, məhz Heydər Əliyevin fədakar əməyinin, səmərəli işgüzarlığının, uzaqgörən rəhbərlik və təşkilatçılıq istedadının sayəsində Azərbaycan hələ sovet

dönəmində sürətlə və hərtərəfli inkişaf edərək keçmiş İttifaqın öncül respublikalarından birinə çevrilmişdir. 1969-1982-ci illərdə ölkə iqtisadiyyatının bütün sahələrində istehsalın sürətlə artması nəticəsində iqtisadi və sosial inkişafın ümumiləşdirici göstəricisi olan milli gəlir iki dəfədən çox artmışdı. Azərbaycanda bütün sahələrin - sənayenin, elmin, təhsilin, səhiyyənin sıçrayışlı inkişafı, elm tutumlu istehsal sahələrinin yaradılması məhz Heydər Əliyevin səyləri və məqsədyönlü fəaliyyəti ilə təmin olunmuş, respublikanın intellektual, elmi-texniki və iqtisadi potensialı ciddi dərəcədə yüksəlmişdi. Heydər Əliyev respublikaya rəhbərlik etdiyi dövrdə azərbaycanlı milli kadrların hazırlanması işinə də xüsusi diqqət yetirirdi. Məhz onun təşəbbüsünün nəticəsi idi ki, azərbaycanlı gənclər keçmiş İttifaqın ən nüfuzlu ali məktəblərində təhsil almağa göndərilirdi. 1969-1982-ci illərdə 10 mindən çox azərbaycanlı gənc Rusiya, Ukrayna və digər respublikaların nüfuzlu ali məktəblərində təhsil alaraq respublikaya qayıtmış, Azərbaycanın inkişafına dəyərli töhfələr vermişlər.

1991-ci ildə Azərbaycan müstəqilliyini elan etsə də, o dövrdə hakimiyyət sükanı arxasında dayanan bəzi siyasətbazların səriştəsizliyi ucbatından bu müstəqilliyi həqiqi mənada möhkəmləndirmək, dövlətin dayaqlarını gücləndirmək mümkün olmamışdı. Həmçinin, Ermənistanın işğalçılıq siyasəti, ölkə daxilindəki çəkişmələr cəmi bir il əvvəl qazanılmış müstəqilliyi, hətta dövlətimizin varlığını ciddi təhlükə altında qoymuşdu. Belə bir həlledici məqamda cəmiyyətin sağlam qüvvələrinin diqqəti Naxçıvana yönəlmişdi. Azərbaycanın ən mütərəqqi və vətənpərvər insanları Heydər Əliyevin xalq üçün nə qədər lazımlı olduğunu gözəl bilirdilər. Artıq 1993-cü ilin iyununda baş verən hadisələr ölkəni dünya xəritəsindən silməyə hesablanmışdı. Bir tərəfdən erməni işğalçıları xarici qüvvələrin dəstəyi ilə tarixi yurd yerlərimizi işğal edir, digər tərəfdən ölkə daxilində hakimiyyət uğrunda çəkişmələr vətəndaş müharibəsinə çevrilirdi. Xalqın ən çətin günündə Ulu Öndər Heydər Əliyev Bakıya gəldi. Bu, xalqın təkidli tələbi idi. Ulu Öndərin Bakıya qayıdışı Azərbaycanı xilas etdi. Millətin sönməkdə olan müstəqillik arzuları yenidən canlandı, xalqımızda bu günə inam,

sabaha ümid yarandı. 1993-cü ilin iyun ayında Ali Sovetin sədri seçilən Heydər Əliyev xalq qarşısında çıxış edərək, mövcud dövlət böhranının aradan qaldırılmasının yollarını, müstəqil Azərbaycan dövlətinin daxili və xarici siyasətinin əsas istiqamətlərini müəyyənləşdirdi. Ulu Öndər çox böyük real təhlükələri qarşısına alaraq, xalqın və dövlətçiliyimizin qurtuluşu missiyasını cəsarətlə öz üzərinə götürdü. Bununla da ölkədə illərdən bəri davam edən gərginlik və qarşıdurma səngidi, respublikamız vətəndaş müharibəsindən və parçalanma təhlükəsindən xilas oldu. Uzun sürən daxili çəkişmələrdən sonra, ölkədə ilk dövrlərdə kövrək olsa da, ictimai-siyasi sabitlik yarandı. Heydər Əliyev uzaqgörənliyinin və müdrikliyinin növbəti göstəricisi Dağlıq Qarabağ müharibəsində atəşkəs istiqamətində danışıqlara başlaması oldu. Həmin dövrdə Azərbaycan ordusunun əks hücumlarından qorxuya düşən erməni tərəfi də danışıqlara getdi və 1994-cü ilin mayında Ermənistanla Azərbaycan arasında atəşkəs elan olundu. Cənubi Qafqaz regionunda müharibənin dayanması və sabitliyin yaranması xarici neft şirkətlərinin Azərbaycana inamını artırdı və həmin ilin sentyabrında ARDNŞ-lə dünyanın aparıcı neft şirkətləri arasında, respublikamızda iqtisadi tərəqqinin əsasını qoymuş "Əsrin müqaviləsi" imzalandı. Qeyd etmək lazımdır ki, ölkənin sosial-iqtisadi inkişafının təmin olunması ilə bağlı görülmüş ən əsas işlərdən biri də məhz "Əsrin müqaviləsi"nin imzalanması olmuşdur. İlk dəfə 8 ölkəni əhatə edən bu müqavilə növbəti illərdə 19 ölkəni təmsil edən 41 neft şirkəti ilə daha 26 sazişin imzalanmasına yol açmışdır. Bağlanmış müqavilələr hesabına ölkənin neft sektoru sürətlə inkişaf etdirilmiş, ölkəyə daxil olan vəsaitlər hesabına qeyri-neft sektorunun inkişafına və əhalinin sosial problemlərinin həllinə nail olunmuşdur.

1994-cü ildən başlayaraq iqtisadiyyatda aparılan islahatlar, qanunvericiliyin, vergi və bank sistemlərinin sürətlə dəyişən iqtisadi şəraitə uyğunlaşdırılması, bazar iqtisadiyyatı prinsiplərinə cavab verən yeni iqtisadi siyasətin həyata keçirilməsi bütün sahələrdə inkişaf mərhələsinin başlanmasına təkan vermişdir. Ulu Öndərin təşəbbüsü və rəhbərliyi ilə Azərbaycanda həyata keçirilən iqtisadi islahatlar qısa bir

zamanda uğurlu nəticələr verərək iqtisadi inkişafa səbəb olmuş, ölkəmizin qüdrətli iqtisadi dayaqları üçün əsaslar yaratmışdır. Bütün sahələrdə olduğu kimi, Azərbaycan iqtisadi sahədə də dünya iqtisadiyyatına inteqrasiya etmiş, dövlətlərarası münasibətlərin fəal subyektinə çevrilmiş, dünya miqyasında layiqli yerini tutmuşdur.

Ulu öndərin milli maraqlara əsaslanan çoxşaxəli inkişaf strategiyası bu gün Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. 18 il bundan əvvəl Azərbaycan xalqının cənab İlham Əliyevə etimad göstərməsindən sonra həyata keçirilən uğurlu daxili və xarici siyasət nəticəsində ölkəmiz yeni inkişaf mərhələsinə qədəm qoyub. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan ötən müddət ərzində qarşıya qoyduğu bütün strateji məqsədlərə nail olub. Bu dövrdə nəhəng transmilli enerji layihələri həyata keçirilib, ölkənin hər yerində möhtəşəm abadlıq-quruculuq işləri aparılıb, insanlarımızın rifah səviyyəsi qat-qat yüksəlib, Azərbaycanın dünyada tanınması və yüksək nüfuz sahibi olması istiqamətində fundamental addımlar atılıb. Eyni zamanda, ötən müddət ərzində dövlət başçısının siyasi iradəsi əsasında bütün sahələrdə sistemli, kompleks xarakterli, fundamental islahatların həyata keçirilməsi Azərbaycanın qüdrətinin daha da artmasını təmin edib. Rasional və praqmatik xarici siyasət Cənubi Qafqaz regionunun lider dövləti olan Azərbaycanın strateji tərəfdaşlıq əlaqələrinin güclənməsini, dostlarının və tərəfdaşlarının sayının mütəmadi olaraq artmasını təmin edib. Ötən müddət ərzində regional güc mərkəzinə çevrilən Azərbaycan müasir beynəlxalq münasibətlər sistemində etibarlı tərəfdaş kimi tanınıb. Eyni zamanda, respublikamız xarici siyasətində milli maraqlar və beynəlxalq hüquq normaları ilə yanaşı, sülh, sabitlik, inkişaf, qarşılıqlı faydalı əməkdaşlıq kimi meyarları da əsas götürərək beynəlxalq münasibətlər sisteminə yeni və daha mütərəqqi dəyərlər təqdim edib. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən strateji kursun ən mühüm prioritetlərindən biri olan ordu quruculuğu istiqamətində görülən işlərin nəticəsində Azərbaycan Ordusu bu gün dünyanın ən güclü 50 ordusu sırasında yer alıb. Və nəhayət bütün bu proseslərin məntiqi nəticəsi olaraq Azərbaycan

Ordusu Vətən müharibəsində parlaq tarixi Qələbə əldə edərək ölkəmizin ərazi bütövlüyünü təmin edib. Azərbaycan bu inamlı qələbəsilə öz gücünü bütün dünyaya nümayiş etdirdi.

Heç bir şübhə yoxdur ki, ölkəmizin hərtərəfli inkişafı üçün ümummilli liderimizin hazırladığı və dövlətimizin başçısı tərəfindən hazırda inamla inkişaf etdirilən strateji istiqamətlər hələ uzun illər müstəqil dövlətimizin daha da möhkəmləndirilməsi və gücləndirilməsi, iqtisadi qüdrətinin artırılması, xalqımızın rifah səviyyəsinin daha da yüksəldilməsi işinə xidmət edəcək.

# BAYRAM HACIYEV

***Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Gəncə şəhər Komitəsinin sədri, Gəncə şəhər İcra Hakimiyyəti yanında İctimai şuranın sədri***



Bütün əsrlər boyu Azərbaycanın görkəmli tarixi şəxsiyyətləri olub. XX əsrdə Ulu Tanrının Azərbaycan xalqına bəxş etdiyi[*] nəhəng şəxsiyyət isə Heydər Əliyevdir.

Ümummilli lider Heydər Əliyev Azərbaycan tarixində xüsusi rolu və yeri olan, dövlətimizin inkişafı yolundakı xidmətləri heç vaxt unudulmayan bir şəxsiyyətdir. Müasir azərbaycanlılar Azərbaycanda dövlət müstəqilliyinin möhkəmlənməsində, dövlət quruculuğunun həyata keçirilməsində göstərdıyi misilsiz xidmətlərlə tariximizə əbədi həkk olunmuş Ulu Öndər Heydər Əliyevə borcludur.

Dövrümüzün nəhəng siyasi simalarından sayılan dünya şöhrətli siyasətçi, xalqımızın müqəddəs arzusunu həqiqətə çevirdi. Xalq ona hakimiyyətdə olduğu bütün dövrlərdə inanır və onu sevirdi. Azərbaycan o dövdə yeniləşdi, tikildi, quruldu. Ümummilli lider tərəfindən o dövrdə keçirilən geniş dövlət tədbirləri yalnız bir məqsəd daşıyır, respublikanın və xalqın yüksəlişinə xıdmət edirdi.

Nə qədər ki, Heydər Əliyev ideyaları var və həyata kecirilir, bu ideyalar daha da aktual olacaq. Nə qədər ki, böyük Heydər Əliyevin siyasi kursu var, deməli, Heydər Əliyev yaşayır. Bu kursdan da uzaqlaşmaq mümkün deyil, çünki, bundan mütərəqqi yol ola bilməz.

1993-cü ilin oktyabrında Heydər Əliyevin prezident seçilməsindən sonra təhsilin inkişafı onun ən çox diqqət mərkəzində saxladığı sahələrdən biri oldu. O təhsili böhrandan, uçurumdan, fəlakətdən qurtardı. Onun rəhbərliyi ilə həyata keçirilən sosial-iqtisadi, ictimai-siyasi, mədəni sahədə və dövlət quruluşunda baş vermiş dəyişikliklər təhsil sisteminə yeni ruh gətirdi. Təhsilin xalqın həyatında, gələcəyində müstəsna rolundan danışarkən Heydər Əliyev deyirdi: "Təhsilin nə qədər dəyərli olduğunu ondan görmək olar ki, Azərbaycanda yüksək savada, biliyə, ixtisasa, yüksək elmə malik insanlar var və onlar cəmiyyətin çox hissəsini təşkil edir. Əgər bunlar olmasaydı, Azərbaycanın iqtisadiyyatı belə güclü inkişaf edə bilməzdi, bunlar olmasaydı, biz indi Azərbaycanı müstəqil dövlət kimi idarə edə bilməzdik. Onları qiymətləndirmək lazımdır və illərlə əldə etdiyimiz nailiyyətləri heç vaxt unutmamalıyıq".

On illərlə əldə etdiyimiz nailiyyətlər dedikdə Ulu Öndərimiz keçmişdən bizə qalan müsbət həyati zəruriyyətləri nəzərdə tuturdu. Bir çox inqilabi hərəkatlarda olduğu kimi keçmiş respublika rəhbərliyi də hər şeyi ləğv edərək, dağıdaraq yerində yenisini qurmaq şüarını rəhbər tutmaqda böyük siyasi səhvə yol vermişdi. Heydər Əliyevin böyüklüyü, uzaqgörənliyi və ideyalarının uzunömürlülüyü keçmişlə sağlam əlaqə yaratmağındadır. Keçmişdə nə yaxşı dəyərlər varsa, onu qəbul edib irəliyə doğru hərəkət etmək onun siyasətinin aparıcı stimullarından biri idi.

Ulu Öndər təhsil sisteminin inkişaf etdirilməsi yönümündə də böyük işlər görmüşdür. Məhz onun dövründə təhsil sahəsi ilə bağlı islahatlara başlanılmış, bununla da milli təhsilimizin sürətli inkişafının əsası qoyulmuşdur. O, təhsilimizi inkişaf etdirən fədakar insanların qayğısını çəkir, bu sahədə çalışan insanlara böyük hörmət və ehtiramla yanaşmağa çağırırdı.

# ŞAHİN MƏHƏRRƏMOV

***Sənaye və Texnologiyalar üzrə Gəncə Dövlət Peşə Təhsil Mərkəzinin direktoru***



Ümummilli lider, böyük dövlət xadimi Heydər Əliyevin apardığı uğurlu, məqsədyönlü, ardıcıl siyasət nəticəsində, uzun illər apardığı mübarizə sayəsində Azərbaycan xalqı ötən əsrin 69-cu illərindən başlayaraq haqq işini axır ki, başa çatdırdı. Ulu Öndər Heydər Əliyev doğma Azərbaycanın müstəqillik qazanacağını XX əsrin 70-ci illərindən görürdü. Əgər belə olmasaydı, o fəaliyyətinin əsas istiqamətlərini buna yönəltməzdi. Ulu Öndər Heydər Əliyev bir çox hallarda sovet imperiyasının apardığı siyasətlə razılaşmır, xüsusi ilə Azərbaycanın əleyhinə yönəlmiş qərarları qətiyyətlə rədd edirdi. Əlbəttə, o dövrdə bu addımı atmaq böyük risk, cəsarət tələb edirdi. Heydər Əliyev heç nədən qorxub çəkinmədən Azərbaycana və azərbaycanlılara qarşı yönəlmiş siyasətin üstündən qorxmadan qara xətt çəkirdi. Heydər Əliyevin müstəqilliyə məqsədyönlü hazırlığı onun o vaxtkı siyasətində, işlərində də aydın hiss olunurdu. Sovet Azərbaycanında hər bir sahədə çalışan, imperiya ideologiyası ilə silahlanmış kadrların sayı kifayət qədər idi və hər belə kadrlar bir ucdan "istehsal" olunurdu. Kadr probleminin olmadığı bir vaxtda

Heydər Əliyev azərbaycanlı tələbələrin SSRİ-nin və digər sosialist ölkələrin ən nüfuzlu ali təhsil ocaqlarında təhsil almalarına şərait yaratmışdı. Onun təşəbbüsü və bilavasitə rəhbərliyi ilə minlərlə gənc respublikamızdan kənarda təhsil almağa göndərilmişdi. Eyni zamanda, azərbaycanlı mütəxəssislər də təcrübələrini artırmaq üçün xaricə göndərilirdilər. Bütün bu işlərin hamısı Azərbaycanın gələcəyinə, müstəqilliyinə hesablanmış incə siyasət idi.

Hər bir ölkənin inkişafı onun təhsilinin səviyyəsi ilə ölçülür. Təhsili inkişaf etməyən ölkədə heç bir uğurdan danışmaq olmaz. Çünki kadr hazırlığı dövlət siyasətinin əsasını təşkil edir.Dövlətçilikdə, idarəçilikdə əsas vəzifələr öz işinin öhdəsindən layiqincə gəlməyi bacaran kadrların üzərinə düşür. Belə kadrların yetişməsi, formalaşması, təkmilləşməsi üçün isə təhsilin inkişafına xüsusi diqqət yetirmək lazımdır.

Heydər Əliyevin rəhbərliyi ilə respublikamızda bir çox yeni elm ocaqları, təhsil müəssisələri, saysız - hesabsız uşaq bağçaları, ümumtəhsil məktəbləri, texnikumlar, institutlar tikilib xalqın istifadəsinə verilib. Bunların hamısı Heydər Əliyevin təşəbbüsü ilə həyata keçirilib. Bu, Heydər Əliyev siyasətinin məntiqi nəticəsi idi. Vətənini, xalqını ürəkdən sevən, dərin biliyə, fitri istedada, zəngin dövlətçilik təcrübəsinə malik olan Heydər Əliyev bütün gücünü, enerjisini Azərbaycan vətəndaşlarının daha da maariflənməsinə, savadlı nəslin, cəmiyyətin formalaşmasına sərf etmişdir. Onun atdığı bu addım qısa zamanda öz əməli nəticəsini verdi.

Dünyada elə bir görkəmli siyasətçi və dövlət xadimi tapmaq çətindir ki, xalqımızın böyük oğlu, çağdaş dövrün siyasət korifeylərindən biri olan Heydər Əliyev haqqında müsbət fikir söyləməsin.Onun xidmətləri təkcə ölkəmizdə deyil, Azərbaycanın hüdudlarından uzaqlarda da yüksək xatırlanır. Heydər Əliyev dünya siyasətində təsir etməyə qadir, tarixi perspektivləri qabaqcadan görən, ən mürəkkəb situasiyalarda yeganə düzgün olan qərarlar qəbul etməyi bacaran nadir şəxsiyyətlərdən biri idi. Mübaliğəsiz demək olar ki, ölkəmizin Heydər Əliyev adlı bir zirvəsi var və o, dünyanın hər yerindən görünür.

Ümummilli liderimiz Azərbaycan xalqının qədim tarixinə, zəngin mədəniyyətinə arxalanan böyük bir inlellekt sahibi idi. Heydər Əliyev özündən sonra nəhəng siyasi və mənəvi irs qoyub getdi.

Ulu Öndər Azərbaycana bir-birindən kəskin surətdə fərqlənən iki dövrdə rəhbərlik edib. O, 1969-cu ilin iyununda respublika KP MK-nın birinci katibi seçilərkən müstəqil qərarlar qəbul etmək imkanı yox idi, keçilməz sədlər və sərt qadağalar hökm sürürdü. Buna baxmayaraq, imperiya qanunlarının, avtoritarizm və qadağaların hökm sürdüyü şəraitdə belə Heydər Əliyev öz vətəni, xalqı üçün çalışırdı. İllər ötdükcə, zaman keçdikcə bəlli olur ki, bu böyük və müdrik insan ötən əsrin 70-ci illərində qabağı görmüş, öz xalqını müstəqillik uğrunda mücadiləyə hazırlamışdır.

1980-ci ilin əvvəllərində ümumittifaq miqyasında müşahidə edilən iqtisadi tənəzzülün fonunda Azərbaycanda qazanılan uğurlar daha qabarıq nəzərə çarpırdı. Artıq Azərbaycan rəhbərini Kremldə yaxşı tanıyır, ona hörmətlə yanaşırdılar. Bütün bunlar onun SSRİ-nin ali, siyasi və dövlət rəhbərliyinə irəli çəkilməsi ilə nəticələnirdi. Heydər Əliyevin Siyasi Büro üzvü seçilməsindən,SSRİ Nazirlər Soveti sədrinin birinci müavini təyin olunmasından sonsuz qürur duyurduq. Çünki ilk dəfə idi ki, Azərbaycan xalqının nümayəndəsi SSRİ kimi nəhəng dövlətdə belə yüksək vəzifə tuturdu. Müstəqilliyimizin ilk illərində hakimiyyətdə məhz əsl liderin olmaması ucbatından başımız çox bəlalar çəkdi. Ölkə anarxiya və xaos girdabına yuvarlandı. Bu dəfə də xalq yeganə ümid yeri kimi Heydər Əliyevə üz tutdu, onu köməyə çağırdı. Ümummilli liderimizin hakimiyyət dövrü əslində Azərbaycan dövlətçiliyini məhv olmaqdan xilas etdi. Dövlətçiliyin müqəddəratının həll edildiyi 1993-cü ilin iyun günlərində xalqımız dünya miqyaslı dövlət xadimi Heydər Əliyevi yenidən hakimiyyətə dəvət etdi. Bununla da Azərbaycan parçalanıb dağılmaq və müstəqilliyini itirmək kimi dəhşətli fəlakətdən xilas oldu. Az sonra hakimiyyət böhranına son qoyuldu, cəbhədə atəşkəs elan edildi. Çox ağır vaxtlar idi və belə vəziyyətdə hər kəs cürət edib yüksək məsuliyyətin altına girmək istəməzdi. Bunu yalnız polad iradəli,Vətənini və xalqını canından artıq

sevən Heydər Əliyev edə bilərdi. O, həyatını təhlükəyə ataraq xalqı bəladan qurtardı, sinəsini dövlətçiliyimizə sipər etdi. Ömrünün son dəqiqəsinədək Vətəninə və xalqına sədaqətlə xidmət göstərdi. Sərasər on il istirahət bilmədən, yaşı və səhhəti ilə hesablaşmadan işlədi, ömrünü şam kimi əritdi. O, bizə müstəqil və güclü dövlət miras qoyub getdi.

Bu gün Azərbaycan Qafqazın lider ölkəsinə çevrilib və özünün beynəlxalq aləmdəki mövqeyini getdikcə möhkəmləndirir. Ən başlıcası isə müstəqilliyimiz əbədi, sarsılmaz xarakter alıb. Azərbaycanın ərazi bütövlüyünü bərpa etməyə qadir güclü ordusu var.

Heydər Əliyev bütün dünyada tanınıb, sevilib və adı həmişə hörmətlə çəkilib. Dünya siyasətçiləri hələ sağlığında ikən Heydər Əliyevi tarix yaradan dahi şəxsiyyət, zəmanəmizin canlı əfsanəsi adlandırıblar. Corc Buş, Süleyman Dəmirəl, Jak Şirak və digər siyasət nəhəngləri Heydər Əliyev haqqında həmişə heyranlıqla söz açıblar. Məsələn, ABŞ prezidenti C.Buş Heydər Əliyevi Cənubi Qafqazda əsas siyasi sima hesab edir, ABŞ və Azərbaycan arasında dostluq əlaqələrinin qurulmasında, Azərbaycanın müstəqilliyinin qorunmasında onun şəxsi səylərini yüksək qiymətləndirirdi. Rusiyanın prezidenti Vladimir Putin Heydər Əliyevi böyük dövlət xadimi, siyasət nəhəngi adlandırır, ona böyük hörmət və ehtiram bəsləyirdi.

Heydər Əliyev Azərbaycanda müstəqil dövlətçilik ənənələrinin yaradıcısı və milli təfəkkürümüzün formalaşmasında tarixi rol oynamış böyük şəxsiyyətdir. Haqqın, ədalətin bərpası, ölkəni inkişaf etdirib sivil cəmiyyətə çevrilməsi üçün çəkdiyi min bir əziyyət onun tale yolu, ömür yolu olmuşdur.

Müasir tariximizin bütöv bir epoxası-34 ili bu müdrik insanın adı və fəaliyyəti ilə bağlıdır. Böyük qürur hissi duyuruq ki, ümummilli liderimizin siyasi kursu bu gün onun layiqli varisi, Azərbaycanın və regionun yeni lideri, Prezident İlham Əliyev tərəfindən qloballaşan dünyanın tələbinə uyğun olaraq yeni məzmun və keyfiyyətlə davam etdirilir.

## AZƏR RÜSTƏMOV

***Ticarət və Xidmət üzrə Gəncə Dövlət Peşə Təhsil Mərkəzinin direktoru***



Peşə təhsilinin inkişafının yüksəliş dövrü məhz Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci mərhələsinə təsadüf edir. Həmin illərdə peşə məktəblərinin sayı 1965-ci illə müqayisədə 1.7, təhsilalanların sayı isə 2.5 dəfə artmışdı. Heydər Əliyevin təşəbbüsü ilə 1971-1975-ci illər üçün texniki peşə təhsilinin təkmilləşdirilməsi və inkişafı üzrə strategiya müəyyənləşdirilmiş, həmin illərdə 54 yeni texniki peşə təhsili müəssisəsi fəaliyyətə başlamışdır.

Ölkənin sosial-iqtisadi inkişafına təkan verən, gənclər arasında məşğulluğun təmin edilməsinə xidmət edən, iqtisadiyyatın bütün sahələri üçün ixtisaslı kadr hazırlığını təmin edən aparıcı təhsil pilləsi olduğu nəzərə alınaraq, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən peşə təhsilinin inkişafına xüsusi diqqət yetirilmişdir. İqtisadiyyatın şaxələndirilməsi şəraitində peşə təhsili sisteminin yenidən qurulması, bu sahədə çevik idarəetmənin təmin edilməsi məqsədilə 2016-cı ildə Prezidentin fərmanı ilə Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyi yaradılmışdır. Mövcud peşə

təhsili sisteminin dövlət-biznes partnyorluğuna əsaslanan sistemə transformasiyası, ölkə iqtisadiyyatının ixtisaslı kadrlara olan tələbatının ödənilməsini təmin edən, müasir iqtisadi çağırışlara çevik reaksiya vermək qabiliyyəti olan, icbari ümumi orta təhsil səviyyəsini bitirən çoxminli məzunları qəbul etməyə hazır olan peşə təhsili sisteminin yaradılması məqsədilə "Azərbaycan Respublikasında peşə təhsili və təliminin inkişafı üzrə Strateji Yol Xəritəsi" təsdiq edilmiş və icrasına başlanmışdır. Son illərdə peşə təhsili sisteminin yenidən qurulması, bu sahədə çevik idarəetmənin təmin edilməsi məqsədilə 25 ixtisaslaşmış peşə təhsili mərkəzi yaradılmışdır. Məzmunun əmək bazarının tələblərinə uyğunlaşdırılması istiqamətində beynəlxalq təcrübə nəzərə alınmaqla peşə təhsilinin yeni dövlət standartları təsdiq edilmiş, beynəlxalq təşkilatlarla birlikdə layihələrin icrasına başlanmışdır. Strateji Yol Xəritəsinə uyğun olaraq peşə təhsilinin əhatə dairəsinin genişləndirilməsi, daha çox məzunun bu təhsil pilləsinə cəlb edilməsi, qeyri-formal yollarla əldə edilmiş səriştələrin tanınması, məzmunun yenilənməsi, mühəndis-pedaqoji heyətin fəaliyyətinin qiymətləndirilməsi və stimullaşdırılması, peşəkarlığının artırılması istiqamətində tədbirlər hazırda davam etdirilməkdədir.

Ulu Öndər Heydər Əliyev milli tərəqqidə, müstəqil dövlət quruculuğunda təhsilin, tərbiyənin əvəzsiz rolu olduğu həmişə vurğulamış, təhsilin hər bir dövlətimizin, ölkənin, cəmiyyətin mühüm sahəsi olduğunu ön plana çəkmişdir. Heydər Əliyev öz nitqində demişdir: "İndi Azərbaycan müstəqil dövlətdir. Respublikamızın müstəqil dövlət kimi Azərbaycanın öz milli diologiya konsepsiyasını yaradaraq, inkişaf etdirərək, şübhəsiz ki, təhsil sahəsinin də milli məqsədlər, mənafelər əsasında qurulmalıdır."

İndi ölkəmizdə faliyyət göstərən ümumi, texniki-peşə, orta ixtisas müəssələrinin geniş şəbəkəsi, güclü elmi-pedoqoji kadr korpusu öz mənbəyini məhz Heydər Əliyevin rəhbərliyi altında təhsil sahəsində aparılan uzaqgörən və məqsədyönlü siyasətdən almış, həyata keçirilən genişmiqyaslı təhsil quruculuğu işi gələcək inkişafın güclü təməlini qoymuşdur.

## MEHMAN ALLAHVERDİYEV

***Gəncə İdman Liseyinin direktoru, Azərbaycan Respublikasının Əməkdar məşqçisi, Respublikanın Fəxri Bədən Tərbiyəsi və Fəxri İdman işçisi***



Azərbaycanda təhsilin inkişafı, bu sahədə islahatyönümlü tədbirlərin durmadan həyata keçirilməsi, milli təhsilimizin qabaqcıl ölkələrin mütərəqqi təhsil sistemlərinə inteqrasiyası Ulu Öndər Heydər Əliyevin təhsil haqqında konseptual fikirlərindən qaynaqlanır.

Ümummilli liderin təhsilə və idmana olan tükənməz qayğısı sayəsində Azərbaycan idmanı yüksək inkişaf səviyyəsinə çatmışdı. Onun ölkə prezidenti olduğu illərdə ölkəmizin bütün bölgələrində idmanın inkişafına təkan verən və dünya standartlarına cavab verən idman kompleksləri tikilib istifadəyə verilmişdir.Onun əsasını qoyduğu Milli Olimpiya Komitəsinin səmərəli fəaliyyəti nəticəsidir ki, indi Azərbaycan idmançılarının qələbə sorağı Olimpiya Oyunlarından, Dünya və Avropa çempionatlarından gəlir. Son illər idmanın futbol oyun növünə və onun inkişafına da ciddi fikir verilir.

Həmin dövrlərdə respublikamızda idmana olan dövlət qayğısı nəticəsində bir sıra idman növləri üzrə əldə olunmuş yüksək

nailiyyətləri nəzərə alaraq, futbola da dövlət qayğısı artırılmış, onun maddi-texniki bazası inkişaf etdirilmiş, yeniyetmə və gənclərin sağlam həyat tərzinə maraqları yüksəlmişdi.

Ulu Öndər respublikamızda idmanın inkişaf etdirilməsi ilə bağlı deyirdi: -"İdman, bədən tərbiyəsi müstəqil Azərbaycanın həyatında dövlət qayğısı ilə əhatə olunaraq, eyni zamanda, həm gənclər üçün, həm də bütün cəmiyyətimiz üçün zəruri bir sahəyə çevrilibdir. Güman edirəm ki, bu dönüş, yəni bu hadisə gələcək üçün çox gözəl əsasdır və bizim millətimizin, xalqımızın fiziki sağlamlığı üçün, təkcə fiziki sağlamlığı deyil, zehni sağlamlığı üçün, sağlam gənc nəsil yetirməsi üçün çox gözəl əsasdır və biz hamımız bu sahəni bundan sonra daha da inkişaf etdirməliyik".

Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra idman sahəsinə dövlət tərəfindən xüsusi qayğı göstərilməyə başlandı. Ümummilli lider bədən tərbiyəsi və idmanın inkişafına diqqət çəkərək, "...İdman, bədən tərbiyəsi gənclərimizin daha da sağlam olması üçün lazımdır. Bu, müstəqil Azərbaycanın gələcəyi üçün əsasdır", - deyə onun mühüm rolunu qeyd edirdi. Respublikada bədən tərbiyəsi və idmanın geniş vüsət alması üçün isə bu sahənin maddi- texniki bazasını yenidən qurmaq, idman mütəxəssislərinin hazırlanması üçün böyük tədbirlər həyata keçirmək lazım idi. Ulu Öndər idman komplekslərinin birinin açılışında qeyd edirdi: -"Bizim gələcəyimiz gənclərə məxsusdur. Biz bu gün yaşayırıq. Bu gün dövləti, milləti idarə edirik, amma sabahı düşünməliyik. Gələcək üçün biz sağlam gənclik hazırlamalıyıq. Fiziki cəhətdən sağlam, mənəvi, əqli cəhətdən sağlam, düşüncəli gənclər hazırlamalıyıq. Bunlar da məhz bu cür komplekslərdə yaranır. Bu, gəncləri narkotiklərdən, spirtli içkilərdən istifadə etməkdən çəkindirəcəkdir. Lazımdır ki, gənclər, fiziki cəhətdən sağlam olsunlar. Bu kompleksdə gənclər üçün bunu təmin etmək mümkün olacaqdır. Ona görə bunun həm böyük siyasi, həm iqtisadi, həm də sosial əhəmiyyəti var".

Dövlət proqramında futbolun ölkədə inkişafının əsas istiqamətləri müəyyən olunmuş və Azərbaycan Respublikası Təhsil Nazirliyi Gəncə

1 saylı Əsas İnternat Məktəbinin bazasında Futbol Təmayüllü İnternat Tipli Gimnaziya yaradılmış və 2009-2010-cu tədris ilindən fəaliyyətə başlamışdır. Hal-hazırda təhsil ocağı Gəncə İdman Liseyi adı ilə fəaliyyətini davam etdirir.

Əsası Ulu Öndərimiz Heydər Əliyev tərəfindən qoyulan inkişaf strategiyası möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Dövlət başçısı cənab İlham Əliyevin və birinci vitse-prezident Mehriban xanım Əliyevanın təhsilimizə göstərdikləri diqqət və qayğının nəticəsi olaraq yeni məktəblərin inşası, o cümlədən ümumtəhsil məktəblərinin əsaslı təmiri, maddi-texniki bazasının möhkəmləndirilməsi, təhsilin infrastrukturunun yenidən qurulması, təlim-tərbiyə şəraitinin, təhsilin keyfiyyətinin yaxşılaşmasına, pedaqoji kollektivlərdə iş əzminin yüksəlməsinə müstəsna dərəcədə əhəmiyyətli təsir göstərmişdir.

Bu gün Respublikamızın orta təhsil ocaqları dövlətimizin xüsusi diqqət və qayğısı ilə tam əhatə olunmuşdur. Dövlətimizin milli təhsilimizin inkişafı və gənc nəslin təlim-tərbiyəsi yolunda atdığı əməli addımların rolu əvəzsizdir. Bu qayğını daim hiss edən təhsil işçiləri onlara göstərilən bu etimada öz səmərəli işi və qazandıqları uğurlar ilə cavab verirlər. Gəncə şəhərində fəaliyyət göstərən orta təhsil ocaqları da təhsildə əldə etdikləri nailiyyətlər ilə xüsusilə seçilirlər. Bu təhsil ocaqlarından biri də Gəncə İdman liseyidir.

2020-ci ildə dərs ilinin başlanması ilə əlaqədar ölkəmizdə bir çox yeni məktəb binaları tikilib, yaxud əsaslı təmir edilərək, şagirdlərin istifadəsinə verilib. Bunların sırasında Gəncə Idman Liseyi də vardır. Şagirdlərin standartlara uyğun, yüksək maddi-texniki bazaya sahib sinif otaqlarında təhsil alması onların inkişafı üçün vacib amillərdəndir. Gəncə İdman Liseyinin tədris binası da əsaslı təmir edilərək, həmin il şagirdlərin istifadəsinə verilibdir. 15 sentyabr - Bilik Günündə Azərbaycan Prezidentinin köməkçisi, Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov, Təhsil naziri Emin Əmrullayev, Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov liseyimizin qonağı olub, daha sonra Heydər Əliyev Fondu tərəfindən əsaslı şəkildə

yenidən qurulan İdman Liseyinə baxış keçirilib. İdman liseyində foyedə ümummilli lider Heydər Əliyevin Azərbaycan idmanının inkişafına göstərdiyi diqqət və qayğını özündə əks etdirən fotoguşə təqdim edilib.

İdman liseyinin dördmərtəbəli yeni binası Heydər Əliyev Fondu tərəfindən inşa olunub. 360 yerlik liseydə 18 sinif otağı var. Yeni istifadəyə verilən təhsil müəssisəsində güləş zalı, futbol, basketbol meydançaları, akt zalı və yeməkxana fəaliyyət göstərir. Bir sözlə, idmanın və təhsilimizin inkişafı üçün bu təhsil ocağında dövlətimiz tərəfindən hər cür şərait yaradılmışdır.

## RAMİL QASIMOV

***Gəncə şəhər 1 nömrəli Uşaq-Gənclər İdman-Şahmat Məktəbinin direktoru, Paraolimpiya çempionu***



Ölkəmizdə aparılan quruculuq işləri, yeni idman obyektlərinin inşası və digər sahələrdəki yeniliklər Heydər Əliyevin respublikamızda əsasını qoyduğu iqtisadi inkişafın sayəsində mümkün olub. İdman da daxil olmaqla ölkəmizin bütün sahələrində inkişafa nail olmaq üçün dövlətimizin imkanları Ulu Öndər Heydər Əliyevin məqsədyönlü siyasəti nəticəsində ildən ilə genişlənmişdir.

Azərbaycanın dövlət müstəqilliyinin ilk illərində özünü bütün sahələrdə qabarıq göstərən iqtisadi böhran səbəbindən idman siyasəti tamamilə diqqətdən kənarda qalmışdı. Hələ sovetlər dövründə qazandığı müvəffəqiyyətlərlə məşhurlaşmış adlı-sanlı, perspektivli idmançılarımızın böyük əksəriyyəti dözülməz şərait ucbatından Azərbaycanı tərk etmək məcburiyyətində qalmışdılar. Ulu Öndər Heydər Əliyevin vaxtilə xalqına ərməğan etdiyi idman kompleksləri baxımsızlıq üzündən dağıdılmış, idmanımız taleyin ümidinə buraxılmışdı**.** O illərdə idman sahəsində yaranmış vəziyyətə münasibət bildirərkən Heydər Əliyev demişdir: -“1990-1993-cü illərdə Azərbaycanda bütün idman qurğuları dağıdılmışdı. Azərbaycanın ən

böyük stadionu bərbad vəziyyətə salınmışdı. Ayrı-ayrı adamlar orada müxtəlif bazarlar, dükanlar açmışdılar, oranı kababxanaya döndərmişdilər. Bilin, mən bu məsələ ilə tanış olanda Azərbaycanda çox şeylər dağıdılmışdı. Amma Azərbaycanın gəncliyi, idmanı üçün ən vacib olan bu stadionun dağıdılması məni həddindən artıq incitdi". “Biz bu gün müstəqil dövlətimizi qurarkən gələcək nəsillərimiz barədə düşünməliyik. Bizdən sonra gələn nəsillər fiziki cəhətdən daha da möhkəm, əqli cəhətdən daha da sağlam olsunlar. Biz buna nail olmaq üçün idmana, bədən tərbiyəsinə çox ciddi fikir verməliyik. Hesab edirəm ki, bu sahədə çox işlər görməliyik, bir çox tədbirləri həyata keçirməliyik”.- Ulu Öndər qeyd edirdi.

Ümummilli lider Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra ölkədə idmana münasibət kökündən dəyişdi. İdmanın və bədən tərbiyəsinin inkişafı dövlət siyasətinin prioritet qollarından birinə çevrildi, bu sahədə yüksəlişin əsası qoyuldu. Bu illərdə Azərbaycanda bədən tərbiyəsi hərəkatının maddi-texniki bazası xeyli möhkəmləndirildi. Respublikada stadionlar, idman salonları, futbol meydançaları tikilərək istifadəyə verildi. Müasir tələblərə cavab verən bu iri idman obyektlərinin inşası bu gün də davam etdirilməkdədir.

Ulu Öndər idmanın dövlətimizin dünyada tanınmasında, imicinin möhkəmlənməsində müstəsna rolunu önə çəkərək deyirdi: "İdman, bədən tərbiyəsi xalqın sağlamlığı ilə bağlı olan mühüm sosial sahədir. Azərbaycan bayrağı dünyada, demək olar ki, iki dəfə qaldırılır. Bu, bir Azərbaycanın dövlət başçısı hər hansı ölkəyə gələrkən və bir də idmançılarımız beynəlxalq yarışlarda çempion adını qazanarkən baş verir. Azərbaycan himni səslənir, dövlət bayrağı qaldırılır".

Bu gün Azərbaycanda Prezident İlham Əliyevin rəhbərliyi ilə idmanın inkişafı istiqamətində ciddi tədbirlər həyata keçirilir, bu sahə dövlət siyasətinin prioritetləri sırasında mühüm yerlərdən birini tutur. Azərbaycanı dünya miqyasında idman ölkəsinə çevirməyi qarşısına məqsəd qoyan İlham Əliyevin rəhbərliyi altında bütün ölkə üzrə müasir idman infrastrukturunun yaradılması istiqamətində nəhəng quruculuq

layihələri həyata keçirilmişdir. Azərbaycanın modern idman infrastrukturuna malik ölkə olması artıq hər kəsin qəbul etdiyi reallıqdır.



Dövlətin gənclər və idman siyasətinin həyata keçirilməsi yolunda atdığı əməli və real addımlar respublikamızın idman həyatında böyük dönüş yaratmışdır. Azərbaycanda idmanın kütləviliynə nail olmaq, bədən tərbiyəsi və idmanı geniş coğrafi məkanda inkişaf və təbliğ etdirmək, yüksək nailiyyətlər əldə etmək və dünya şöhrətli idmançılar hazırlamaq üçün bu sahədə geniş imkanlar açılmışdır. İdmanın inkişafı ilə bağlı dövlət tərəfindən biz idmançılara bütün şərait yaradılıb, bizə daim dövlət dəstəyi göstərilir. İdmançılar dövlət tərəfindən hər zaman qayğı ilə əhatə olunurlar.

Biz idmançılara göstərilən bu yüksək etimada daim öz əməli, uğurlarla dolu işimizlə cavab verir, bütün işlərdə dövlətimizin yanında olmağa çalışırıq.

# ASİF HƏSƏNOV

***Gəncə şəhər 2 nömrəli Uşaq-Gənclər İdman-Şahmat Məktəbinin direktoru, Əməkdar məşqçi, Fəxri Bədən Tərbiyəsi və İdman işçisi, Şahmat üzrə Beynəlxalq Usta, Əməkdar bədən tərbiyəsi və idman xadimi***



Heydər Əliyevlə Azərbaycan idmanının inkişaf dövrünün başlanğıcı hələ ötən əsrin 70-ci illərinə təsadüf edir. Bu dövrdən başlayaraq respublikamızın bütün sahələrində olduğu kimi, idman və bədən tərbiyəsində də tərəqqi meylləri nəzərə çarpmağa başladı. Həmin vaxtdan etibarən idman qurumları da öz gündəlik fəaliyyətlərində yeni ab-havanı hiss etməyə başlamışdılar. Ulu Öndər Heydər Əliyevin təşəbbüsü və göstərişi ilə Azərbaycanda idmanın maddi-texniki bazası möhkəmləndirilməyə başladı. Bunun sayəsində bədən tərbiyəçilərinin və idmançıların sayı artdı, onların ustalıq səviyyəsi yüksəldi.Yüksək ixtisaslı məşqçi kadrların hazırlanması da ön plana çəkildi.

Heydər Əliyevin qayğısı sayəsində Azərbaycanda bədən tərbiyəsi və idman hərəkatı kütləvilikdən əsl ümumxalq hərəkatına çevrilmiş, böyük siyasi, ictimai əhəmiyyətə malik olmuş, bütün ictimaiyyətin səyini birləşdirmişdi. Bu, hələ sovetlər dövründə Azərbaycanda idmanın geniş vüsət almasına böyük təkan vermişdi. Idmançılara

normal şərait yaradılır, onlara maddi və mənəvi dəstək göstərilir, onların sosial problemləri həmişə diqqət mərkəzində saxlanılırdı.

Heydər Əliyev xüsusilə uşaqlar arasında idman məşğələlərinin geniş yayılmasına da diqqət yetirilməsinin vacib olduğunu nəzərə çatdırırdı. Məktəblərdə, uşaq müəssisələrində idmanın müxtəlif növləri üzrə məşğələlər keçirilməsini, orta məktəblərdə idman dərslərinə ciddi yanaşılmasını, istedadlı uşaqları aşkara çıxarıb, onlara xüsusi qayğı göstərilməsini tövsiyyə edirdi. Ulu Öndərin göstərişi ilə Azərbaycanın demək olar ki, bütün bölgələrində şahmat məktəbləri tikilmiş, istedadlı uşaqlar bu məktəblərə cəlb olunmuşdu.

Bu gün biz gənc və istedadlı şahmatçılarımız ilə fəxr edirik. Onlar dünya və Avropa miqyasındakı yarışlardan qalib kimi, medallarla qayıdırlar. Bu, Ulu Öndərin uzaqgörənliyi sayəsində mümkün olmuşdur.

İndi dünyada idman ölkəsi kimi tanınan müstəqil Azərbaycan vaxtilə Heydər Əliyevin tövsiyəsi ilə həyata keçirilən uzaqgörən siyasətin bəhrəsidir. Onun hakimiyyətdə olduğu bütün illərdə idmançılarımızın əldə etdiyi nailiyyətlər həmişə tariximizin şanlı salnaməsində şərəfli yerlərdən birini tutacaqdır.

Ulu Öndərin ölkəmizdə idmana olan tükənməz qayğısı bu sahədə uğurlarımızın yüksək səviyyədə inkişafına əsaslı zəmin yaratmışdı. Aparılan islahatlar nəticə etibarı ilə idmanın keyfiyyət göstəricilərinin əsaslı surətdə yaxşılaşdırılmasına, sağlam idman mühitinin yaradılmasına, məşqçi-müəllim peşəkarlığının artırılmasının təmin edilməsinə yönəldilmişdi. Heydər Əliyevin ölkəmizə ikinci rəhbərliyi dövründə də digər sahələrdə olduğu kimi, idmanın da inkişafına böyük diqqətlə yanaşılmış, gələcək inkişaf perspektivləri ciddi nəzərə alınmışdı.

Bu gün də dövlətimiz idmançılarımızın daha böyük uğurlara imza atması üçün müvafiq addımlar atır. Bunun üçün dövlət bədən tərbiyəsi və idman strategiyası həyata keçirilmişdir. Bu işdə dövlətimizin əsas məqsədi Azərbaycanda insanların bədən tərbiyəsi və idmanla məşğulluğa istəyini, marağını, eləcə də bu istəkləri reallığa

çevirmək, cəmiyyətin idmanın inkişafında iştirakının genişləndirilməsi üçün lazımi şəraitin yaradılması, bu sahə ilə bağlı işlərin uğurla həyata keçirilməsində dövlət standartlarının reallaşdırılmasıdır. Dövlətimizin təhsil - idman ocaqlarında aparılan, artıq ənənəyə çevrilmiş bu qayğısı bizi daha da yaxşı işləməyə, işimizdə daha böyük dönüş yaratmağa ruhlandırır.

Ölkə Prezidenti cənab İlham Əliyevin diqqət və qayğısı, təsdiq edilən proqramların reallaşdırılması nəticəsində, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü, onun rəhbərlik etdiyi Heydər Əliyev Fondunun dəstəyi ilə idmanın bütün sahələrini əhatə edən təhsil müəssisələrinin infrastrukturunun müasirləşdirilməsi istiqamətində görülən əhəmiyyətli işlər biz təhsil işçilərinin böyük sevincinə səbəb olmuşdur. Bu sahədə həyata keçirilən islahatlar idmanın aparıcı qüvvəsi olan məşqçi - müəllim əməyinin stimullaşdırılması, bu peşənin nüfuzunun artırılmasına xidmət edir. Bu səbəbdən ölkəmizdə idman daim inkişafdadır və bu işdə son illər çox böyük nailiyyətlər əldə edilmişdir.

Biz dövlətimizin bu qayğısını böyük ruh yüksəkliyi ilə qarşılayır, hörmətli prezidentimiz İlham Əliyevə və birinci vitse-prezident Mehriban xanım Əliyevaya öz dərin təşəkkürümüzü və minnətdarlığımızı bildiririk.

# İNTİQAM HÜSEYNOV

***Azərbaycan Respublikasının Əməkdar Məşqçisi, Gəncə Olimpiya İdman Kompleksi MMC-nin direktoru***



Azərbaycanda idman hərəkatı Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra inkişaf etməyə başladı. Bununla da, demək olar ki, Azərbaycanın dünyada idman ölkəsi kimi tanınmasının əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyuldu.

Azərbaycan ilk dəfə 1996-cı ildə müstəqil bir dövlət kimi Olimpiya Oyunlarına qatılıb və o gündən bu yana hər Olimpiya Oyunlarına idmançılar göndərib. Daha əvvəl, Azərbaycanlı idmançılar 1952-ci ilə 1988-ci illərdə Olimpiya Oyunlarında Sovet İttifaqının bir hissəsi kimi yarışıb və İttifaq dağıldıqdan sonra Azərbaycan 1992-ci ildə Müstəqil Dövlətlər Birliyinin "Birləşmiş Komandasında" yarışıb.

Həmin illər ağır dövrlər idi. 1992-ci ildə baş tutan XXV Yay Olimpiya Oyunları ərəfəsində dünyanın siyasi xəritəsi dəyişmişdi. 1991-ci ilin sonunda SSRİ dağılmış və onun tərkibinə daxil olan dövlətlər müstəqillik qazanmışdı. Bu dövlətlərin növbəti Olimpiya Oyunlarında iştirakı məsələsi isə Beynəlxalq Olimpiya Komitəsini

(BOK) problem qarşısında qoyurdu. Müstəqillik əldə edən dövlətlər öz Olimpiya Komitələrini təsis etsə də, 1992-ci ildə BOK bu Komitələrin çoxunu tanımırdı. Bununla yanaşı, başqa bir problem də hökm sürürdü. Yeni yaranmış müstəqil dövlətlərin idmançıları lisenziya yarışlarında öz ölkələrinin bayrağı altında deyil, dünya və Avropa Çempionatlarında, lisenziya yarışlarında SSRİ-nin bayrağı altında çıxış etdi. Buna görə də, müstəqil dövlətlərin əksəriyyəti Olimpiya Oyunlarına sərbəst qatılmaq hüququna malik deyildi. Bu səbəbdən, BOK tərəfindən MDB-nin komandasının Olimpiya Oyunlarına buraxılması qərara alındı. Bu komanda Barselonada BOK-un bayrağı altında çıxış etdi. MDB-nin himni və bayrağı olmadığından komanda yarışlarının qaliblərinin mükafatlandırılması zamanı BOK-un, şəxsi yarışlarda isə idmançının təmsil etidiyi ölkənin bayrağının qaldırılması qərara alındı.

Ulu Öndərin yenidən hakimiyyətə qayıdışı dövründən başlayaraq ölkəmizdə idmanın inkişafı yenidən böyük vüsət almağa başladı. "Respublikamızda bədən tərbiyəsi və idman geniş yayılmalıdır". "İdman sahəsində hər birinizin fəaliyyəti, gördüyünüz işlər və əldə etdiyiniz nailiyyətlər Azərbaycan idmanının adını, şanını-şöhrətini yüksəldir".- deyən Ulu Öndər idmanın və idmançıların vətənimiz üçün nə qədər önəm daşıdığını həmişə vurğulayırdı.

"İdman elə bir sahədir ki, idmançılarımız müxtəlif ölkələrdə yarışlarda iştirak edir, qələbələr qazanırlar və hər dəfə müstəqil Azərbaycanın adını ucaldırlar. Müstəqil Azərbaycanın himni çalınır, müstəqil Azərbaycanın bayrağı qaldırılır və müstəqil Azərbaycan dünyanın müxtəlif ölkələrində tanınır. Demək olar ki, idman kimi Azərbaycanın müstəqilliyinin rəmzlərini nümayiş etdirən ikinci bir vasitə yoxdur". - Ulu Öndər bu sözləri ilə yüzlərlə idmançı həmvətənlilərimizi dünya miqyasında ən böyük qələbələrə səsləyirdi.

Ümummilli lider Heydər Əliyev hakimiyyətdə olduğu bütün dövrlərdə idmanın və idmançıların hamisi olmuşdur. Onun Azərbaycanın idman siyasətinin həyata keçirilməsindəki xidmətləri və rolu əvəzsizdir. Müstəqillik illərində inşa edilən yeni qurğuların hamısı

ümummilli liderimiz Heydər Əliyevin prezidentliyi dövründə tikilərək, istifadəyə verilmişdir. Ulu Öndər ölkədə idmançıların məşq şəraitinin, yarışlara hazırlığının yüksək səviyyədə təmin olunmasının, eləcə də əhalinin, əsasən də gənclərin kütləvi bədən tərbiyəsi ilə məşğulluğunun vacibliyini dəfələrlə vurğulayırdı.

...1996-cı ildə Azərbaycan XXVI Yay Olimpiya Oyunlarına artıq tamam müstəqil dövlət kimi qatıldı. Amerika Birləşmiş Ştatlarının Atlanta şəhərində baş tutan Olimpiya Oyunlarında Azərbaycanın 23 idmançısı mübarizə apardı. Müstəqil Azərbaycan Atlanta Olimpiadası üçün hazırlıq işlərinə 1994-cü ildə Gənclər və İdman Nazirliyi yaradıldıqdan sonra başladı. 1996-cı ilin iyunun 29-da Zuğulbadakı Gənclik İdman Kompelksində Olimpiyaçılarla Azərbaycan Prezidentinin görüşü keçirildi. Yolasalma mərasimində Heydər Əliyev nitq söylədi. Daha sonra Nazim Hüseynov, İradə Aşumovavə Namiq Abdullayev Azərbaycanı Olimpya Oyunlarında ləyaqətlə təmsil edəcəklərinə and içdi.İndi bunun üstündən illər keçib. Dünya miqyaslı idman yarışlarında, olimpiya oyunlarında idmançılarımız Azərbaycan bayrağını dəfələrlə ən yüksək pillələrdə ucalara qaldırmışlar.

Müasir dövrdə bu siyasəti uğurla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyevin davamlı və məqsədyönlü fəaliyyətinin nəticəsidir ki, Azərbaycan dünyada aparıcı idman ölkələrindən biri kimi tanınır. Azərbaycanda keçirilən Dünya və Avropa çempionatları bir daha sübut edir ki, həqiqətən də, Azərbaycanda idman uğurla və sürətlə inkişaf edir. 30 il bundan əvvəl - 1992-ci ildə Milli Olimpiya Komitəsi fəaliyyət göstərməyə başlasa da, 1997-ci ildən Milli Olimpiya Komitəsinə cənab İlham Əliyev sədr seçiləndən sonra Azərbaycanda Olimpiya Hərəkatı geniş vüsət almağa başlamışdır. Bu illər ərzində Milli Olimpiya Komitəsinin təşkilati və quruculuq işləri bir an belə səngimədi. Azərbaycanın hər bir yerində yeni və müasir idman komplekslərinin tikintisinə başlanıldı. Azərbaycan Milli Olimpiya Komitəsi başqa Olimpiya Komitələri üçün örnək oldu. 1998-ci ildə respublikamız ilk dəfə Qış Olimpiya Oyunlarına qatıldı. Yaponiyanın

Naqano şəhərində keçirilən XVIII Qış Olimpiya Oyunlarında respublikamız 5 nəfər idmançı ilə dörd yarışda təmsil olundu. 2000-ci ildə Sidney Olimpiyadasında Azərbaycan idmançıları 2 qızıl, 1 bürünc medal qazandı. Azərbaycan komanda hesabına 199 ölkə arasında 34-cü, Avropa ölkələri arasında isə 23-cü oldu. Bu ölkənin Olimpiya hərəkatı tarixində ən böyük uğuru idi. 2002-ci ildə Azərbaycan ikinci dəfə Qış Olimpiya Oyunlarının iştirakçısı oldu. ABŞ-ın Soit Leyk siti şəhərində keçirilən bu oyunlarda idmançılarımız 3 yarışda iştirak etdilər. 2004-cü ilin avqustunda Afinada keçirilən Olimpiya Oyunlarında, idman tariximizdə ilk dəfə olaraq, 5 medal qazandı. Çində keçirilən Yeniyetmələrin Olimpiya Oyunlarında Azərbaycanın gənc atletləri beşi qızıl olmaqla 12 medal qazanaraq, 200-ə yaxın iştirakçı arasında 10-cu yeri tutmuşdur. Bütün bunlar Cənab İlham Əliyevin təşkilatçılıq fəaliyyətinin uğurlu nəticələridir.

Son illərdə ölkəmizdə 50-dən çox müasir Olimpiya Mərkəzləri inşa olunub. Gəncə Olimpiya İdman Kompleksi də 2002-ci ilin 12 sentyabrında tikilərək idmançıların istifadəsinə verilmişdir. Bütün ölkə də olduğu kimi Gəncə Olimpiya İdman Kompleksinin rəhbərliyi tərəfindən də idmanın inkişafına geniş prizmadan yanaşılır və kompleks tədbirlər görülür. Ölkə Prezidenti İlham Əliyevin vurğuladığı kimi: "... yaxın gələcəkdə elə bir şəhər qalmayacaqdır ki, orada müasir, ən yüksək standartlara cavab verən Olimpiya İdman Mərkəzi olmasın. Bu mərkəzlərdə həm peşəkar idmançılar məşq edirlər, eyni zamanda, bölgə gəncləri, uşaqlar, yeniyetmələr idman bölmələrinə gələrək, öz peşəkarlığını artırırlar".

Ölkə Prezidenti İlham Əliyevin hər bir idmançı və məşqçinin MOK, Gənclər və İdman Nazirliyi tərəfindən təqaüdlərlə təmin etməsi də ölkəmizdə Olimpiya Hərəkatına müsbət təsir edən amillər sırasındadır. MOK Azərbaycanda idmanın və Respublika Olimpiya Hərəkatının inkişafına xüsusi qayğı göstərir. İdman sahəsinə ayrılan diqqət və göstərilən qayğı gənclərin bu sahəyə olan marağını artırıb. Kütləvi olaraq bu sahəyə axın var. Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində vurğulayıb ki, mən Milli Olimpiya Komitəsinin

Prezidenti və ölkə Prezidenti kimi çox istəyirəm ki, Azərbaycanda idmanla məşğul olma prosesi kütləvi xarakter alsın:-"Artıq kütləvilik artır, ancaq istənilən səviyyədə deyildir. Hər bir vətəndaş, hər bir gənc mütləq idmanla məşğul olmalıdır. Çünki ilk növbədə, idman sağlamlıq və sağlam həyat tərzi deməkdir. İdmançıların mütləq əksəriyyəti yüksək insani keyfiyyətlərə malikdir. Eyni zamanda, idman mədəniyyətdir və idmanla məşğul olan insan özünü rahat, çox əmin hiss edir. Biz çalışmalıyıq ki, sağlam gənclər yetişsin. Sağlamlıq məsələlərinin həllində idmanın çox böyük rolu vardır".

Ümummilli liderimiz Heydər Əliyevin ölməz ideyaları Milli Olimpiya Komitəsinin prezidenti, dövlətimizin hazırki başçısı İlham Əliyev tərəfindən bu gün də davam etdirilməkdədir.

## AİDA ƏMRAHOVA

***Gəncə şəhəri 1saylı Uşaq Musiqi Məktəbinin direktoru***



Doğma Azərbaycanımız 1991-ci ildə öz müstəqilliyini bərpa etdikdən sonra, bütün sahələr kimi, mədəniyyət sahəsi də mühüm inkişaf` yolu keçmişdir. Dövlətimiz millI mədəniyyətimizin inkişafına mühüm önəm verir. Heç də təsadüfi deyildir ki, bu gün Azərbaycan öz mədəniyyəti, incəsənəti, milli-mənəvi dəyərləri ilə bütün dünyada tanınmışdır.

Milli mədəniyyətimizin inkişafında Ulu Öndərin əvəzsiz xidmətləri və rolu vardır. Məhz Heydər Əliyev Azərbaycan mədəniyyətinin inkişafında yeni bir dövrün əsasını qoymuş, mədəniyyətimyz, milli-mənəvi dəyərlərimiz beynəlxalq aləmdə tanınmışdır. O, mədəniyyətimizi yaradan, onu inkişaf etdirən insanların əməyini yüksək qiymətləndirir, daim onların qayğısını çəkirdi. Ulu Öndərin hakimiyyətdə olduğu illərdə mədəniyyətimizin bütün sahələri Heydər Əliyev qayğısından bəhrələnmiş və bu günkü inkişafına görə də məhz Heydər Əliyev dühasına borcludur. Ulu Öndər mədəniyyəti xalqın böyük sərvəti hesab edirdi. Elə ona görə də mədəni - mənəvi dəyərlərin qorunması, təbliği və yeni estetik düşüncəyə məxsus əsərlərin yaradılması üçün əlindən gələni edir, Azərbaycan mədəniyyətinin təbliğini həmişə diqqət mərkəzində saxlayırdı.

Heydər Əliyevin mədəniyyət siyasəti bu gün hörmətli Prezidentimiz İlham Əliyev tərəfindən çox ləyaqətlə davam etdirilir, Azərbaycanda Heydər Əliyevin mədəniyyətimizin inkişafı ilə bağlı ideyaları davamlı olaraq həyata keçirilir. Azərbaycanda mədəniyyyətin müxtəlif sahələr - teatr, kino, kitabxana və muzey işinin inkişafı ilə bağlı qəbul olunan dövlət proqramları ölkəmizdə mədəniyyətin tərəqqisinə yeni stimul yaratmışdır.Ulu Öndərin siyasi kursuna sadiq olan hörmətli Prezidentimiz İlham Əliyev bu sahədə islahatların daha da sürətlənməsini təmin etmiş, Azərbaycan mədəniyyətinin dünyaya inteqrasiya edilməsinə böyük imkan yaratmışdır. ”Xalqımızı xalq kimi, millət kimi qoruyub saxlayan bizim ənənələrimiz olub, ədəbiyyatımız, ana dilimiz və mədəniyyətimiz olubdur. Mədəniyyət, ədəbiyyat, milli musiqi, ana dilimiz, tarixi keçmişimiz - biz bu sahələrə böyük diqqət yetirməliyik” deyən hörmətli prezidentimiz İlham Əliyev mədəniyyətimiz və incəsənətin inkişafını həmişə prioritet sahə kimi diqqət mərkəzində saxlamış, bu dövrədək xeyli mədəniyyət obyektləri inşa edilmiş, neçə-neçə teatrlar, kitabxanalar, muzeylər və s. əsaslı təmir olunmuş, onlar bu gün əhalinin əsl mədəni istirahət mərkəzlərinə çevrilmişdir. Bunların hamısı cənab Prezidentin sərəncamları ilə reallaşdırılır.

Azərbaycanın bütün bölgələrində olduğu kimi Gəncə şəhərində də tikinti-quruculuq, abadlıq işləri xüsusi zövqlə və peşəkarlıqla aparılır. Son bir neçə ildə bu qədim şəhərdə memarlığın mükəmməl nümunləri tikilib istifadəyə verilmişdir. Ölkə başçısının sərəncamı ilə Gəncə şəhərində çoxlu sayda mədəniyyət obyektlərinin tikintisi geniş vüsət almış, Gəncə şəhəri zəngin və inkişaf etmiş mədəniyyət diyarına çevrilmişdir.

Digər sahələrdə olduğu kimi, Azərbaycanın yaradıcı mədəniyyət və incəsənət xadimlərinin fəxri adlarla, orden və medallarla təltif edilməsi möhtərəm prezidentimiz İlham Əliyev olmaqla dövlətimizin mədəniyyət işçilərinə və eyni zamanda mədəniyyətimizin inkişafına göstərdiyi diqqət və qayğının bariz nümunəsidir.

Digər sahələrlə yanaşı mədəniyyət siyasətində əldə edilmiş mühüm nailiyyətlər ölkəmizin müstəqilliyinin möhkəmləndirilməsinə, mədəniyyətimizin tərəqqisinə zəmin və şərait yaradır. Bu amil həmçinin, mədəniyyət sahəsində inkişafın təmin edilməsində çox vacib rol oynamış, uğura doğru yeni perspektivlərə yol açmışdır.

Heydər Əliyevin mədəniyyət siyasətinin reallaşması işində bu gün onun adını şərəflə daşıyan Fondun böyük xidmətləri vardır. Milli-mənəvi dəyərlərimizə qayğı, onların qorunması və təbliğində Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın xidmətləri əvəzsizdir. Fondun muğam sənətinin inkişafına, Azərbaycan mədəniyyətinin dünyada tanınmasına, milli-məvi dəyərlərimizin təbliğinə həsr etdiyi davamlı tədbirlər olduqca əhəmiyyətlidir. Bunlar Heydər Əliyev ideyalarından güc alan dövlət başçımızın həyata keçirdiyi mədəniyyət siyasətinin real nəticələridir.

# HÜSEYN ZAHİDOV

## *Respublikanın Əməkdar müəllimi*



1969-1982 və 1993-2003-cü illər Azərbaycan tarixində özünəməxsus yerlərdən birini tutub. 1990-1993-cü illər xalqın yaddaşında ağır faciələr ili kimi qalmışdır. İnsanlar bu dövrdə "ölüm ya olum" arasında çabalayır, sonu görünməyən qaranlıqdan çıxış yolları axtarırdılar. Azərbaycan siyasi xəritədən silinmək təhlükəsi qarşısında qalmışdı. Belə bir zamanda Vətənimizin yeganə ümid yeri Heydər Əliyev oldu. 21 yanvar 1991-ci ildə (20 yanvarın səhəri günü) Heydər Əliyev həyatını təhlükə qarşısında qoyaraq, Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gəlib doğma xalqı ilə həmrəy olduğunu bir daha sübut etdi. 20 yanvar faciəsini törədənləri lənətlədi, Vətənə baş sağlığı verdi, Vətənin başına belə faciəli oyun gətirənlərin cəzalandırılmasını tələb etdi. Xalqımızın bu ağır günündə dahi siyasətçi Kremlin təqiblərindən yayına bildi və 20 iyul 1990-cı ildə vətənə qayıtdı. Amma əfsuslar olsun ki, ömrünü Vətənin çiçəklənməsi üçün sərf edən dahinin Bakıda qalmasına o dövrün rəhbərləri icazə vermədilər. Bəli, ölkəmizin tarixinə bir biabırçı fakt da daxil oldu. Bakıya gəldikdən 2 gün sonra 22 iyul 1990-cı ildə bu böyük dövlət xadimi Bakını tərk etməli oldu. Onun yeni həyatı doğma şəhəri Naxçıvandan başlandı. O, orada Azərbaycanı

bu bəladan xilas etmək üçün mübarizəyə qalxdı. Bu elə bir gün idi ki, Naxçıvanı az qala erməni işğalçıları Sovet ordusunun köməyi ilə işğal etmişdilər. O, dövrdə Naxçıvanın harayına Böyük Azərbaycan hay belə vermirdi.Həmin vaxt tək Naxçıvan yox, bütün Azərbaycan yer üzündən silinmək təhlükəsi altında qalmışdı. Erməni daşnakları və Sovet ordusu tərəfindən blokadaya alınmış Naxçıvanda Azərbaycanın taleyi həll olunurdu. Bu çətin vəziyyətdən Azərbaycanı Heydər Əliyevin böyük diplomatik professionallığı, ağlı, zəkası, xalqa inamı xilas edə bildi. Müvəffəqiyyətsiz Qarabağ müharibəsi, mənsəb, vəzifə xatirinə torpaqlarımızın düşmənə verilməsi, Kremlin labirintindən çıxıb Vətənə geri dönmüş ulu öndərimizin hakimiyyətə yaxın buraxılmaması əlbəttə ki, tariximizin qara səhifələrindən biridir. Əgər Heydər Əliyev vaxtında hakimiyyət stuluna gətirilsəydi, xalqımızın başı bu bəlaları çəkərdimi?!

Bu sualın ən layiqli cavabı Heydər Əliyevin fəaliyyətinin Naxçıvan səhifəsində öz əksini tapıb. O, milli dövlətçilik ənənələrimizi dirçəltdi, Muxtar Respublikanın adından «Sovet və Sosialist» adlarını götürdü. Azərbaycanın üç rəngli bayrağını Naxçıvan MR bayrağı kimi qəbul etdi, 19-20 yanvarın siyasi qiymətini verdi. Naxçıvanlılar SSRİ-ni saxlamaq üçün keçirilən referenduma getmədilər, KP-nin yerli orqanlarının fəaliyyəti dayandırıldı, 31 dekabr dünya Azərbaycanlılarının Həmrəyliyi günü elan edildi.

Heydər Əliyev Azərbaycandan aralı düşmüş və hərbi-iqtisadi blokadaya alınmış Naxçıvanı xilas edə bildi. Bəs görəsən Heydər Əliyevin Bakıya buraxılmadığı günlərdə paytaxtımızda vəziyyət necə idi? Həmin günlər Azərbaycan ən ağır günlərini yaşayırdı. Cəbhədə ağır məğlubiyyətlər, satqınlıq, özbaşnalıq, müqəddəs torpaqlarımızın satılması, hakimiyyət hərisliyi adi bir hal almışdı. Bir sözlə, ölkədə hakimiyyətsizlik idi. Xalq daima həyacan içində yaşayırdı. Rəhbərlər xalqın taleyinə yanmaq əvəzinə, xalqını daha çox soymağa başladı. Aeroportlarda dar gündə onları qaçırda biləcək təyyarələr hazır vəziyyətdə dayanmışdı. Səriştəsiz adamlar onun-bunun göstərişləri ilə dövləti idarə edirdilər. Ölkədə həqiqi fəlakət hökm sürürdü. Sabaha inam yox idi. Azərbaycanın yer üzündən silinməsi faktı reallaşmaq

üzrə idi. Bakı yaxınlığındakı Nəvai kəndində vətəndaş müharibəsinin birinci gülləsi açıldı, qardaş qanı töküldü. Bax, belə bir anda xalqımızın yeganə ümid yeri, istinadgahı Heydər Əliyev oldu. Onun 1993-cü ildə hakimiyyətə gəlişi Azərbaycanın xilasında qəti dönüş nöqtəsi oldu.

Heydər Əliyevin ən böyük xidmətlərindən biri ondan ibarətdir ki, kəskin geosiyasi ziddiyyətlər zamanı bu böyük dahi Azərbaycanın dövlətçiliyini xilas edə bildi. Azərbaycan Prezidenti Heydər Əliyevin qətiyyəti 1994-cü ilin oktyabr və 1995-ci ilin martında dövlətçiliyimizə edilən qəsd zamanı özünü daha parlaq büruzə verdi. Ən ağır anda belə o dövlət postunu tərk etmədi, bu ağır anda öz xalqının yanında oldu. Dövlət başçımızın qətiyyəti xalqın inamını özünə qaytardı. Ölkədə sabitlik yarandı. Müharibə məsələsində də Heydər Əliyev düzgün yol tutdu. O, real vəziyyəti düzgün qiymətləndirdi və atəşkəsə nail oldu. Bununla da o, balalarımızın gələcəyini qorudu, mənasız ölümlərin qarşısını aldı və xalqın gələcəyini xilas etdi. Türk-İslam birliyini xilas etdi, etnik münaqişələrə son qoyuldu və düşmənlərimizin arzuları növbəti dəfə ürəklərində qaldı.

Bu günlərdə Azərbaycanın beynəlxalq aləmdə nüfuzu ağlasığmaz dərəcədə yüksəlirdi. Bundan ötrü biz Ulu Öndərimiz Heydər Əliyevə borcluyuq. Qısa bir zamanda Azərbaycan demokratik, hüquqi və dünyəvi nüfuz qazanıb. Bizim əsas qanunumuz Heydər Əliyev dühasının bəhrəsidir və dünyanın ən demokratik konstitusiyalarından biridir.

Heydər Əliyevin ən böyük xidmətlərindən biri ondan ibarətdir ki, o Azərbaycanı ümumtürk blokundan ayırmağa çalışanları yerində oturda bildi. İndi bütün türk dövlətləri ilə sabit qardaşlıq münasibətlərimiz var. H.Əliyev bu günün türk dünyasının bələdçisi, müasir Atatürkdür!

Daim erməni kartından istifadə edərək Azərbaycanı diz çökdürənlərin bu mənfur siyasətinə qarşı Heydər Əliyev neft strategiyası siyasətini qoydu. O, sübut etdi ki, Qafqaz məsələsini həll etmək üçün erməni kartından daha vacib məsələlər var. Çox keçmədən hamı başa düşdü ki, Heydər Əliyevin neft strategiyası siyasəti necə də ağıllı və uzaqgörən bir rəhbərin siyasətiymiş.

Bakı-Tbilis-Ceyhan neft kəmərinin çəkilməməsinə xain düşmənlərimiz nə qədər cəhd eləsələr də, Heydər Əliyev dühasının qarşısında xar oldular. Hal-hazırda Bakı-Ərzurum qaz kəməri sanki bütün türk dünyasının vuran ürəyidir.

Heydər Əliyev Şərqə-Qərbə böyük bir dəhliz açdı. O, Böyük İpək yolunu dirçəltdi və Azərbaycanı blokadadan çıxartdı. 7-8 sentyabr 1998-ci ildə 32 dövlətin, 13 beynəlxalq təşkilatın iştirakı ilə Bakıda «Gülüstan» sarayında keçirilən konfrans Azərbaycanın xarici siyasətində mühüm bir hadisə oldu. Müasir dövrdə Azərbaycan yeganə dövlətdir ki, onun ərazisində heç bir dövlətin hərbi bazası yoxdur. Ölkəmiz Cənubi Qafqazda sabitliyin gözlənilməsində əsas rollardan birini oynayır, beynəlxalq aləmdə terrorizmlə mübarizə aparır. Xəzər dənizi ilə də bağlı Heydər Əliyevin xidmətləri böyükdür. Məhz onun uzaqgörən siyasəti nəticəsində Xəzər dənizi sülh dənizinə çevrilib.

Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan gəncləri öz təhsillərini dünyanın bir çox ölkəsində alıblar. Onların təhsilinə şəxsən nəzarət edən ulu öndərimiz heç zaman onları diqqətindən yayındırmamışdı.

Heydər Əliyevin Vətən qarşısında xidmətlərini sadalamaqla qurtarmaz. Gəlin birlikdə bir həqiqəti qəbul edək: Ən ağır günlərdə öz xalqını keçilməz labirintlərdən keçirən dahilər var - Atatürk, Vaşinqton, Bismark, Nehru, de Qoll və b. Heydər Əliyev də müasir tariximizin belə şəxsiyyətlərindəndir. Bunu bütün dünya qəbul edib, biz də qəbul edirik. Bu, bir həqiqətdir!!!

Müstəqillik mübarizəmiz dahi rəhbərimiz Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində reallaşdı. XXI əsrin başlanğıcında Azərbaycan mənfur düşmənlərimizin qurduğu tələlərdən əbədilik xilas olub. Hər şey arxada qalıb. Xalqımız xoşbəxt gələcəyə doğru inamlı addımlarla irəliləyir. Xalqımız bu xoşbəxt gələcək üçün Heydər Əliyevə - Vətənimizin Atatürkünə dərin minnətdardır.Yaxın gələcəkdə Azərbaycan xalqını «Böyük Azərbaycan» dirçəlişi gözləyir. O günə az qalıb. Bax, elə o gün üçün xalqımız mərhum prezidentimiz, Ulu Öndərimiz Heydər Əliyevə minnətdardır!

## VİDADİ QULİYEV

### *Gəncə şəhər 21 nömrəli tam orta məktəbin direktoru*



Ötən əsrin 90-cı illərində yenicə müstəqillik qazanmış Azərbaycanın üzləşdiyi ağır sosial-iqtisadi vəziyyət, qeyri-sabit ictimai-siyasi şərait, habelə respublikanın beynəlxalq aləmdə hələ kifayət qədər tanınmaması, ən əsası isə ölkəni yeni yolla irəliyə doğru apara biləcək nüfuzlu və qüdrətli dövlət başçısının olmaması, siyasətdə və təcrübədə səriştəsiz, təcrübəsiz şəxslərin hakimiyyət boşluğundan istifadə edib müəyyən qrupların hakimiyyəti zəbt etmələri, onsuz da ağır olan vəziyyəti daha da həlledilməz problemə çevirmişdi. Belə bir vaxtda xalqın təkidli tələbi ilə 1993-cü ilin yayında hakimiyyətə gələn Heydər Əliyevin qarşısında ölkəni düşmüş olduğu ağır vəziyyətdən çıxarmaq, pozulmuş və dağılmaqda olan iqtisadiyyatı, təhsili, elmi və mədəniyyət kimi bəşəri əhəmiyyətli problemləri həll etmək kimi olduqca çətin vəzifələr durmuşdu.

Müstəqilliyə qovuşduqdan sonra Azərbaycan Respublikasında aparılan islahatlar illərində təhsil sahəsində görülən tədbirlər xüsusi əhəmiyyətə malikdir. Təhsilin inkişafına xüsusi diqqət yetirən Heydər Əliyevin hakimiyyəti dövründəki həmin illərdə təhsil müəssisələrinin pozulmuş fəaliyyəti normal vəziyyətə gətirildi, təhsil sahəsində planlı islahatların əsası qoyuldu. Ölkədə müharibə şəraitinin və bir sıra sosial-

iqtisadi səciyyəli problemlərin olmasına baxmayaraq, təhsil sisteminin təkmilləşdirilməsi üçün müvafiq addımlar atılmağa başlanıldı. Bu dövrdə təhsilin maddi-texniki bazası yaxşılaşdırıldı, yüzlərlə yeni məktəb binası tikilib istifadəyə verildi, məcburi köçkünlərin müvəqqəti məskunlaşdığı rayon və şəhərlərdə 700-dən çox ümumtəhsil məktəbi təşkil edildi. Istedadlı uşaqların qabiliyyətini inkişaf etdirmək məqsədilə 30-a yaxın lisey və gimnaziya təşkil edilərək , bura 12 minə yaxın şagird cəlb olundu.

Ulu Öndərin hakimiyyətə qayıdışından sonra pedaqoji işçilərin əmək haqqının artırılması barədə 9 xüsusi sərəncam imzalanmış, müəllim kadrlarının əmək haqqı 4.5 dəfə yüksəldilmişdi.

Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra təhsil sahəsində qarşıda duran ilk vəzifə təhsil sistemini yenidən qurmaq, məktəbi hakim sovet amirlik ideologiyasının təzyiqindən xilas etmək idi. Ölkənin yeni milli təhsil komissiyası yaradılmalı və həyata keçirilməli idi. 1998-ci ilin martın 30-da prezident Heydər Əliyevin sərəncamı ilə "Azərbaycan Respublikası Təhsil Sahəsində İslahatlar üzrə Dövlət Komissiyası" yaradılmış, bu dövrdə təhsil naziri olan Misir Mərdanov həmin komissiyanın sədri təyin olunmuşdu. Mərhələlərlə həyata keçiriləcək islahatlara Dünya Bankı ilk dəfə 1999/2000-ci tədris ilində 300 min, ikinci mərhələ üçün isə 5 mln. ABŞ dolları ayırmağı nəzərdə tutmuşdu.

İllər ötdükcə mərhələli şəkildə həyata keçirilən təhsil islahatları yalnız uğurlarla yadda qaldı, qarşısında müəyyən prioritet məqsədlər olan milli təhsilimizin dünya təhsil sisteminə inteqarsiyası prosesi sürətləndi. Təhsilin təkmilləşdirilməsi istiqamətində həlledici mərhələlər kimi daxil olan bu dövrdə əsaslı işlər görülmüşdür. Dünyanın 40-a yaxın ölkəsinin təhsil sistemi nəzərdən keçirilib, tətbiq olunan modellər və mexanizmlər öyrənilib, lokal şəkildə eksperimentlər keçirilmiş, analitik təhlillər aparılmışdır.

Heydər Əliyev milli təhsil-tərbiyə sistemində yeni təhsil islahatının yaradıcısıdır. Onun hakimiyyəti dövründə həyata keçirilən bu islahatlar yalnız uğurlu nəticələri ilə yadda qalmışdır.

Gəncə şəhər 21 nömrəli tam orta məktəb 1999-2000-ci tədris ilində 9 sinif, 310 şagird ilə fəaliyyətə başlamışdır. Sonralar təhsil alan şagirdlərin də, onlara dərs deyən müəllimlərin də sayı çoxaldı. 2004-2008-ci illər Regionların Sosial-İqtisadi İnkişafı Dövlət Proqramına salınmış Gəncə şəhərində 640 yerlik tədris binasının tikilməsi təsdiq olunmuş, məktəbin binası 2006-cı ilin aprelin 30-da inşa edilmiş, ilin sonunda müəllim və şagirdlərin istifadəsinə verilmişdir. Respublikanın həmin dövrdə təhsil naziri M. Mərdanov da məktəbin yeni binasının açılışında iştirak etmiş, məktəb haqqında xoş sözlərini demişdir. İndi 21 nömrəli tam orta məktəb istər müasir tələblərə cavab verən tədris binası və maddi-texniki bazası ilə, istərsə də tədrisin, təlim-tərbiyənin göstəriciləri ilə fəxr edə bilər.

Həmin andan başlayaraq məktəbimizdə fənn kabinetləri hazırlanmış, eyni zamanda bir çox muzeylər, elm, tarix, ədəbiyyyat muzeyi, həmçinin Heydər Əliyev muzeyi də təşkil olunmuşdur. M. Mərdanov məktəbimizdə olarkən bu muzeyləri bəyəndiyini, H. Əliyev muzeyinin isə ən gözəl ekskursiya məkanı olduğunu bildirmişdir.

Türk dünyasının dahi şəxsiyyəti, az bir zamanda Azərbaycanı zəngin bir dövlətə çevirən, həyatı və fəaliyyəti bütün xalq üçün və gələcək nəsillər üçün örnək olan bir tarixi şəxsiyyət haqqında muzey yaratmağı balalarımıza gələcəkdə örnək götürmək üçün vacib iş hesab etdik. Muzey yarandığı gündən hal-hazıra kimi fəaliyyət göstərmiş, məktəbin müəllim və şagird kollektivinin istifadəsində olmuşdur. Muzeydə tədris ili boyunca bir sıra silsilə tədbirlər, o cümlədən tarix, ədəbiyyat və s. kimi fənlərdən dərslər keçirilir, orada şagirdlərlə daim söhbətlər aparılır. Bu söhbətlər və dərslər zamanı Heydər Əliyevin tarixi şəxsiyyət kimi müasir Azərbaycan tarixində oynadığı rolu, Azərbaycan dövlətçiliyinin yaranması, bu dövlətin hansı bəlalardan keçib, firavan dövlət kimi fəaliyyətə başlaması və qısa bir zamanda zəngin bir dövlətə çevrilməsi şagirdlərin nəzərinə çatdırılır. Biz belə söhbətlərdən sonra şagirdlərdə yarada bildiyimiz təəssüratlara görə sevinirik: demək, doğrudan da muzeyin yaranması zəruri imiş, vacib imiş. Burda şagirdlərə Azərbaycan dövlətinin keçdiyi keşmə-keşli yollar izah edilir,

bu dövlətin yaradıcısı və memarı, xilaskarı və bu memarın yaratğı gözəl dövlət haqqında məlumat verdikdə, şagirdlər xronoloji ardıcıllıqla Ulu Öndər haqqında bir çox dolğun məlumatlara yiyələnirlər. Şagirdlər bilirlər - Heydər Əliyev öz adını tarixə müstəqil Azərbaycanı qurmaqla yazmışdır.

Təhsil strategiyası Ulu Öndərimizin adı ilə bağlıdır. O, qalan ömrünü dövlətimizin güclənməsinə və Azərbaycan xalqının firavan həyatına həsr etmişdir. Və bu gün təhsil aldıqları müasir tipli tədris ocağı da məhz onun yaratdığı dövlətin təhsilə göstərdiyi böyük qayğısının təzahürüdür.

Apardığımız söhbətlərdə Ulu Öndər və onun siyasi kursunun layiqli varisi, Respublikamızın Prezidenti İlham Əliyevin tarixi missiyası ardıcıllıqla uzlaşdırılır. Müxtəlif fənlər üzrə muzeydə keçirilən dərslər şagirdlərin təlim-tərbiyəsində böyük rol oynayır. Biz vətənpərvərlik, hərbi-vətənpərvərlik tərbiyəsi ilə bağlı bir çox mövzularda söhbət və dərslərin keçirilməsinə də böyük üstünlük veririk, belə söhbətlərin məhz bu muzeydə aparılması, şagirdlərə vətənpərvərlik hisslərinin aşılanmasında böyük təsir gücünə malikdir, onlarda mənəvi-əxlaqi hisslərin daha da gücləndirilməsinə xidmət edir. Məktəbin kollektivi şəhərimizdə fəaliyyət göstərən digər muzeylərə, xüsusən də Heydər Əliyev Mərkəzinə ekskursiyalar təşkil edir. Belə ekskursiyalar şəhərimizin digər məktəblərində fəaliyyətdə olan muzeylərə baxış üçün də təşkil olunur. Digər məktəblərdən də bizim məktəbə təşrif buyururlar. Belə qarşılıqlı səfərlərin şagirdlərə yalnız xeyiri olur, onlar bu ekskursiyalarda çox yeni şeylərlə tanış olur, onların həyata olan baxışları dəyişir, onlar bir çox lazımi məlumatlara yiyələnirlər. Şagirdlər belə görüşlərdə fikir mübadilələri aparır, aparılan söhbətlərdə onların fikirləri daha da dolğunlaşır, genişlənir.

## SAHİBƏ ABDULLAYEVA

### *Gəncə şəhər Ə. Cavad adına 2 saylı tam orta məktəbin direktoru*



Təhsil hər zaman prioritet istiqamətlərdən, aparıcı xətlərdən biri olub. Çünki, təhsildən keçməyən yolun inkişaf istiqamətini müəyyənləşdirmək olmaz. Qabiliyyət, istedad, şübhəsiz ki, çox əhəmiyyətlidir. Amma, təhsil bunları formalaşdıran, inkişaf etdirən bir vasitədir. Bu vasitələr sırasında orta məktəblər ən önəmli yer tutur.

Ulu Öndərimiz Heydər Əliyev demişdir:-"Təhsil millətin gələcəyidir. Təhsilimizin məqsədi gənc nəslə, uşaqlara təhsil verib onları gələcəyə hazırlamaqdır. Hər bir insan gərək, eyni zamanda vətəndaş olsun. Dövlətinə sadiq, millətinə sadiq. Bu, mənim prinsipial mövqeyimdir"...Bu sözlər müəllim əməyinin nə qədər dəyərli olduğunu bir daha sübut edir. Ulu Öndərimiz müəllimə və müəllim əməyinə çox böyük qiymət verir, müəllimi müasir cəmiyyətimizin ən aparıcı qüvvəsi, təhsili və mədəniyyəti dövlətin, ölkənin, cəmiyyətin həyatının, fəaliyyətinin mühüm bir sahəsi sayırdı.

Ulu Öndərimizin siyasi kursunun varisi, Respublikamızın Prezidenti İlham Əliyev təhsil ocaqlarındakı çıxışlarının birində demişdir:-

"Azərbaycanda təhsil sisteminin təkmilləşməsinə çox böyük diqqət yetirilir". "Təhsilin keyfiyyəti elə bir prosesdir ki, bu prosesin hüdudları yoxdur. Hər bir ölkənin inkişafını onun insanları, insanların bilikləri, istedadı müəyyən edir. Ümid edirəm ki, hazırda təhsil sahəsində aparılan islahatlar yaxın gələcəkdə müsbət nəticələrə gətirib çıxardacaqdır. Bu günə qədər müəyyən işlər görülüb. Hesab edirəm ki, bu günkü Azərbaycanın inkişaf dinamikası bizə diqtə edir ki, təhsil sahəsində səviyyə ən yüksək zirvədə olmalıdır. Əminəm ki, biz buna nail olacağıq. Çünki Azərbaycan xalqının çox böyük potensialı vardır. Bizim insanlarımız istedadlıdır, biliklidir. Hesab edirəm ki, uşaqlar da başa düşürlər ki, əgər məktəblərdə, ali məktəblərdə yaxşı biliklərə malik olmasalar, gələcəkdə onlar üçün həyatda öz yerini tapmaq o qədər də asan olmayacaq".

Dövlətimizin milli təhsilimizə göstərdiyi diqqət və qayğıya cavab olaraq təhsil ocaqlarında çalışan müəllim və pedaqoq ordusu müstəqil Azərbaycanımıza layiqli vətəndaşlar yetişdirməyə, gələcəyin qurucuları olan bu günkü nəsilə daha yaxşı təlim-tərbiyə verməyə çalışır. Bu təhsil müəssisələri içərisində ümumtəhsil ocaqlarının özünəməxsus rolu və əhəmiyyəti vardır.

Təhsilsiz bu gün cəmiyyəti, qadını təsvir etmək mümkün deyil. Qadınların cəmiyyətdə, təhsilin inkişafı yönümündə rolu böyükdür. Heç də təsadüfi deyil ki, Azərbaycanda fəaliyyət göstərən təhsil ocaqlarının əksəriyyətinə məhz qadınlar başçılıq edir. Bu, Azərbaycan cəmiyyətində qadınların aktiv sosial ictimai-siyasi həyatda fəal rolunun, qadın iştirakçılığının dəstəklənməsi, gender bərabərsizliyinin aradan qaldırılması məqsədilə atılan addımlara bir daha əyani sübutdur.

Müasir cəmiyyətdə qadınların rolu böyükdür, müasir dövrdə qadınlar cəmiyyətin aparıcı qüvvəsi sayılır. Müstəqil Azərbaycanın inkişafında qadınların fəaliyyətinin əvəzsiz olduğu danılmazdır. Ümummilli lider Heydər Əliyevin həyata keçirdiyi dövlət qadın siyasəti bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bu gün qadınların ictimai-siyasi həyatımızda fəallığının artırılması üçün bu qüvvədən səmərəli istifadə edilir. Bu iş cəmiyyətimiz qarşısında böyük

vəzifələr qoyur. Bütün bunlar təhsil sistemində qadınların fədakar əməyi və fəallığı üçün geniş imkanlar açır. Təhsil ocaqlarında qadınların əldə etdiyi uğurlar, təhsilə verdikləri töfhələr, çalışdıqları sahədə göstərdikləri əzmkarlıq və fədakarlıq - Azərbaycan qadınlarına xas olan cəhətlərdir. Qadınların fəal ictimai fəaliyyətlə məşğul olmalarını çoxsaylı faktlar da təsdiqləyir. Nəciblik, xeyirxahlıq, fədakarlıq, mətinlik, qayğıkeşlik, insanpərvərlik - bu keyfiyyətlər Azərbaycan qadınına xas olan xüsusiyyətlərdir.

Bu gün Respublikamızda elə bir sahə yoxdur ki, orada qadınların iştirakı olmasın. Ulu Öndərimizin müdrik uzaqgörənliyi Azərbaycanda bu məsələlərin mütərəqqi həllinə təkan vermişdi. Heydər Əliyev qadınların cəmiyyətdə sosial statusunu təhsil, mədəniyyət, səhiyyə, dövlət idarəçiliyi və digər sahələrdəki təmsilçiliyində görürdü. Bu da qadın hərəkatında bir inkişafa səbəb oldu, eyni zamanda onlar üçün bir stimul rolunu oynadı. Heydər Əliyev Azərbaycanda yüksək səviyyəli cəmiyyət qura bilən, onu beynəlxalq miqyasda təmsil etməyi bacaran, milli və ictimai mənafeyi öz şəxsi mənafeyindən üstün tutmağa hazır olan qadınların idarəetmədə iştirakını daha da genişləndirdi. Qadınlarımız da onlara göstərilən etimadı doğruldaraq çalışdıqları sahədə nümunə göstərir, uğurlar qazanırlar.

Elmdə, əməkdə, mədəniyyətdə, fəaliyyət göstərdikləri bütün sahələrdə görkəmli qadınlara fəxri adların verilməsi, Heydər Əliyevin xalq qarşısında əvəzsiz xidmətlərindən biridir.

Qadınlara xüsusi diqqət və qayğının göstərilməsi dövlət siyasətinin prioritet istiqamətlərinin əsasını təşkil edir. İndi qadınlar həyatımızın aparıcı qüvvəsinə çevrilib. Milli təhsilimizdə əldə olunan uğurlarda Azərbaycan qadınları da gərgin əmək və qüvvə sərf etmişlər. Heç də təsadüfi deyildir ki, qazanılan uğurların böyük hissəsi məhz təhsil işçiləri olan qadın pedaqoq və müəllimlərin adı ilə bağlıdır. Onların əməyi dövlətimiz tərəfindən yüksək qiymətləndirilir. Bu, ümummilli liderin parlaq ideyalarının həyata keçirilməsinin əyani sübutudur. Respublikamızın Prezidenti İlham Əliyevin sərəncamı ilə müxtəlif peşə sahibləri olan bir çox qadınların orden və medallarla təltif edilməsi,

onlara fəxri adların verilməsi Heydər Əliyev irsinin layiqli davamçısı, onun siyasi kursunun varisi, Respublikamızın Prezidenti cənab İlham Əliyevin qadın əməyinə verdiyi diqqət və qayğıdan xəbər verir. Biz təhsil işçiləri də öz növbəmizdə bu qayğını yüksək qiymətləndirir, ona öz minnətdarlığımızı bildirir, bu qayğıya görə dövlətimizə və onun yürütdüyü siyasi kursa sədaqətli xidmətimiz, çalışdığımız təhsil sahəsində əldə etdyimiz uğurlarımız ilə cavab veririk.

# NƏRGİZ HƏSƏNOVA

***Gəncə şəhər 17 nömrəli tam orta məktəbin direktoru***



Ölkəmizin sosial-iqtisadi inkişafı sahəsində qazanılan uğurlar, beynəlxalq aləmdə Azərbaycanımızın nüfuzunun gündən-günə artması, dünyada ən sürətlə inkişaf edən dövlət kimi tanınması, regionlarımızın öz simasını tanınmaz ölçüdə dəyişməsi, elm, səhiyyə, təhsil, mədəniyyət, idman sahəsində əldə olunan nailiyyətlərin hər biri Azərbaycan vətəndaşının qəlbində qürur hissi yaradır. Biz həyatın bütün sahələrində qazanılan nailiyyətlərə, misilsiz müvəffəqiyyətlərə görə ilk növbədə Ulu Öndər Heydər Əliyevə minnətdarıq.

Bu gün müasir Azərbaycan dövlətinin dünyanın ən inkişaf etmiş dövlətləri ilə bir sırada adının çəkilməsi, artıq ənənə halını almış beynəlxalq səviyyəli tədbirlərə ev sahibliyi etməsi, iqtisadiyyatın dayanıqlı və dinamik inkişafı Ulu Öndər, müstəqil Azərbaycanın memarı Heydər Əliyevin adı ilə bağlıdır. Bu inkişaf və tərəqqinin sürətlə davam etdirilməsi məhz Heydər Əliyev siyasi kursunun qətiyyətli və layiqli davamçısı, möhtərəm Prezidentimiz İlham Əliyevin uzaqgörən siyasətinin verdiyi töfhədir. Möhtərəm Prezidentimizin diqqət və qayğısının nəticəsidir ki, şəhərimizdə

aparılan quruculuq və abadlıq işlərində təhsil müəssisələrinin payı daha çoxdur.

Azərbaycanda təhsilin inkişafı, bu sahədə islahat yönümlü tədbirlərin durmadan həyata keçirilməsi, milli təhsilimizin qabaqcıl ölkələrin mütərəqqi təhsil sistemlərinə inteqrasiyası Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin təhsil haqqında konseptual fikirlərindən qaynaqlanır. Müasir təhsil sistemimizdə hər şey onlara biliklərin verilməsi, müəyyən bacarıq və vərdişlərin aşılanması, biliklərin təcrübədə transformasiyası, bu biliklərlə şəxsiyyətin uğurlu inkişafına doğru inamlı addımlar atılmasına istiqamətlənmişdir.

Cəmiyyətin inkişafında əsas kriteriyalar arasında təhsil mərkəzi yer tutur. Dövlətimiz təhsil sisteminin prioritet inkişafı, onun həyata keçirilməsi strategiyasını müəyyən etmiş, bu sistemin dayanıqlı inkişafını və normal fəaliyyətini təmin etmək üçün bütün vacib addımları atmışdır. Təhsil sisteminin inkişafının əsas məqsədi cəmiyyətin iqtisadi və sosial inkişafı naminə sosial fəal, harmonik inkişafa malik, yaradıcı şəxsiyyətin formalaşdırılması olmuşdur. Bu işdə dövlət hakimiyyət orqanlarının, yerli İcra Hakimiyyəti Aparatının və ictimai təşkilatların təhsil sisteminin inkişafı sahəsində biz təhsil işçilərinə göstərdiyi əməli köməkliklər də öz böyük rolunu oynamış, təhsildə effektivliyin və yüksək keyfiyyətin əldə edilməsinə şərait yaratmışdır.

Burada onu da qeyd etmək yerinə düşərdi ki, pedaqoqlara və onların işinə olan tələblərin yeni məzmun alması da onların öz peşəkar fəaliyyətinə yeni müstəvidə yanaşmasına səbəb olmuş, onları peşəkarlıq bacarıqlarını və biliklərini artırmağa daha da həvəsləndirmişdir. İşinə olan bu yanaşmalar onların şəxsi təhsilinin və biliklərinin daha da təkmilləşdirilməsinin əsasını təşkil edir.

Respublikamızın hər yerində olduğu kimi Gəncə şəhərində də təhsil islahatının layiqincə həyata keçirilməsi, şagirdlərin elmi biliklərə dərindən yiyələnməsi üçün normal şəraitin yaradılması, tədris prosesinin təkmilləşdirilməsi sahəsində uğurlu nəticələrin əldə edilməsinə şərait yaratmışdır.

# ELÇİN ALIYEV

***Gəncə şəhər 19 saylı tam orta məktəbin direktoru, Respublikanın Fəxri Bədən Tərbiyəsi və İdman işçisi***



Azərbaycan öz müstəqilliyini qazandığı dövrdən başlaraq ölkəmizdə təhsil sahəsində bir tənəzzül baş verdi. Yeni yaranmış respublikada bu sahədə dağıdıcılıq fəaliyyəti özünün ən yüksək nöqtəsinə çatmışdı. Bu dövr ölkəmizdə təhsil işçilərinin sevdiyi bu sahədən uzaqlaşdırılması, bir çox məşhur təhsil işçilərinin bu sahədən kənarlaşdırılması və ya onların ölkəni tərk etməsi illəri oldu. Yalnız 1993-cü ildə Ulu Öndər Heydər Əliyevin hakimiyyətə gəlişi ilə ölkənin təhsil sahəsində böyük dirçəliş yarandı, təhsil işçilərinə böyük qayğı göstərilməyə başlanıldı. İnsanlarda həyata və yaradıcılığa böyük həvəs və stimul yarandı. Hakimiyyətə gəlişinin elə ilk dövrlərindən Heydər Əliyev Azərbaycan təhsilinin inkişafına böyük töfhələr verdi. O, müstəqil Azərbaycan təhsil siyasətinin əsasını qoydu, onun dirçəlişi və inkişafı üçün əlindən gələni etdi. Əsrlər keçəcək, Azərbaycan xalqının tarixini gələcəkdə tədqiq edən alimlər XX-XXI əsrlərdə iqtisadiyyatda, təhsildə, mədəniyyətdə, siyasi həyatda - hər sahədə bir insan əməyinin bu qədər məhsuldar olmasına heyrət edəcəklər.

Bu gün milli təhsilimiz Heydər Əliyev ideyalarından güc alır. Onun hakimiyyətdə olduğu illərdə milli təhsilimizə böyük qayğı göstərildi.

Ümummilli liderimiz deyirdi:-“Görkəmli şəxsiyyətlər xalqımızın zəkasını, elmini, mənəviyyatını, mədəniyyətini dünyaya nümayiş etdirirlər”. Bu sözlər həmçinin milli təhsilimizin bütün sahələrini ləyaqətlə təmsil edən, Azərbaycan təhsilinin inkişafı üçün gecə-gündüz çalışan zəhmətsevər, yaradıcı, xalqını və dövlətini hər şeydən uca tutan insanlara verilən ən böyük qiymət, elə onların yüksək səviyyədə qiymətləndirilməsidir. Ulu Öndər bu insanları dəyərləndirdiyi qədər digərlərini də bu zəhmətkeş, yaradıcı insanları lazımınca qiymətləndirməyə səsləyirdi. Məhz onun dövründə və onun gərgin səyləri nəticəsində Azərbaycan təhsilinə münasibətdə yeni tendensiyalar yarandı, təhsilimiz özünün yüksək inkişaf yoluna qədəm qoydu. Azərbaycan təhsili bu günkü inkişaf perspektivlərinə görə Ulu Öndər Heydər Əliyev dühasına borcludur. Ulu Öndərin milli təhsilimizə göstərdiyi qayğı müstəqil Azərbaycanın elm və təhsil həyatında əsaslı yüksəlişə səbəb olmuş, bu yüksəliş bu gün də davam etməkdədir. Bu yol onun siyasi varisi, Azərbaycan xalqının layiqli övladı, Respublikamızın Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Çünki o, qloballaşan dünyanın lider etalonudur. O, dövlətimizə başçılıq etdiyi bu illər ərzində Heydər Əliyev yoluna, Ulu Öndərimizin banisi olduğu milli dövlətçilik ənənələrinə sadiq qalmış, daha böyük əzmlə davam etdirdiyi bu kursun, Azərbaycanın dövlət müstəqilliyi qədər əbədiliyini, daimiliyini, dönməzliyini təmin etmişdir.

Dövlətimizin atdığı bütün addımlar ölkəmizdə təhsil sisteminin inkişafındakı prioritet istiqamətlərin həyata keçirilməsini uğurla təmin etmişdir.Təhsildə qazanılan bu uğurlar ilk növbədə ölkə başçı cənab İlham Əliyevin təhsilə isti münasibətindən, bu sahəni prioritet sahə hesab etməsindən, gündəlik diqqət və qayğısından, buna uyğun olaraq Təhsil Nazirliyinin öz fəaliyyətini yeni tələblər əsasında qura bilməsindən və Gəncə şəhər rəhbərliyinin bizə dəstəyindən qaynaqlanır. İnanırıq ki, təhsilə bu cür münasibət bundan sonra da uğurlarımızı daha da artıracaq, müstəqil Azərbaycan dövlətinə layiqli vətəndaşlar tərbiyə etmək üçün hər bir təhsil işçisinə yeni qol-qanad, yeni əhval-ruhiyyə bağışlayacaqdır.

# ABDULLA KƏRİMOV

***Gəncə şəhər M. Füzuli adına 22 nömrəli tam orta məktəbin direktoru***



1993-cü ilin 15 iyun xalqımızın həyatına bir tarixi hadisə kimi, Respublikamızın hərtərəfli tərəqqisinin, hüquqi, demokratik və dünyəvi dövlət quruculuğu prosesinin bünövrəsinin qoyulduğu bır gün kimi daxil olmuşdur. Ümummilli lider Heydər Əliyevin siyasi hakimiyyətə ikinci dəfə qayıdışı Milli Qurtuluş Günü, xalqımızın nicat gününün başlanğıcı oldu. Dünya şöhrətli siyasətçi, dahi dövlət xadimi, bütün varlığını xalqına xidmətə həsr etmiş Ulu Öndərimiz Heydər Əliyev öz nüfuzuna, bacarığına və xalqına arxalanıb insanları azərbaycançılıq, müstəqil dövlətçilik və demokratik ideyalar ətrafında birləşdirib, yeni dövlət quruculuğuna başladı. Onun ölkəmizə rəhbərliyi dövründə Azərbaycanda ardıcıl və sistemli olaraq hüquqi dövlət qurulucuğu və vətəndaş cəmiyyətinin formalaşdırılması prosesinə başlanıldı, vətənimiz böyük inşaat meydanına çevrildi, ölkənin yaradıcı insanları üçün əsl intibah dövrü oldu. Bu dövrdə Azərbaycanda ən iri müqavilələrin layihələri hazırlanıb, "Əsrin müqaviləsi" olan neft kontraktları imzalanıb. Azərbaycan xalqı Heydər Əliyevin timsalında

öz xilaskarını, böyük və ulu oğlunu, təhsilimizin, mədəniyyətimizin, elm və incəsənətimizin və s. inkişafında böyük və danılmaz xidmətləri olmuş dahi oğlunu görür və ona minnətdardır. Azərbaycanda o dövrdə əldə edilən bu yüksək nailiyyətlər Heydər Əliyevin böyük bacarığı və səyləri nəticəsində həyata keçirilib.

Doğma Azərbaycanımızın hərtərəfli inkişafında Heydər Əliyevin böyük rolu olmuşdur. Onun Azərbaycanın tərəqqisi və inkişafı naminə gördüyü işlər xalqımızın yaddaşından heç vaxt silinməyəcəkdir. Onun hakimiyyətə gəlişi dövründən başlayaraq qısa bir vaxtda Azərbaycanın ictimai-siyasi, sosial-iqtisadi və beynəlxalq əlaqələrində dönüş baş verdi, milli müstəqilliyimiz möhkəmləndi. Bu illərdə Heydər Əliyev xalqımızı bir millət kimi tarixin ağır və sərt sınaqlarından uğurla çıxartmış, müasir Azərbaycanın işıqlı sabahının etibarlı bünövrəsini yaratmışdır. Ulu Öndər təhsil sisteminin inkişaf etdirilməsi yönümündə də böyük işlər görmüşdür. Məhz onun dövründə təhsil sahəsi ilə bağlı islahatlara başlanılmış və bununla da milli təhsilimizin sürətli inkişafının əsası qoyulmuşdur. Ulu Öndər təhsilimizi xalqımızın böyük sərvəti hesab edir, daim onun inkişaf etdirilməsi qayğısına qalırdı. Onun hakimiyyətdə olduğu illərdə Azərbaycan təhsilinin inkişafında yeni bir dövrün əsası qoyulmuş, təhsilimiz yeni bir inkişaf mərhələsinə qədəm qoymuşdur. O, milli təhsilimizi inkişaf etdirən insanların qayğısını çəkirdi. Heydər Əliyev milli təhsilimizin əsl hamisi idi, xalqını sevdiyi qədər də bu xalqın təhsilinə, milli - mənəvi dəyərlərinə məhəbbətlə yanaşır, digər xalqlara nisbətdə milli təhsilimizin və milli dəyərlərimizin ən uca zirvələrdə olmasına bütün var qüvvəsini sərf edir, bu dəyərləri qoruyub gələcəyə aparan insanlara böyük hörmət və ehtiramla yanaşmağa çağırırdı.

Təhsilimizin və mədəniyyətimizin bütün sahələri Heydər Əliyev qayğısından bəhrələnmiş və bu günümüzə gəlib çatmışdır. Həmin dövrdə Azərbaycanda təhsilimizin bütün sahələri üzrə inkişafı ilə bağlı qəbul olunan dövlət proqramları, təhsil ocaqlarında aparılan quruculuq işləri milli təhsilimizin inkişafına böyük yol açmışdır. Milli təhsilimizin inkişafında böyük sıçrayışa təkan verən bu işlər ölkə rəhbərinin bu

sahəyə olan dıqqət və qayğısının sayəsində həyata keçirilmişdir. Bu gün ölkəmizdə olan əmin-amanlıq, iqtisadi inkişaf, müxtəlif sahələr üzrə əldə edilən uğurlar insanda fərəh və qürur hissləri oyadır. Bütün sahələri, eləcə də təhsil sahəsini əhatə edən bu inkişaf və yüksəliş dahi Heydər Əliyev kursunun layiqli davamçısı cənab İlham Əliyevin rəhbərliyi altında bu gün də davam etdirilir. Onun Azərbaycan Respublikasının Prezidenti seçildiyi bu illər ərzində ölkəmizdə böyük miqyaslı işlər görülüb. İstər yeni istehsal müəssisələrinin yaradılması, istərsə tikinti-quruculuq, abadlıq işlərinin aparılması yönündə bu işlər geniş miqyaslıdır. Bütün bunlar ölkə iqtisadiyyatının durmadan inkişafına, xalqımızın maddi rifahının yüksəldilməsinə xidmət edir. Bu uğurlar, əlbəttə ki, bizi sevindirir. Bundan irəli gəlir ki, insanlar gələcəyə daha inamla baxır, dövlətçiliyimizin qüdrətlənəcəyinə və xalqımızın rifahının daha da yüksələcəyinə inamını heç vaxt itirmir.

Günbəgün gözəlləşən ölkəmiz çiçəklənir. İnkişaf edən xalqımız bundan da gözəl həyata layiqdir. Və bunun əldə edilməsi üçün dövlətimiz var gücünü əsirgəmir. Hal-hazırda dövlətimizin daxili və xarici siyasəti bu mühüm vəzifələrin həllinə yönəlib. Dövlətimizin öz vətəndaşları üçün yaratdığı şərait öz növbəsində ölkəmizin inkişafı üçün çalışan biz təhsil işçilərinin da qarşısında böyük vəzifələr qoyur. Biz bunun məsuliyyətini anlayır, milli təhsilimizin daha da inkişafı yolunda var gücümüzü əsirgəmirik. Təhsil sistemində aparılan islahatların həyata tam keçirilməsi üçün biz təhsil işçiləri qarşımıza qoyulan vəzifə və tapşırıqların icrasına xüsusi diqqət yetiririk.

Respublikamızda fəaliyyət göstərən təhsil ocaqlarında aparılan genişmiqyaslı işlər milli təhsilimizin günbəgün inkişafına rəvac verir. Bu gün Azərbaycanın təhsil sistemi öz inkişaf dövrünü yaşayır. Bu sahədə əldə edilən nailiyyətlər də dövlətimizin uzun illər ərzində bu sistemə olan diqqət və qayğısı nəticəsində mümkün olmuşdur. Bu günkü uğurlarımıza görə, şübhəsiz ki, qısa bir vaxt ərzində ölkəmizin abadlaşdırılması və inkişafı yolunda böyük xidmətləri olmuş Heydər Əliyev dühasına və onun layiqli davamçısı, Respublikamızın Prezidenti İlham Əliyevə borcluyuq.

# ƏLİAĞA SƏFƏRƏLİYEV

***M. Mehdizadə adına Gəncə şəhər 4 nömrəli xarici dil təmayüllü məktəb - liseyin direktoru, Respublikanın Əməkdar müəllimi***



Müstəqillik qazandığımız dövrdən başlayaraq təhsil ölkəmizin ən əhəmiyyətli və ən önəmli sahəsi olaraq qalmaqdadır. Ulu Öndərimiz hər zaman bu sahəni diqqət mərkəzində saxlamış, "Təhsil millətin gələcəyidir" söyləmişdir. Ulu Öndərimiz daim təhsilin inkişafına çalışmış, təhsil işçilərinin əsl qayğıkeşi olmuşdur. O, həm də Azərbaycan təhsili üçün islahat proqramının müəllifidir.

Heydər Əliyevin ölkəmizə rəhbərlik etdiyi vaxtlarda təhsilə, Azərbaycan elminə töfhələri çox olmuşdur. Təhsilimizin ən yaddaqalan məqamları, maarifimizim intihabı, təhsilimizin uğurları məhz onun adı və fəaliyyəti ilə bağlıdır. Azərbaycan 1993-cü ilin iyun ayında üzləşdiyi taleyüklü mərhələni məhz qətiyyətli və müdrik lider Heydər Əliyevin rəhbərliyi altında geridə qoymuş, elmi təməl üzərində davamlı inkişaf yolunu müəyyənləşdirmişdir. Bu gün Azərbaycanda sosial-iqtisadi həyatın elə bir sahəsi yoxdur ki, orada nəzərə çarpacaq irəliləyiş hiss olunmasın. Milli təhsilimiz də bu inkişaf müstəvisində ən önəmli yerlərdən birini tutur. Təsadüfi deyildir ki, hazırda müstəqil

Azərbaycan iqtisadi inkişaf baxımından dünyada lider mövqeyə yüksəlib.

Ümummilli liderin qurduğu Azərbaycan dövləti möhkəm təməllərə əsaslanır. Artıq dövlətimiz dinamik inkişaf edən, müstəqil siyasət yürüdən bir dövlətdir. Biz hamımız müstəqil, suveren dövlətin vətəndaşlarıyıq. Və bununla qürur duyuruq! Həmçinin qürur və fəxr hissləri duyuruq ki, ümummilli liderimizin siyasi kursu bu gün onun layiqli varisi, Azərbaycanın və regionun yeni lideri, Prezident İlham Əliyev tərəfindən qloballaşan dünyanın tələblərinə uyğun olaraq yeni məzmun və keyfiyyətlə uğurla davam etdirilir. İlham Əliyevin son illər ərzində gördüyü işlər Azərbaycanı dünyanın ən qüdrətli dövlətləri sırasına çıxarıb, ölkəmiz qısa bir dövrdə əsrə bərabər yol keçib, özünün yeni inkişaf mərhələsinə qədəm qoyub və bu yolda möhtəşəm nailiyyətlər qazanmaqdadır.

Ölkəmizin dinamik sürətlə inkişafı, demokratik sivil dövlət quruculuğu, milliliyi, demokratiyanın inkişaf etdirilməsi bu gün Heydər Əliyev siyasi məktəbinin layiqli davamçısı, onun siyasi varisi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənablarının yeritdiyi düzgün daxili və xarici siyasətin nəticəsində əldə olunmuşdur. Bu inkişaf hal-hazırda həyatımızın bütün sahələrini əhatə etməkdədir. Azərbaycan siyasi kursa malik sivil dövlətlər siyahısında ön cərgələrdə yer tutur, güclü hərbi və iqtisadi potensiala sahib dövlət kimi regionda aparıcı rol oynayır. Bu uğurlar Azərbaycan xalqının bütün övladlarını fərəhləndirir, onlarda qürur hissi oyadır. Əldə olunun uğurlar respublikamızın pedaqoji ictimaiyyəti tərəfindən də sevinclə qarşılanır. Bu gün Azərbaycan vətəndaşının rahat təhsil alması üçün hər cür şərait vardır. Azərbaycan təhsili özünün yüksəliş dövrünü yaşayır.

Qurtuluşumuzun başlıca yekunu müstəqilliyimizin əbədi xarakter alması, dönməz prosesə çevrilməsidir. Bu prosesdə biz pedaqoqlar da yaxından iştirak edir, ölkəmizin yüksəlişi naminə daha da əzmlə çalışırıq. Xalqımıza xas olan mənəvi, etik-əxlaqi keyfiyyətlər təhsil ocaqlarında gənc nəslin damarlarına hopur, istər orta, istərsə də ali təhsil müəssisələrində Azərbaycan dövlətinə və dövlətçiliyimizə sadiq

vətəndaşlar formalaşdırılır. Onlar dövlətimizə məhəbbət ruhunda tərbiyə olunur. Cəmiyyətimizin ziyalı təbəqəsi sayılan müəllimlər bütün işlərdə dövlətimizə sədaqət nümayiş etdirir, xalqımızın övladlarında mənəvi keyfiyyətlərin formalaşdırılması, ləyaqətli insanların tərbiyəsi yolunda əzmlə çalışırlar.



Bu gün doğma Azərbaycanımız qüdrətlənir, təhsilin səviyyəsi də ilbəil artır, demokratik prinsiplər möhkəmlənir. Ölkəmizdə təhsilin inkişafı sahəsində həyata keçirilən köklü islahatların nəticəsində böyük uğurlara imza atılmışdır. Bu, təhsil işçilərini daha da yaxşı işləməyə, təhsilin keyfiyyətinin yüksəlməsinə, təhsillə bağlı dövlət proqramlarından, normativ sənədlərdən irəli gələn tədbirlərin həyata keçirilməsi istiqamətində fəaliyyətini daha da artırmağa ruhlandırmışdır.

Dövlətimiz təhsili və təhsil sistemini ölkəmizin inkişafının ən önəmli, prioritet istiqamətlərindən biri kimi həmişə diqqət mərkəzində saxlayır. Bu gün keçmiş sovetlər birliyindən qalan köhnə məktəb binalarının yerində artıq yeni, müasir binalar ucaldılır. Bəziləri isə ən

yüksək standartlara cavab verən səviyyədə əsaslı surətdə təmir etdirilir. Hər cür şəraiti olan bu məktəb binaları tədrisin və təhsilin yüksək səviyyəcə inkişafına imkan yaradır. Bu binalar təhsilin müasir standartlara uyğun səviyyədə təşkili üçün hər cür şəraitə malikdir.

Regionların sosial - iqtisadi inkişafı ilə bağlı Dövlət Proqramı çərçivəsində Respublikamızın bütün bölgələrində olduğu kimi, Gəncə şəhərində də tikinti və quruculuq işləri geniş vüsət almışdır. Dövlət proqramının icrası ilə əlaqədar regionlarda sosial infrastruktur obyektlərinin, xüsusən də təhsil müəssisələrinin tikintisi, əsaslı təmiri və maddi-texniki bazasının müasir tələblərə uyğun qurulması işləri Gəncə şəhərində bu gün də davam etdirilir. Gəncə şəhərində fəaliyyət göstərən təhsil ocaqlarında aparılan bu yenidənqurma, təmir-tikinti işləri şəhərimizin Mehdi Mehdizadə adına 4 nömrəli xarici dil təmayüllü məktəb - liseydən də yan keçməyib. Məktəbimiz günümüzün tələblərinə cavab verəcək tərzdə təmir olunmuş, məktəb öz görkəmini dəyişmiş, burada təhsilin müasir inkişafı üçün hər cür şərait yaradılmışdır. Görülən bu işlər dövlətimizin milli təhsilimizin inkişafına yönəldilən təhsil siyasətinin uğurla həyata keçirilməsinə bir daha əyani sübutdur. Biz təhsil işçiləri dövlət başçımızın təhsilə göstərdiyi bu qayğıdan sevinir və bizə yaratdığı bu gözəl şəraitə görə ona öz dərin minnətdarlığımızı bildiririk. Bu, həm də bizi daha da ruhlandırıb, məktəbimizin müəllim - pedaqoq heyətini təhsilimizi ən uca zirvələrdə görməyə can atan işgüzarlığını artırıb.

**AİDA ZÜLQƏDƏROVA**

***M.Mehdizadə adına Gəncə şəhər 4 nömrəli xarici dil təmayüllü məktəb - liseyin Azərbaycan dili və ədəbiyyatı müəllimi***



Bu gün müstəqil Azərbaycan dövlətinin ideoloji doktrinasının əsasını ümummilli lider Heydər Əliyevin 2001-ci il noyabrın 9-da keçirilən Dünya Azərbaycanlılarının qurultayında dediyi konseptual müddəa təşkil edir: ”Müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı - Azərbaycan dilini, mədəniyyətini,milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq”.

Azərbaycan dili azərbaycançılığın aparıcı elementi, başlıca ünsürüdür. Müstəqillik illərində ana dilinin mövqeyi və rolu istər təhsil sahəsində, istərsə də rəsmi dövlət dili statusu səviyyəsində möhkəmlənmiş və artmışdır. Azərbaycan dili ölkənin əsas təhsil dilinə çevrilmiş, Azərbaycan dilinin hərtərəfli inkişafı təmin edilmiş, ölkədə dövlət dili siyasətinin hüquqi bazasını təmin edən qanunvericilik aktları qəbul edilmişdir. Ən başlıcası isə orta ümumtəhsil məktəblərində Azərbaycan dilinə ayrılan saatların miqdarı artırılmış, yeni dərsliklər yaradılmışdır. Dilin və mədəniyyətin başlıca ifadə vasitəsi olan ədəbiyyatımızın tədrisində milli elementlər, xüsusən azərbaycançılıqla bağlı komponentlər prioritet istiqamət kimi ön plana çəkilmişdir.

Dil məsələsi bir milli müdafiə məsələsidir. Dilimizi qorumaq vətəni qorumaqla birdir. Çünki dil də vətən qədər, tarix qədər, adət-ənənələr qədər əzizdir. Dil də bayraq kimi, ailə kimi müqəddəslərdəndir. Dil olmasa, millət olmaz. Milli mədəniyyətin əsas ünsürü dildir. Bu mənada ölkəmizdə ana dilinin dövlət dili kimi, əsas təhsil dili kimi inkişafındakı uğurlara görə ümummilli lider Heydər Əliyevə minnətdar olmalıyıq. Bu böyük şəxsiyyət Azərbaycanda ana dilimizin hərtərəfli inkişafı, Azərbaycan dilində təhsilin və Azərbaycan dilinin tədrisi keyfiyyətinin yüksəldilməsi üçün elə möhkəm bünövrə qurub ki, bizə təkcə həmin təməl üzərində ana dilimizi gənc nəslə dərindən öyrətmək, onları ana dilinə məhəbbət ruhunda tərbiyə etmək vəzifəsi qalır.

Dilin dövlət dili statusu qazanması həqiqətən qürur gətirən tarixi hadisədir. Azərbaycan dili bu tarixi hadisəni yaşayıb. Və bu gün dilimizin dövlət statuslu dillər arasında olmasına görə dilimizin mənəvi dirilik atributuna çevrilməsi yolunda böyük fədakarlıqlar göstərmiş, ”Dilimiz çox zəngin və ahəngdar dildir, dərin tarixi köklərə malikdir. Şəxsən mən öz ana dilimi çox sevir və bu dildə danışmağımla fəxr edirəm” deyən ümummilli lider Heydər Əliyevə minnətdar olmalıyıq. Ölkəmizdə ana dilinin hərtərəfli inkişafı, işlək dilə çevrilməsi, beynəlxalq münasibətlər sisteminə yol tapması Ana dilimizin gözəl bilicisi, mahir natiq Ulu Öndər Heydər Əliyevin dilin qorunmasına yönələn düşünülmüş siyasətinin nəticəsidir. Bu siyasətin əsası hələ 1970-ci ildə qoyulub. Heydər Əliyev həmin il Bakı Dövlət Universitetinin 50 illik yubileyində Azərbaycan dilində çıxış edib. 1995-ci ildə qəbul edilən Konstitusiya ilə dövlət dilinin adı bərpa olundu. Bundan sonra hökumət səviyyəsində Ana dilinin inkişafı və qorunması istiqamətində əhəmiyyətli sənədlər qəbul edildi. 2002-ci il 30 sentyabr tarixində “Azərbaycan Respublikasında Dövlət dili haqqında” Azərbaycan Respublikasının Qanununun qəbul edilməsi Azərbaycan dilinin dövlət dili kimi işlədilməsi, onun tətbiqi, qorunması və inkişaf etdirilməsi, dünya azərbaycanlılarının Azərbaycan dili ilə bağlı milli-mədəni özünümüdafiə ehtiyaclarının ödənilməsi istiqamətində daha bir mühüm addımdır. Bu sənəd ümummilli lider

Heydər Əliyevin xalqımıza və onun dilinə tükənməz məhəbbətinin, qayğısının parlaq nümunələrindən biridir. Bu ənənələri ölkə Prezidenti İlham Əliyev cənabları uğurla davam etdirir. Dövlət başçısının müxtəlif vaxtlarda imzaladığı "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" və "Azərbaycan Milli Ensiklopediyasının hazırlanması haqqında" sərəncamları və bu istiqamətdə görülən digər işlər dilimizin inkişafına böyük qayğının təzahürüdür.

Ana dilimizi qorumaq, inkişaf etdirmək bizim də borcumuzdur. Gəncə şəhər 4 nömrəli xarici dil təmayüllü məktəb-liseyin pedaqoji kollektivi Təhsil Qanununun qarşıya qoyduğu vəzifələrin öhdəsindən layiqincə gəlir. Məktəbimizin müəllimləri təlim-tərbiyənin keyfiyyətinin daha da yaxşılaşdırılmasını vəzifə kimi qarşıya qoyub. Onlar həmişə yaradıcı axtarışdadır, qabaqcıl və müasir hesab edilən metodların tətbiqi ilə gözəl nəticələr əldə etməyə çalışırlar. Biz ana dilimizi, Azərbaycan dili və ədəbiyyatı fənnini tədris edən müəllimlər öz doğma dilimizi şagirdlərə sevdirməyə çalışır, onlara dilimizə, tariximizə, ədəbiyyatımıza, bütövlükdə Vətənimizə məhəbbət hissinin aşılanmasına xüsusi fikir veririk.

Şagirdlərdə bu keyfiyyətlərin aşılanması vətənpərvərlik hisslərinin daha da genişləndirilməsində böyük rol oynayır. Bu məsələyə müasir yanaşmanın bir səbəbi də uşaq və gənclərin milli-vətənpərvərlik tərbiyəsində yuxarıda qeyd olunan məsələlərin müstəsna rol oynamasıdır.

Ulu Öndərimiz demişdir: "Bizim zəngin ədəbiyyatımız da var... Biz dilimizlə fəxr etməliyik. Dil hər bir millətin milliliyinin əsasıdır. Ona görə də hər bir gənc öz ana dilini... müasir Azərbaycan dilini gərək ən incəliklərinə qədər bilsin və bu dildən istifadə etsin"...

Ulu Öndərimizin dərin məzmun kəsb edən, şagirdlərin mənəvi tərbiyəsinin inkişafına yönəldilən proqram xarakterli bu tövsiyəsi biz müəllimlər qarşısında təxirəsalınmaz vəzifələr qoymuşdur və biz bu vəzifələrin öhdəsindən layiqincə gəlməyə çalışırıq.

## LAURA HACIYEVA

***M. Mehdizadə adına Gəncə şəhər 4 nömrəli xarici dil təmayüllü məktəb - liseyin rus dili müəllimi***



Heydər Əliyevin həm sovet, həmçinin müstəqillik dövründə xalqımızın taleyindəki rolu əvəzolunmazdır. Onun Azərbaycanda xarici dillərin, eyni zamanda rus dilinin tədrisindəki xidmətləri əvəzsizdir.

Rus dilinin tədrisində böhran Azərbaycan Respublikası müstəqilliyə qədəm qoyduğu zamandan başladı. Elm, təhsil ocaqlarına, elmə, bu sahədə çalışan insanlara qarşı etinazsızlıq, ögey münasibət bir çox sahədə olduğu kimi, rus dili və onu tədris edənlərə də sirayət etmişdi. Ümumiyyətlə, o zaman təhsilə və onun ayrı-ayrı sahələrinə dövlət qayğısı tamamilə yox dərəcəsində idi.

Dağlıq Qarabağ və onun ətrafındakı rayonların işğal olunması ilə yanaşı, 1988-ci ildən başlayaraq, Azərbaycanda siyasi vəziyyətin gərginləşməsi, hakimiyyət uğrunda mübarizənin kəskinləşməsi təhsil sisteminə böyük zərbə vurmuşdu. 1992-ci ilin ilk 2-3 ayı ərzində qəbul edilən və tələsik icrasına başlanılan Təhsil Qanunu təhsil sisteminə vurulmuş növbəti zərbələrdən biri idi. Rus dilini tədris edən müəllim ordusu işsizlik problemi ilə üz-üzə qalmışdı. 1990-cı ilin 20 yanvarında

Azərbaycanın paytaxtı Bakı şəhərində günahsız insanlar Sovet dövlətinin təcavüzkar siyasətinin qurbanı oldular. Bu təcavüzün ordu tərəfindən amansızcasına icra olunması rus dilinə də böyük zərbə vurdu. İnsanlar kütləvi surətdə övladlarını orta məktəblərin rus bölmələrindən çıxarıb, Azərbaycan bölmələrinə keçirtdilər. Orta məktəbin Azərbaycan bölmələrində isə rus dili bir fənn kimi tamamilə ləğv edildi. Rus dilini tədris edən müəllimlər işsiz qalaraq ixtisasdəyişmə kurslarına üz tutdular.

Elm və təhsil sahəsini bürümüş böhran təhlükəli həddə-tənəzzül, dağılma, depressiya səviyyəsinə çatmışdı. İnqilabi yeniləşmələr digər sahələrdə olduğu kimi, həmçinin rus dilinin tədrisinə də zərbələr vurdu.

Bu dövrlərdə rus dili və rusdillilərin problemi çox ciddi və kəskin şəkildə, süni surətdə qabardılaraq ortaya çıxarıldı. Bütün bunlar cəmiyyətdə çox ciddi qarşıdurmalara və narazılıqlara gətirib çıxartdı. Rus dili possovet məkanında sonralar beynəlmiləl rol oynasa da, müstəqillik əldə edildikdən dərhal sonra bu dil kənara atıldı. Bütün bunlardan Azərbaycanın rus dilli əhalisi böyük əziyyət çəkdi. Rus dilini işlədənlərin faizinin respublikamızda o dövrlərdə yüksək olduğunu nəzərə alsaq, bu prosesin rus dilli əhaliyə, eyni zamanda təhsilini rus dilində alan azərbaycanlılara nə qədər mənəvi ziyan vurduğunu anlamaq olar.

O dövrlər üçün gələcəkdə bu sahədə hansısa dəyişikliklərin olacağının mümkünlüyü sıfıra bərabər hesab olunurdu.

Rus dili bizim ölkə üçün informasiya kanallarının artması, beynəlxalq əlaqələrin genişlənməsi, dünya informasiyasına çıxış demək idi. Həmin dövrdə mövcud əlaqələrin birdən-birə qırılması, rus dilinin möhkəmlənməsinin qarşısının alınması həm də siyasi xarakter daşıyırdı.

Bu siyasətin davamlı şəkildə aparılmasına isə yalnız Heydər Əliyevin hakimiyyətə gəlişindən sonra son qoyuldu və bu proses əks istiqamətdə davam etdirildi.

Rus dilinin tədrisi keçmişdən qalan müsbət amillərdən biridir. Çünki bu dili bilməklə biz postsovet məkanında yaşayan və tarixi əlaqələrimiz

olan xalqlarla ünsiyyətdə ola bilərik, başımıza gələn faciələr barəsində, ölkədə gedən quruculuq işləri haqqında həqiqətləri dünya ictimaiyyətinə çatdırmağa qadir olarıq.

Hal-hazırda respublikamızın bir çox təhsil ocaqlarında rus dili yenə də tədris edilməkdədir və bu da gələcək kadrların hərtərəfli inkişafına, inteqrasiya proseslərində fəal iştirak etmələrinə şərait yaradır. Bütün bunlar Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin 30 mart 1998-ci il tarixli "Azərbaycan Respublikasında təhsil sahəsində islahatlar üzrə Dövlət Komissiyası haqqında" sərəncamının, Azərbaycanın təhsil sistemində beynəlxalq standartlara uyğun islahatların nəticəsidir. Bu konsepsiyanın davamı kimi rus dilinin tədris problemi də öz həllini tapmışdır. Belə ki, 2012-ci ildən Azərbaycan məktəblərində rus dili tədris olunmağa başlayıb. Bununla da rus dilinin tədrisi problemi də öz həllini tapmış oldu.

Dünya siyasət arenasında, köhnə postsovet məkanında rus dili tək ünsiyyət dili deyildir, bu dilin bir çox siyasi, iqtisadi, ədəbi əlaqələrin qurulmasında da böyük rolu vardır. Tək ölkə sərhədlərinin xaricində deyil, ölkə daxili müasir həyatda bu dil bir çox sahələrin davamlı inkişaf etdirilməsində böyük rol oynayır. Bunun ən böyük aparıcı sahələrindən biri iqtisadiyyat və turizm sektorudur. Ölkəyə daxil olan turizm axını, iqtisadiyyatla bağlı bağlanılan müqavilələr, bank sistemində rus dilli xalqların qoyduğu vəsaitlər bu dili daha mükəmməl bilən insanlara ehtiyac yaradır.

Dövlət bu sahəyə böyük diqqət ayırır. Dünyəvi dillər arasında rus dilinin xüsusi yer tutmasını nəzərə alaraq dövlətimiz orta və ali təhsil ocaqlarında rus dilinin tədrisinə xüsusi yer ayırmışdır. Hal-hazırda fəaliyyət göstərən Slavyan Universiteti bu diqqətin bariz nümunəsidir. Bundan əlavə, bir çox ali məktəblərdə rus dili kafedrasının fəaliyyəti bu günümüzdə rus dilinin tədrisi yönümündə irəli atılan böyük addımlardan biridir. Rus dili müəllimlərinin hazırlığı işi burada yüksək səviyyədə həyata keçirilir. Bütün bu işlər bu gün də uğurla davam etdirilir. Bu, respublikamızın prezidentinin dilçiliklə, xüsusilə də rus dilinin tədrisi ilə bağlı fərmanlarında öz əksini tapmışdır.

MDB ölkələrinin təcrübəsində rus dilinin bu ölkələrin əhalisi arasında elm, təhsil, iqtisadiyyat, mədəniyyət sahələrində ünsiyyət, mədəni - iqtisadi əlaqələrin qurulması və s. rolunu nəzərə alaraq, ölkəmizdə rus dilinin tədrisi bazasının daha da möhkəmləndirilməsi, bu dilə dərindən yiyələnən ixtisaslı kadrların hazırlanması günümüzün ən böyük tələblərindən birinə çevrilməkdədir. Günlər ötdükcə bu tələbat müxtəlif sahələrin mütəxəssisləri, alimləri və pedaqoqları qarşısında daha böyük vəzifələr qoyur.

# URFAN HAQVERDİYEV

***Gəncə şəhər Gənclər və İdman Baş İdarəsinin nəzdində UGİM-in məşqçi-müəllimi, Gəncə İdman Liseyinin Azad Həmkarlar İttifaqının sədri***



Qüdrətli, güclü insanlar hər gün doğulmurlar. Dahilərin həyat yolu, əməlləri göstərir ki, əslində onlar insanlara yol göstərmək, örnək olmaq üçün həyata gəlirlər. Tarixi məhz dahilər, kütlələri arxasınca aparmağı və qaranlıqdan çıxarmağı bacaran insanlar yaradır, güclü şəxsiyyətlər cəmiyyətdə baş verən müxtəlif proseslərin istiqamətlərinin dəyişməsinə təsir edə bilirlər.

Bu fikrin nə qədər doğru olduğunu biz öz timsalımızda təsdiq edə bilərik. Heç birimizin xatirindən, yaddaşından silinməyəcək 1993-cü ili xatırlayaraq. Müstəqilliyimizin hələ möhkəmlənmədiyi bir dövrdə xalqımızın başı üstünü yenə qara buludlar almışdı. Dərin ictimai-siyasi və iqtisadi böhranlarla üzləşmişdik. Bədxahlar, xarici qüvvələrlə birləşən nankorlar dövləti parçalamağa cəhd edir, ölkədə hakimiyyətsizlik, anarxiya və özbaşınalığın baş alıb getməsinə şərait yaradırdılar. İdarəetmə qabiliyyəti olmayanlar Azərbaycanın dövlət müstəqilliyini, çətinliklə nail olduğu azadlığı, suverenliyi təhlükə altına qoymuşdular. Lakin, xoşbəxtlikdən xalq sayıqlığını itirmədi.

1993-cü ilin 15 iyununda tarixi yaratmağa və hadisələrin axarını dəyişməyə qadir olan siyasət ustasının - ümummilli lider Heydər Əliyevin hakimiyyətə gəlməsi xalqımızı növbəti fəlakətdən qurtardı. Onun böyük xidmətləri nəticəsində Azərbaycan büdrəmədi, dirçəldi, qısa bir vaxt ərzində bütün çətinlikləri arxada qoyaraq möhkəmlənməyə başladı. “Mənim həyatımın məqsədi Azərbaycandır, Azərbaycan xalqıdır, Azərbaycan Respublikasıdır, Azərbaycan vətəndaşıdır. Əgər buna nail ola bilsəm, ən xoşbəxt adam kimi həyatımı başa çatdıracam” - deyən Heydər Əliyev həyatını Azərbaycan dövlətinin möhkəmlənməsinə, inkişafına, zənginləşməsinə həsr etmiş və o, ölkəmizin bütün sahələrində qazanılan nailiyyətlərin ilhamçısı və təşkilatçısı olmuşdur.

Ulu Öndər digər sahələrdə olduğu kimi milli təhsiimizə, onu təmsil edən insanlara diqqət və qayğı ilə yanaşırdı.Ulu Öndərin hakimiyyətdə olduğu illərdə Azərbaycan təhsili tarixi inkişaf yolu keçmiş, təhsil, mədəniyyət və incəsənət aləmində böyük dönüş və irəliləyişlər baş vermiş və bütün bunlar onun himayəsi və nəzarəti altında davam etmişdir. Heydər Əliyev elm və təhsilin inkişafına böyük qayğı ilə yanaşırdı. O, elm və təhsilin himayədarı idi. Ümummilli liderimizin rəhbərliyi ilə respublikamızın iqtisadi potensialının gücləndirilməsi elm və təhsilin inkişafı ilə paralel aparılırdı. Heydər Əliyevin rəhbərliyi dövründəki illər Azərbaycanın tarixinə elmin və təhsilin tərəqqisi dövrü kimi daxil oldu. Təkcə paytaxtımızda deyil, respublikamızın ucqarlarında da yüzlərlə məktəb, mədəniyyət evi, kitabxana, uşaq bağçaları tikildi. Bütün sahələrdə görünməmiş uğurlar qazanıldı.

Heydər Əliyev milli təhsilimizin inkişafı üçün bütün var qüvvəsini sərf edir, təhsil işçilərinə maddi və mənəvi dəstək göstərilməsinə çalışır, milli təhsilimizin inkişafına töfhələr verən, bu sahəni təmsil edən yaradıcı və zəhmətsevər insanların dövlət səviyyəsində qiymətləndirilməsinin vacibliyini həmişə vurğulayırdı. Onun dövlət başçısı olduğu illər Azərbaycan təhsilinin inkişafı və intibah illəridir. Bu günkü inkişafa, sabitliyə görə biz Heydər Əliyevə borcluyuq.

# ELZA BABAYEVA

***Gəncə şəhər 7 nömrəli tam orta məktəbin coğrafiya müəllimi***



Ulu Öndər Heydər Əliyev XX əsr Azərbaycan tarixinin ən parlaq siması, qüdrətli şəxsiyyətidir. 1993-cü ilin iyununda Azərbaycan xalqının təkidi ilə Heydər Əliyevin ikinci dəfə siyasi hakimiyyətə qayıdışı milli müstəqilliyimizi məhv olmaq təhlükəsindən xilas etdi, Azərbaycan xalqında ruh yüksəkliyi, öz gələcəyinə inam yaratdı. Azərbaycan parçalanma təhlükəsindən xilas oldu. Ümummilli liderimizin iradəsi, qətiyyəti, zəngin iradəçilik təcrübəsi, vətənimizin azadlığı və müstəqilliyi uğrunda apardığı gərgin mübarizə nəticəsində ictimai-siyasi sabitlik, əmin-amanlıq bərqərar oldu, demokratik-hüquqi dövlət quruculunda böyük nailiyyətlər qazanıldı.

Ulu Öndərin Vətən, Xalq qarşısında xidmətləri əvəzsiz, ölçüyəgəlməzdir. Azərbaycanın həyatının elə bir sahəsi yoxdur ki, orada Heydər Əliyev əməyinin, Heydər Əliyev zəkasının izi olmasın. Heydər Əliyevin məqsədyönlü siyasi fəaliyyəti nəticəsində Azərbaycanda milli özünüdərk prosesi gücləndirilmiş, bütün yaradıcı ziyalıların sərbəst düşüncəsi üçün şərait yaradılmışdır. Bütün bunlar milli şüurun oyanmasına təkan vermişdir. Həyatımızın bütün sahələrində dayanıqlı inkişafa qədəm qoyulmuş, Azərbaycan dünyanın inkişaf etmiş ölkələri sırasında öz layiqli yerini tuta bilmişdir. Biz bu günkü firavan həyatımıza görə məhz Heydər Əliyev dühasına

borcluyuq. Bu dahi şəxsiyyətin ölkəmizin xilası və rifahı naminə gördüyü işlər misilsizdir.

Milli müstəqilliyimizə nail olunduqdan sonra təhsilimiz və mədəniyyətimiz tərəqqi yoluna qədəm qoymuşdur. Milli təhsil və mədəniyyət məsələlərinə müstəsna əhəmiyyət verən ümummilli liderimiz Heydər Əliyevin bu sahələrlə bağlı dünülmüş, ardıcıl, gərgin, məhsuldar fəaliyyəti, xalqının qarşısında təmənnasız xidməti heç vaxt unudulmayacaqdır. ”Hamımızın ümumi vəzifəsi xalqımızda vətənpərvərlik, Vətən torpağına, millətə sədaqət, Vətən uğrunda şəhidliyə hazır olmaq hisslərini formalaşdırmağı inkişaf etdirmək və təbliğ etməkdir” deyən Ulu Öndər təhsilin, ziyalıların cəmiyyətdə roluna böyük önəm verirdi. Milli təhsilimizin inkişafı naminə bu sahədə aparılan köklü islahatlar məhz Ulu Öndərin adı ilə bağlıdır. Dahi şəxsiyyət Azərbaycanda rəhbərliyə başladığı ilk günlərdən təhsilin inkişafına mane olan amilləri aradan qaldırmaq üçün ciddi mübarizə tədbirlərinə başlamış, ölkəmiz üçün layiqli vətəndaşların yetişdirilməsini günün başlıca vəzifəsi hesab etmişdir.

Hər bir xalq özünün xoşbəxt gələcəyə olan ümidlərini, ilk növbədə gənc nəsillə bağlayır. Gənc nəsilin yetişdirilməsi bizim ölkə üçün də ən başlıca məsələlərdən biri olaraq qalır. Bu gün müasir gənclərimiz ölkəmizin ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatında fəal iştirakı ilə seçilirlər.

Ümummilli lider Heydər Əliyev demişdir: “Hər bir Azərbaycan gənci hər şeydən çox, hər şeydən artıq müstəqil Azərbaycanın bu günü, gələcəyi haqqında düşünməlidir”. Ulu Öndər Azərbaycan gəncini yüksək vətəndaşlıq hissinə malik, müstəqil Azərbaycanın bu günü və gələcəyi haqqında düşünən, yüksək potensiala, elmi biliklərə malik vətəndaşlar kimi görür, gənclərlə bağlı məsələləri həmişə öz siyasətinin əsas tərkib hissələrindən biri hesab edir, gənclərin imkan və bacarıqlarını yüksək qiymətləndirir, onların problemlərinin həlli istiqamətində həyata keçirilən bütün tədbirlərə xüsusi önəm verirdi.

Bu gün Azərbaycanda gənc nəslə diqqət və qayğı dövlətin ən mühüm fəaliyyət istiqamətlərindən birinə çevrilib. Artıq Azərbaycan gəncləri ölkədə baş verən bütün proseslərin mərkəzində dayanır.

Xalqımızın rifahı və ölkənin çiçəklənməsi naminə görülən işlərdə Azərbaycan gənclərinin də öz önəmli rolu və payı vardır. Azərbaycan gəncləri cəmiyyətin ən dinamik zümrəsi olmaqla, günümüzün müasir, inkişaf etmiş, yüksək intellektli aparıcı qüvvəsi kimi formalaşmışdır. Əlbəttə ki, gənclərin müasir inkişafında dövlətimizin apardığı gənclər siyasətinin mühüm rolu olmuşdur. Bu siyasətin banisi isə ümummilli liderimiz Heydər Əliyevdir.

Heydər Əliyevin milli-mənəvi və ümumbəşəri dəyərlərə, beynəlxalq təcrübəyə əsaslanan milli təhsil quruculuğu sahəsində başladığı islahatlar bu gün Ulu Öndərin siyasi kursunun layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ölkəmizdə təhsil sahəsində həyata keçirilən dövlət siyasəti xalqımızın, dövlətimizin inkişafına doğru istiqamətləndirilmişdir. Çünki, təhsilə olan qayğı millətin gələcəyinə olan qayğıdır.

Bu gün Heydər Əliyev irsini öyrənmək və gələcək nəsillərə çatdırmaq hər birimizin vətəndaşlıq borcudur. Bu biz təhsil işçiləri üçün böyük etimaddır və biz bu etimadı doğrultmaq üçün əlimizdən gələni əsirgəmir və cəmiyyət üçün layiqli vətəndaşlar yetişdirməyə çalışırıq.

Bu gün ümummilli lider Heydər Əliyev siyasi irsinin öyrənilməsi və təbliğinə həsr olunmuş silsilə tədbirlər hazırlanaraq həyata keçirilir. Keçirilən tədbirdə, şagirdlərlə aparılan söhbətlərdə XX əsr Azərbaycan tarixinin ən parlaq siması, qüdrətli şəxsiyyəti olan Ulu Öndər Heydər Əliyevin ən müsbət keyfiyyətləri özündə birləşdirən Azərbaycan gəncliyinə göstərdiyi xüsusi diqqət və qayğıdan ətraflı söz açılır.

# Mündəricat

**Ön söz**........................................................................................................... 3
**Niyazi Bayramov,** ***Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı***.................... 5
**Ramil Orucov,** *YAP Gəncə şəhər təşkilatının sədri* ................................ 8
**Yusif Yusibov,** ***Gəncə Dövlət Universitetinin rektoru, professor*** .............. 11
**Fuad Əliyev,** ***AMEA-nın Gəncə bölməsinin sədri, kimya elmləri doktoru, akademik***.............................................................................................. 14
**Pərvin Kərimzadə,** ***Millət vəkili***.............................................................. 21
**Naqif Həmzəyev,** ***Millət vəkili***............................................................... 25
**Musa Quliyev,** ***Millət vəkili***................................................................... 28
**Müşfiq Cəfərov,** ***Millət vəkili***................................................................. 31
**İbrahim Cəfərov,** ***Kənd təsərrüfatı elmləri doktoru, professor, BM və TBETİ-nin direktoru*** ........................................................................ 34
**Şahin Xurşudov,** ***Gəncə Dövlət Universitetinin Tədris məsələləri üzrə prorektoru, iqtisad elmləri üzrə fəlsəfə doktoru, dosent*** ......................... 44
**Muğan Quliyev,** ***Gəncə Dövlət Universitetinin Fizika və texniki fənlər fakültəsinin dekanı, riyaziyyat üzrə elmlər doktoru, professor***................ 47
**Elçin Cavadov,** ***Gəncə Dövlət Universitetinin kafedra müdiri***.................... 50
**Azad Bayramov,** ***ADAU-nun İctimai Fənlər kafedrasının müdiri, professor***........................................................................................... 54
**Həmid Nəsirov,** ***Gəncə şəhər Gənclər və İdman Baş İdarəsinin rəisi*** 67
**Bayram Apoyev,** ***GDU-nun dosenti, "Azərbaycan Respublikasının Qabaqcıl Təhsil İşçisi", Prezident təqaüdçüsü***........................................... 70
**Hüseyn Bəxtiyarlı,** ***Gəncə Dövlət Universitetinin Ümumi tarix kafedrasının dosenti***.......................................................................... 74
**Etibar Musayev,** ***Ümumi tarix kafedrasının müəllimi, tarix üzrə fəlsəfə doktoru, dosent***..................................................................................... 81
**Mehman Rzayev,** ***Gəncə Tibb Kollecinin direktoru, Azərbaycan Respublikasının Əməkdar həkimi***............................................................ 91
**Bayram Hacıyev,** ***Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Gəncə şəhər Komitəsinin sədri, Gəncə şəhər İcra Hakimiyyəti yanında*** 96

***İctimai şuranın sədri .....................................................................***

**Şahin Məhərrəmov,** ***Sənaye və Texnologiyalar üzrə Gəncə Dövlət Peşə Təhsil Mərkəzinin direktoru*** ..................................................................... 98

**Azər Rüstəmov,** ***Ticarət və Xidmət üzrə Gəncə Dövlət Peşə Təhsil Mərkəzinin direktoru***..................................................................... 102

**Mehman Allahverdiyev,** ***Gəncə İdman Liseyinin direktoru, Respublikanın Fəxri Bədən Tərbiyəsi və Fəxri İdman işçisi***....................... 104

**Ramil Qasımov,** ***Gəncə şəhər 1 nömrəli Uşaq-Gənclər İdman-Şahmat Məktəbinin direktoru, Paraolimpiya çempionu***........................................... 108

**Asif Həsənov,** ***Gəncə şəhər 2 nömrəli Uşaq-Gənclər İdman-Şahmat Məktəbinin direktoru, Əməkdar bədən tərbiyəsi və idman xadimi***........................................... 111

**İntiqam Hüseynov,** ***Azərbaycan Respublikasının Əməkdar Məşqçisi, Gəncə Olimpiya İdman Kompleksi MMC-nin direktoru***.............................. 114

**Aida Əmrahova,** ***Gəncə şəhər 1 saylı Uşaq Musiqi Məktəbinin direktoru*** 119

**Hüseyn Zahidov,** ***Respublikanın Əməkdar müəllimi***................................. 122

**Vidadi Quliyev,** ***Gəncə şəhər 21 saylı tam orta məktəbin direktoru***............ 126

**Sahibə Abdullayeva,** ***Gəncə şəhər 2 saylı tam orta məktəbin direktoru***...... 130

**Nərgiz Həsənova,** ***Gəncə şəhər 1 saylı tam orta məktəbin direktoru***........... 134

**Elçin Alıyev,** ***Gəncə şəhər 19 saylı tam orta məktəbin direktoru***.............. 136

**Abdulla Kərimov,** ***Gəncə şəhər 22 saylı tam orta məktəbin direktoru***.......... 138

**Əliağa Səfərəliyev,** ***Gəncə şəhər 4 nömrəli xarici dil təmayüllü məktəb - liseyin direktoru, Respublikanın Əməkdar müəllimi***.................................. 141

**Aida Zülqədərova,** ***Gəncə şəhər 4 nömrəli xarici dil təmayüllü məktəb - liseyin Azərbaycan dili və ədəbiyyatı müəllimi*** ...................................... 145

**Laura Hacıyeva,** ***Gəncə şəhər 4 nömrəli xarici dil təmayüllü məktəb - liseyin rus dili müəllimi*** ................................................................... 148

**Urfan Haqverdiyev,** ***Məşqçi-müəllim, Gəncə İdman Liseyinin Azad Həmkarlar İttifaqının sədri***................................................ 152

**Elza Babayeva,** ***Gəncə şəhər 7 nömrəli tam orta məktəbin coğrafiya müəllimi***..................................................................................... 154

*Çap evinin direktoru:* Toğrul Abasov

*Tərtibat: Zibər İsayeva*

*Üz qabığının tərtibatı:* Ariz Babayev

*Kitab "STAR"çap evində  səhifələnmiş və çap edilmişdir.*

Çapa imzalanıb: 23.04.2023
Format: 60x90 1/16.
Həcmi: 8,75 ç.v., Tiraj: 150 əd.
Sifariş № 83

STAR çap evi
GRAFİKA ÇAP DİZAYN

Gəncə, Cavadxan küç., 77a
+994 55 624 34 44,
+994 22 266 06 63
+994 55 930 06 63
e-mail:6243444@mail.ru